www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22-24 sentyabr 2018-ci il Şənbə № 199 (7088) Qiymət 60 qəpik

**Xəbər**

**Bakıda qadın və azyaşlılara qarşı əxlaqsız hərəkətlər edən şəxs saxlanıldı**

yazısı səh.14-də

## Gündəm

**Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi qeyd olundu**



Dünyanın onlarla ölkəsindən gəlmiş rəsmi qonaqların iştirak etdiyi mərasimdə prezident İlham Əliyev mühüm mesajlar verdi

yazısı səh.3-də

**Tramp OPEK-i hədələdi - Azərbaycan nefti ucuzlaşacaq?**

yazısı səh.4-də

**"Yeni Müsavat"ın reportyor qrupu Qəbələnin qədim kəndi Lazadan yazır**

yazısı səh.10-da

**Qarabağa sülhü Rusiya, yoxsa Azərbaycan əsgəri gətirəcək - ekspertlər deyir ki...**

yazısı səh.11-də

**Bakıda kirayə mənzillər bahalaşdı**

yazısı səh.3-də

**Cümhuriyyət, sovet və müstəqillik dövrünün parlament sədrləri**

yazısı səh.4-də

**Ağ Ev Bakı və İrəvana çağırış etdi: "Konfliktin həlli üçün..."**

yazısı səh.11-də

*Ölkənin baş arıçısı:*

**"Başımdakı 11 sm-lik şişi arı məhsulları ilə əritdim"**

yazısı səh.13-də

**NATO Azərbaycan uğrunda mübarizəyə qoşulur - alyans rəsmisinin Bakı səfərində mühüm hədəf**

yazısı səh.9-da

**Payız depressiyasından qurtulmağın 10 qızıl qaydası**

yazısı səh.15-də

# İRƏVANIN "İKİ STUL" SİYASƏTİ FİASKODA - BAKI ÜÇÜN UNİKAL ŞANS

Paşinyanın Qərb və Rusiya arasında "balans" kursu bumeranq kimi özünə qayıtmağa başlayıb; "Rus NATO-su"na rəhbərlik Ermənistandan alınır; Paşinyanın Trampla görüş cəhdləri də boşa çıxıb - səbəb...



yazısı səh.8-də

## İlyas İsmayılovun oğlunun qətli - milyon dollar və Avstriya silahı...

İstanbulda öldürülən Etimad İsmayılov Nardaranda dəfn olundu; qətli törədən Gözəl Dəmirov istintaqda susur, yoxsa yalan danışır?

yazısı səh.5-də



*Toğrul İsmayıl:*

**"Azərbaycan-Türkiyə ittifaq dövləti məsələsini gündəmə gətirmək zamanıdır"**

yazısı səh.7-də



*Hacı Şahin:*

**"Azərbaycanda indiyədək belə Aşura keçirilməyib"**

yazısı səh.6-da



*Razi Nurullayev:*

**"Ermənistanla danışıqlar vaxt itkisidir"**

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 198 (7087) 21 sentyabr 2018



# Prezident Ramil Usubovu mükafatlandırdı

**Xəbər verildiyi kimi, Azərbaycan Polisinin yaranmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikasında ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 iyun tarixli sərəncamı ilə daxili işlər naziri, general-polkovnik Ramil Usubov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən modern.az-a verilən məlumata görə, ötən gün prezident İlham Əliyev yüksək dövlət mükafatını - 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenini daxili işlər naziri, general-polkovnik Ramil Usubova təqdim edib.

# Avropa Məhkəməsi Ermənistan əleyhinə qərar çıxardı



**Dünən Avropa İnsan Haqları Məhkəməsi (AİHM) 2008-ci ilin 1 mart hadisələri ilə əlaqədar "Muşeqa Sqatelyan Ermənistana qarşı" işi üzrə qərar çıxarıb.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, AİHM Ermənistandakı mart qırğını zamanı zərərçəkmiş Muşeqa Sqatelyanın şikayətini təmin edib və ona qarşı Ermənistanın güc strukturları tərəfindən qəddar münasibət göstərildiyini, effektiv istintaq aparılmadığını və Sqatelyanın həbsinin qanunsuz olduğunu təsdiqləyib.

Avropa Məhkəməsinin çıxardığı qərarla təqsirləndirilən tərəf kimi Ermənistan hakimiyyəti 3 ay ərzində ittihamçı tərəfə - Ermənistan vətəndaşı Muşeqa Sqatelyana vurduğu maddi ziyanın kompensasiya edilməsi üçün 15 min 600 avro məbləğində təzminat, məhkəmə xərcləri üçün isə 5 min avro pul ödəməlidir.

Qeyd edək ki, Muşeqa Sqatelyan 2008-ci ilin fevralındakı seçkilərdən sonra Serj Sərkisyanın prezident seçilməsinə qarşı keçirilən 1 mart kütləvi etirazlarında iştirak etdiyinə görə həbs olunub. Həmin etirazları dağıtmaq üçün Ermənistanın güc strukturları odlu silahdan atəş açaraq 10 nəfər dinc nümayişçini öldürüblər. Sqatelyanın Ermənistan dövlətinə qarşı AİHM-ə şikayəti ona qarşı məhkəmə prosesinin qeyri-şəffaf aparılması və qanunsuz həbsi, o cümlədən Ermənistan polisinin zorakılığı ilə bağlıdır.

# Rusiya Suriya sahillərində hərbi əməliyyatlara başlayıb



**Rusiya Suriya sahillərində hərbi əməliyyatlara başlayıb. Türkiyə KİV-ləri xəbər verir ki, bir həftə ərzində hava məkanı və dəniz nəqliyyatı xətti bağlı olacaq.**

Qeyd edək ki, sentyabrın 17-dən 18-nə keçən gecə Aralıq dənizi üzərində Rusiyanın "İl-20" tipli hərbi təyyarəsi Suriyanın Hərbi Hava Müdafiə Qüvvələri tərəfindən səhvən vurulub. Hadisə Latakiya əyalətindəki hərbi obyektlərə İsrail aviasiyasının hücumunu dəf edərkən baş verib.

Təyyarənin vurulması nəticəsində Rusiyanın 15 hərbçisi ölüb.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu israilli həmkarı Aviqdor Libermanla telefon danışığı zamanı bu hadisəni cavabsız qoymayacaqlarını və uyğun addım atacaqlarını bildirib.

# Bu gün Azərbaycan Parlamentinin 100 illiyi ilə bağlı tədbir keçiriləcək

## Yubiley tədbirinə 150 ölkədən parlament nümayəndə heyəti qatılacaq



**Bu gün Azərbaycan Parlamentinin 100 illiyinə həsr edilən təntənəli iclas keçiriləcək. Yubiley mərasimi Milli Məclisin inzibati binasında təşkil ediləcək. Prezident İlham Əliyevin də tədbirdə iştirak edəcəyi gözlənilir. Yubiley tədbirinə 150 ölkədən parlament nümayəndə heyəti qatılacaq. Tədbirdə 14 ölkənin parlament sədri, 13 ölkənin parlament sədrinin müavini, 11 ölkənin isə parlamentlərarası işçi qrupları iştirak edəcəklər.**

Milli Məclisin mətbuat katibi Akif Təvəkküloğlu "Report"a açıqlamasında deyib ki, təntənəli iclasda Türkiyə, Səudiyyə Ərəbistanı, Gürcüstan, Əfqanıstan, Küveyt, Bəhreyn, Bosniya və Herseqovina, Bolqarıstan, Cibuti, İndoneziya, Pakistan parlament sədrləri səviyyəsində təmsil olunacaq: "Əlavə bir neçə ölkə də var ki, onların da sədr səviyyəsində tədbirə qatılması gözlənilir. Yubiley tədbirinə Rusiyanın, İranın, Macarıstanın, Polşanın, Serbiyanın, Monteneqronun, Çexiyanın, Qazaxıstanın, Özbəkistanın, Tacikistanın, Vyetnamın parlament sədrlərinin müavinləri qatılacaqlar".

A.Təvəkküloğlu qeyd edib ki, təntənəli iclasa ATƏT Parlament Assambleyasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının (Türk PA), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (QDİƏT PA), Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasının (MDB PA), Avropa Parlamenti, GUAM (Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova) Parlament Assambleyasının nümayəndələri də qatılacaq.

Sentyabrın 20-də prezident İlham Əliyev ölkəmizə səfərə gələn Cibuti Milli Assambleyasının sədri Məhəmməd Əli Humədi, Oman Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimi, Pakistan Senatının sədri Məhəmməd Sadiq Səncarini, Bolqarıstan Milli Assambleyasının sədri Tsveta Karayançevanı, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekovu, ATƏT Parlament Assambleyasının prezidenti George Tseretelini, Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərifi qəbul edib.

**Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Azərbaycan XİN ATƏT-ə çağırış etdi

**"Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-Yorkda BMT Baş Assambleyası çərçivəsində nəzərdə tutulan görüşü ərəfəsində Ermənistan rəhbərliyi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə belə bir təxribatçı səfərin edilməsi və səfər zamanı aqressiv bəyanatların səsləndirilməsi Ermənistan tərəfinin qəsdən vəziyyəti gərginləşdirmək niyyətinin göstəricisidir. ATƏT-in Minsk Qrupunun həmsədrlərini işğalçı Ermənistanı danışıqlar prosesinə xələl yetirən bu kimi təxribatçı addımlardan və bəyanatlardan çəkindirmək istiqamətində addımlar atmağa çağırırıq".**

Azərbaycan XİN mətbuat xidmətinin yaydığı açıqlamada belə deyilir.

Açıqlamada vurğulanıb ki, Ermənistan son günlər təmas xəttində, eləcə də Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşdirilməsi istiqamətində sistematik addımlar atır: "Azərbaycan torpaqlarının işğalı, bu ərazilərdə törədilən çoxsaylı qanun pozuntuları və cəbhə bölgəsində yaranmış gərginliyin bütün məsuliyyəti Ermənistan rəhbərliyinin üzərinə düşür".




# "Nar" İsmayıllıda 4G şəbəkəsini qurdu

**Ölkənin ən gənc mobil operatoru olan "Nar" yüksək keyfiyyətli 4G şəbəkəsini bölgələrdə sürətlə artırmağa davam edir. 4G şəbəkəsinin istismara verildiyi növbəti region İsmayıllı oldu. Bununla da İsmayıllıda 2G, 3G, 4G baza stansiyalarının ümumi sayı 68-ə çatdı. Nəticədə İsmayıllı sakinləri keyfiyyətli və yüksək sürətli mobil rabitə xidmətləri ilə təmin edilir.**

**Hazırda "Nar" 4G şəbəkəsinin əhatə dairəsini bütün Azərbaycan boyunca sürətlə genişləndirir və ölkədə ən geniş 4G şəbəkələrindən birinə malikdir. Bölgələrə xüsusi diqqətilə seçilən mobil operator, 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, bölgələrdə, şəhər və rayon mərkəzlərində də təqdim edir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq 37 bölgə "Nar" 4G şəbəkəsi ilə əhatə olunub. Hazırda ölkə ərazisində 1326 sayda 4G, 2645 sayda isə 3G baza stansiyaları fəaliyyətdədir. Bununla da "Nar" abunəçilərinin böyük bir qismi yüksəksürətli internetə çıxış əldə edib. 4G keyfiyyəti ilə yanaşı "Nar"-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır.**

**Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.**



# Zakir Həsənov təlimləri izlədi

**Azərbaycan ordusunun genişmiqyaslı təlimlərinin planına uyğun olaraq müxtəlif poliqonlarda və müasir avadanlıqla təchiz edilmiş təlim sahələrində gündüz vaxtı döyüş atışları icra olunub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, motoatıcı, tank, raket-artilleriya, zenit-raket bölmələri, hava hücumundan müdafiə vasitələri, aviasiya, eləcə də digər birləşmələr silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Müasir ümumqoşun döyüşünün prinsiplərinə riayət edilməklə, mürəkkəb relyef şəraitində və şərti düşmənin ehtimal olunan fəaliyyəti nəzərə alınaraq qoşunların, eləcə də idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib. Təlimlərdə həmçinin hava desantının döyüş tətbiqi üzrə tapşırıqlar da icra olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi təlimlərə cəlb olunan qoşunların peşəkarlığını və şəxsi heyətin hazırlığını yüksək qiymətləndirib.

# Tramp Paşinyanla görüşməyəcək

**Nyu-Yorkda keçiriləcək BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində ABŞ prezidenti Donald Trampla Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş gözlənilmir.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bunu jurnalistlərə açıqlamasında Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyan deyib.

"Paşinyan-Tramp görüşünün təşkili üçün müəyyən vaxt lazımdır. Biz ABŞ rəhbərliyi ilə bunun üzərində işlər aparırıq", - Mnatsakanyan deyib.

Bundan öncə Ermənistan mətbuatının yaydığı məlumata görə, Paşinyan Nyu-Yorkda keçiriləcək BMT Baş Assambleyasının 73-cü sessiyasında iştirak etmək məqsədilə sentyabrın 23-də ABŞ-a səfər edəcək.

YENİ MÜSAVAT
N 199 (7088) 22 sentyabr 2018

# Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi qeyd olundu

## Dünyanın onlarla ölkəsindən gəlmiş rəsmi qonaqların iştirak etdiyi mərasimdə prezident İlham Əliyev mühüm mesajlar verdi

**Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) parlamentinin yaranmasının 100 illik yubileyi ilə əlaqədar təntənəli iclas keçirilib. Ümumilikdə tədbirə 150 ölkənin parlamentinin nümayəndə heyəti qatılıb. Təntənəli mərasimdə Bosniya və Herseqovina, Bolqarıstan, Pakistan, Oman, Türkiyə, Bəhreyn, Küveyt, Qırğızıstan, Cibuti, Səudiyyə Ərəbistanı, Sudan parlament sədrləri səviyyəsində təmsil olunub.**

Bundan əlavə, iclasda Çexiya, Qazaxıstan, Polşa, Vyetnam, Rusiya, İran, Tacikistan, Macarıstan, Monteneqro, Serbiya parlament sədrlərinin müavinləri də iştirak edib. İclasda həmçinin NATO Parlament Assambleyasının, ATƏT Parlament Assambleyasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının (Türk PA), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (QDİƏT PA), Avropa Şurası Parlament Assambleyasının, Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasının (MDB PA), Avropa Parlamentinin, GUAM (Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova) Parlament Assambleyasının, AVRONEST Parlament Assambleyasının nümayəndələri də iştirak edib.

Azərbaycan prezidenti İlham Əliyev təntənəli iclasda iştirak və çıxış edib. "Yeni Müsavat"ın AZƏRTAC-a istinadən verdiyi məlumata görə, prezident Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı xalqımızın Şərqdə ilk demokratik respublikanın yaradılması ilə fəxr etdiyini bildirib. Cümhuriyyət dövründə bir sıra dövlət atributlarının təsis edildiyini deyən prezident İlham Əliyev Azərbaycan dövlətinin Cümhuriyyətin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirdiyini vurğulayıb, bu il "Cümhuriyyət İli" çərçivəsində dövlət səviyyəsində bir sıra tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

1991-ci ildə bir əsrdə ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycanda ilk illərdə vəziyyətin acınacaqlı olduğunu, ölkəmizin çətin sınaqlarla üz-üzə qaldığını deyən dövlət başçısı o ağır vaxtlarda xalqın müdriklik göstərərək Heydər Əliyevi hakimiyyətə dəvət etdiyini, onun respublikaya rəhbərliyindən sonra ölkədə önəmli addımların atıldığını, Azərbaycanın tədricən ağır vəziyyətdən çıxdığını bildirib. "Bugünkü inkişafımızda Azərbaycan parlamentinin də payı var" - deyən İlham Əliyev Milli Məclisin müstəqilliyimizi möhkəmləndirdiyini, ölkəmizin inkişafına öz töhfəsini verdiyini vurğulayıb. Burada qəbul olunan qanunların həyatımızın bütün sahələrini əhatə etdiyini və bizim qanunvericilik bazamızın ən yüksək meyarlara cavab verdiyini deyən dövlətimizin başçısı qeyd edib ki, parlament çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayıb və milli maraqlar məsələsində deputatlarımız bir nöqtəyə vurur, vətənpərvərlik göstərərək dövlətin maraqlarını beynəlxalq səviyyədə müdafiə edirlər. Deputatlarımızın beynəlxalq təşkilatlar çərçivəsində də fəal iş apardığını, Azərbaycan reallıqlarını dünyaya çatdırdığını deyən ölkə başçısı vurğulayıb ki, onların fəaliyyətinin əsas istiqamətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin çatdırılması təşkil edir və bu işdə son illərdə bir sıra uğurlara nail olunub.



Qarabağ münaqişəsindən danışarkən dövlət başçısı qeyd edib ki, işğal olunmuş torpaqlarda bütün infrastruktur dağıdılıb, milli sərvətimiz talan olunub, xalqımıza qarşı hərbi cinayət - Xocalı soyqırımı törədilib. "Ermənistan münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qətnamələrə məhəl qoymur, işğalçılıq siyasətini davam etdirir. Baxmayaraq ki, münaqişənin yeganə həlli yolu Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından keçir. "Bununla bağlı Ermənistanın yeni rəhbərliyi öz siyasətində ciddi dəyişikliklər etməlidir" deyən prezident bir daha vurğulayıb ki, Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Çünki Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır və o, Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq.

Bu gün Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihənin reallaşdırılmasının mümkün olmadığını, getdikcə ölkəmizin bütün sahələrdə gücünün artdığını, Azərbaycanın beynəlxalq səviyyədə, qonşu ölkələrlə uğurlu əlaqələr qurduğunu deyən prezident qeyd edib ki, son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb, Dünya İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətlilik hesabatına görə Azərbaycan dünya miqyasında 35-ci, inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü yerdə qərarlaşıb. Beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünyada ən güclü 50 ordu sırasındadır. Bir neçə gündən sonra orbitə üçüncü süni peykimiz çıxarılacaq.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələrinin önəmini vurğulayan, ölkəmizin dünyadakı təhlükəsizliyə mühüm töhfə verdiyini, Azərbaycanın multikulturalizmin mərkəzlərindən birinə çevrildiyini deyən ölkə rəhbəri bundan sonra da ölkəmizin inkişafı ilə bağlı tədbirlərin görüləcəyini söyləyib. Bu gün Azərbaycanın dünya xəritəsində bir uğur nümunəsi olduğunu, ölkəmizin tam müstəqil siyasət yürütdüyünü deyən dövlətimizin başçısı Azərbaycanın öz milli maraqlarını tam təmin etdiyini və Azərbaycan parlamentinin bu işdə mühüm rolunun olduğunu diqqətə çatdırıb.

Sonra Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təşkil olunan mərasimin iştirakçıları xatirə şəkli çəkdiriblər.

"Türkiyə tarixin hər bir vaxtında Azərbaycanın yanında olub. Azərbaycan dara düşən zamanlarda ilk yardım edən biz olduq. 100 il bundan öncə Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu 1918-ci ilin sentyabrın 15-də Azərbaycanın imdadına gəldi. Türk millətinin qəhrəman övladları Azərbaycan Xalq Cümhuriyyətini istiqlalına qovuşdurmaq üçün canını fəda etdi. Həmin qəhrəmanlardan 1132-si bu torpaqlarda şəhid oldu. Bu səbəblərə görə də Türkiyədən sonra ən çox şəhidliyimiz olan ölkə Azərbaycandır".

Modern.az-ın məlumatına görə, bunu Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım Azərbaycan parlamentinin 100 illiyinə həsr olunmuş iclasda deyib.

Türkiyə Böyük Millət Məclisinin sədri çıxışında Dağlıq Qarabağ məsələsinə də toxunub: "Dağlıq Qarabağ məsələsi həmişəlik həll olunmadan Qafqazda müharibə riskini aradan qaldırmaq mümkün deyil. Türkiyə ən başından Azərbaycanın gözlənti və tələblərini dəstəkləməkdədir. Ermənistan dövləti Dağlıq Qarabağ da daxil olmaqla, işğal etdiyi Azərbaycan torpaqlarından şərtsiz çəkilməlidir. Bu torpaqlar Azərbaycanındır. Dünən də beləydi, əbədiyyən də belə olacaq".

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) parlamentinin yaranmasının 100 illik yubileyi ilə əlaqədar Milli Məclisin təntənəli iclasına qatılan TBMM sədri Binəli Yıldırımın çıxışı alqışlarla qarşılanıb. Qafqazinfo Türkiyə KİV-nə istinadən xəbər verir ki, prezident İlham Əliyevin də iştirak etdiyi mərasimdə Yıldırım çıxışının ilk hissəsində Azərbaycan türkcəsində danışıb: "Azadlığımız, gələcəyimiz, əmin-amanlığımız bir-birinə bağlıdır. Birlikdə ağlar, birlikdə gülərik. Ümidlərimiz, xəyallarımız və ideallarımız eynidir. Eyni dildə danışırıq, fikirlərimiz eyni nöqtədə birləşir. Azərbaycanda soyuq olsa, biz üşüyərik. Azərbaycana soyuq olsa, biz xəstələnərik. Biz əcnəbi dövlətlərin adını sayanda Azərbaycanı oraya daxil etmirik".

TBMM sədi parlament üzvlərinə səslənərək özünü onların hüzurunda Milli Məclisin üzvü kimi hiss etdiyini deyib. Daha sonra Binəli Yıldırım Azərbaycan dövlət başçısı İlham Əliyevlə bir araya gəlib.

Azərbaycanda ilk parlament 100 il bundan əvvəl yaradılıb. Bu tarix Azərbaycan xalqının inkişafa, çiçəklənməyə nə qədər sadiq olduğunu nümayiş etdirir. Biz bu tarixi nəzərdən keçirərkən görürük ki, bu, yalnız tarixi nöqteyi-nəzərdən deyil, gələcək üçün çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması müasir Azərbaycanın yaranmasına, onun güclənməsinə, ölkədə müxtəlif sahələrin inkişafına, ölkənin iqtisadi və maddi suverenliyinin möhkəmləndirilməsinə öz töhfəsini verib.

Bu sözləri Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda çıxış edən ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli bildirib. (AZƏRTAC)

Georgi Tsereteli deyib: "Bu müasir "Alov qülləri"nin kölgəsində dayandığımız zaman biz Azərbaycan irsini artıq hiss edə, Azərbaycanın müstəqillik tarixində əldə etdiyi nailiyyətləri görə bilərik. Müasir Azərbaycan parlamenti öz sələfinin izi ilə gedərək ölkənin iqtisadi nöqteyi-nəzərdən inkişaf edib regionda vacib bir ölkəyə çevrilməsinə öz töhfəsini verib".

**Digər natiqlərin çıxışları dinlənildikdən sonra təntənəli iclas başa çatıb.**

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Bakıda kirayə mənzillər bahalaşdı - səbəb

**Avqust ayı ərzində Bakıda kirayə mənzil bazarında bahalaşma müşahidə olunub. Bunu Trend-ə "MBA Group konsaltinq" şirkətinin baş direktoru, daşınmaz əmlak sahəsində ekspert Nüsrət İbrahimov deyib.**

Onun sözlərinə görə, kirayə mənzil bazarında qiymət artımı 3,83 faiz təşkil edib. Ekspert bildirib ki, mənzillərin bir kvadratmetrinin qiyməti 8,43 manatdan 8,76 manata qədər artıb.

N.İbrahimov vurğulayıb ki, kirayə mənzil bazarında qiymətlərin artması əsasən tələbələrin axını ilə bağlıdır. Belə ki, sentybarda ali təhsil müəssisələrində dərslərin başlaması ilə paytaxtda regionlardan gələn tələbələrin sayında artım müşahidə olunur. Bu səbəbdən isə əsasən ali təhsil müəssisələrinin yerləşdiyi ərazilərə yaxın mənzillərdə kirayə qiymətləri daha yüksək olur.

**Ekspert eləcə də həmin yerlərdə, həmçinin metro stansiyalarına yaxın ərazilərdə 1 və 2 otaqlı kirayə mənzillərə tələbatın daha çox olduğunu qeyd edib.**


Topçubaşov Mustafa


Yaqub Məmmədov


Rüstəmzadə Süleyman


Mirzə İbrahimov


İsa Qəmbər


Heydər Əliyev

# Cümhuriyyət, sovet və müstəqillik dövrünün parlament sədrləri

## Onlar haqqında nələr bilirik; ən "uzun ömürlü" spiker Süleyman Rüstəm olub...

**Sentyabrın 21-də Azərbaycan parlamentinin 100 illiyi münasibətilə Milli Məclisdə təntənəli iclas keçirilib. Bu önəmli tarixin aktuallığını nəzərə alaraq, ADR, sovet dönəmi də daxil olmaqla indiyə qədər parlamentə rəhbərlik edən şəxslərin siyahısını təqdim edirik:**

Parlamentin ilk sədri Əlimərdan bəy Topçubaçov olub. O, 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 28-ə, yəni Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradığı günə qədər qanunverici orqana rəhbərlik edib. 8 noyabr 1934-cü ildə Paris ətrafında vəfat edib, məzarı Sen Klu şəhər qəbiristanlığında yerləşir.

Azərbaycan SSRİ-də isə qanunvericilik orqanı yeni formatda - respublikanın Ali Soveti kimi təşkil olunub. I çağırış Azərbaycan SSR Ali Sovetinə birbaşa seçkilər 24 iyun 1938-ci ildə keçirilib.

**SSRİ dövründə 1938-ci ildən 1989-cu ilə qədər Azərbaycan SSR Ali Soveti adı altında parlamentimiz fəaliyyət göstərib. Həmin müddətdə Ali Sovetə rəhbərlik edən şəxslər aşağıdakılardır:**

**1.** Yaqubov Mirteymur Mirələkbər oğlu (18 iyul 1938-ci il - 7 aprel 1941-ci il)

**2.** Əliyev Əziz Məmmədkərim oğlu (7 aprel 1941-ci il - 6 mart 1944-cü il)

**3.** Qafarzadə Sultan Əsədulla oğlu (6 mart 1944-cü il - 22 mart 1947-ci il)

**4.** Yusifov Yusif Niftalı ağa oğlu (22 mart 1947-ci il - 26 mart 1951-ci il)

**5.** Əhmədov Ağamirzə Mirzəli oğlu (26 mart 1951-ci il - 18 aprel 1953-cü il)

**6.** Topçubaşov Mustafa Ağabəy oğlu (18 aprel 1953-cü il - 25 mart 1955-ci il)

**7.** Bayramov Abdulla Səlim oğlu (25 mart 1955-ci il - 23 yanvar 1958-ci il)

**8.** İbrahimov Mirzə Əjdər oğlu (23 yanvar 1958-ci il - 25 mart 1959-cu il)

**9.** Cəfərli Qəzənfər Musa oğlu (25 mart - 26 noyabr 1959-cu il)

**10.** Tağızadə Əli Əli oğlu (26 noyabr 1959-cu il - 29 mart 1963-cü il)

**11.** Dadaşzadə Məmməd Arif Məhərrəm oğlu (29 mart 1963-cü il - 5 aprel 1967-ci il)

**12.** Topçubaşev Mustafa Ağabəy oğlu (5 aprel 1967-ci il - 1 iyul 1971-ci il)

**13.** Rüstəmzadə Süleyman Əliabbas oğlu (1 iyul 1971-ci il - 10 iyun 1989-cu il)

Azərbaycan SSR Ali Sovet fəaliyyət göstərdiyi dövrdə Rəyasət Heyəti də mövcud olub. Rəyasət Heyətinə bu şəxslər sədrlik ediblər:

**1.** Mirbəşir Fəttah oğlu Qasımov - 1937-1949

**2.** Nəzər Heydər oğlu Heydərov - 1949-1954

**3.** Mirzə Əjdər oğlu İbrahimov - 1954-1958

**4.** İlyas Kərim oğlu Abdullayev - 1958-1959

**5.** Səftər Məmməd oğlu Cəfərov - 1959-1961

**6.** Məmməd Əbdül oğlu İsgəndərov - 1961-1969

**7.** Qurban Əli oğlu Xəlilov - 1969-1985

**8.** Süleyman Bayram oğlu Tatlıyev - 1985-1989

**9.** Elmira Mikayıl qızı Qafarova - 1989-1990

E.Qafarova 1990-cu il 18 maydan 1991-ci il 18 dekabra qədər Azərbaycan SSR Ali Sovetinin sədri olub. 18 oktyabrda qazanılan dövlət müstəqilliyi onun dövrünə təsadüf etdiyi üçün Azərbaycan Respublikasının ilk parlament sədri o sayılır. 1992-ci il martın 5-ə qədər E.Qafarova qanunverici orqana rəhbərlik edib.

Onun xələfi tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Yaqub Məmmədovdur. O, 1992-ci il martın 6-dan mayın 14-ə qədər parlamentin sədri olub. Eyni zamanda, Y.Məmmədov spiker olduğu aylarda prezident səlahiyyətlərini də icra edib. Y.Məmmədov 1941-ci il mart ayının 3-də Gədəbəy rayonunun Əli-İsmayıllı kəndində anadan olub. Hazırda Bakıda yaşayır.

Y.Məmmədovu Müsavat Partiyasının keçmiş başqanı, Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər əvəzləyib. İsa Qəmbər 1992-ci il 17 maydan 1993-cü il iyunun 13-ə qədər Azərbaycan Ali Sovetinin sədri olub. Parlament sədrliyinin ilk bir ayında İ.Qəmbər prezident səlahiyyətlərini də icra edib.

Onu mərhum prezident Heydər Əliyev 1993-cü il 15 iyunda əvəz edib. H.Əliyev həmin il noyabrın 5-ə qədər parlamentə rəhbərlik edib, eyni zamanda, özündən öncəki iki spiker kimi ölkədə prezident səlahiyyətlərinin də icraçısı olub.

5 noyabr 1993-cü ildən 1995-ci il 12 noyabra qədər Azərbaycan Respublikası Ali Sovetinin sədri hazırda Amerikada mühacir həyatı yaşayan Rəsul Quliyev olub. 1995-ci il 12 noyabrda Azərbaycan Konstitusiyasının qəbulundan sonra qanunverici orqanımız Milli Məclis adlanır. Milli Məclisin də ilk sədri R.Quliyevdir. O, 1996-cı il 11 sentyabra qədər spiker olub.

1996-2005-ci illərdə Milli Məclisə hüquq elmləri doktoru, professor Murtuz Ələsgərov rəhbərlik edib. 7 avqust 2012-ci ildə uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat edib.

**2005-ci ildən bu günə qədər parlamentin spikeri Oqtay Əsədovdur. O, Oqtay Əsədov 1955-ci il yanvarın 3-də Qərbi Azərbaycanın Qafan rayonunun Şəhərcik kəndində anadan olub.**

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Tramp bu dəfə OPEK-i hədələdi: Azərbaycan nefti ucuzlaşa bilər?

## İqtisadçı-alim: "Yəqin ki, müraciətin hansısa təsirləri olacaq"

**ABŞ prezidenti Donald Tramp Neft İxracatçıları Ölkələri Təşkilatını (OPEK) "inhisarçı" adlandıraraq, dərhal neftin qiymətlərini aşağı salmağa çağırıb. Amerikalı lider bu fikirləri özünün "Twitter" səhifəsində yazıb. Tarmp bildirib ki, biz Yaxın Şərq ölkələrini müdafiə edirik, onlar uzun müddət biz olmadan təhlükəsiz vəziyyətdə qala bilməzlər: "Bununla belə, yenə də qiymətləri artırmaqda davam edirlər. İnhisarçı OPEK neftin qiymətlərini dərhal aşağı salmalıdır".**



Trampın bu çağırışından sonra, sentyabrın 21-də dünya birjalarında neftin qiyməti müxtəlif istiqamətlərdə dəyişib. Belə ki, Londonun ICE ("Inter Continental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,19 dollar bahalaşaraq 78,89 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,32 dollar azalaraq 70,80 dollar olub.

"Yeni Müsavat"a danışan **iqtisadçı-alim Fikrət Yusifov** neftin qiyməti ilə bağlı dünyadakı mövcud vəziyyət barəsində aşağıdakıları bildirdi: "Dünya bazarlarında neftin qiymətini təhlil edən bütün strukturlar eyni fikri bildirirlər ki, neftin bugünkü qiymətləri reallıqdan yuxarıdır. Bu, təbii ki, ilk növbədə siyasi müstəvidə baş verən hadisələr və bu hadisələrin yaratdığı gərginliklə izah olunur. Diqqət edin ki, ABŞ prezidenti OPEK-ə müraciət edərək, hansı tərzdə fikirlər bildirir. Əslində neftin qiymətlərinin bu şəkildə dəyişilməsinin əsas səbəbi elə ABŞ-ın özünün neft hasil edən ölkələrə qarşı tətbiq etdiyi sanksiyalardır. Noyabr ayının əvvəlində İran neftinin ixracına tətbiq ediləcək sanksiyalar indidən hər kəsə ciddi bir siqnaldır. Bütün bu amillər, Yaxın Şərqdəki, Suriya ətrafındakı vəziyyətin gərginləşməsi, Rusiya, Türkiyə, İranla ABŞ arasındakı gərginliklər, regiondakı sosial-iqtisadi vəziyyəti də qəlizləşdirib. Nəticədə neftin qiymətləri də dəyişir. Ümumiyyətlə, OPEK-də başda Səudiyyə Ərəbistanı olmaqla ABŞ-ın tərəfdaşı olan ölkələr çoxdur. Zaman-zaman ABŞ OPEK vasitəsilə qiymətlərə təsir etmək təcrübəsini əldə edib. Vaxtilə də qiymətlərin aşağı salınması və Sovetlər İttifaqının bunun nəticəsində iqtisadiyyatının çökdürülməsi hər kəsə bəllidir. Bu da məhz Səudiyyə Ərəbistanı ilə ABŞ-ın fikir birliyi əsasında baş vermişdi. Yəni neftin qiymətini aşağı salmaqla bu nəticəyə gəlmişdilər. Ona görə də hesab edirəm ki, ABŞ rəhbərliyi OPEK-ə bu səviyyədə müraciət edirsə, yəqin ki, bu müraciətin hansısa təsirləri olacaq. O baxımdan düşünürəm ki, yaxın vaxtlarda OPEK-in toplantılarının birində ola bilsin ki, hasilatın artırılması ilə bağlı yeni qərarlar verilə bilər. Hasilat da artarsa, təbii ki, ortaya çıxan neftin həcmi də çoxalacaq. Bu isə neftin qiymətlərinin aşağı düşməsinə təsir edəcək. Bütövlükdə siyasi müstəvidəki vəziyyətin gərginliyi və bunun qarşıdakı dönəmlərdə daha da gərgin olmasını nəzərə alsaq, neftin qiymətlərinin aşağı düşməsi bir o qədər də gözlənilən deyil. Reallıq bunu göstərir ki, ilin sonuna doğru siyasi münasibətlərdəki münaqişə bir qədər də gərginləşəcək. Belə olan halda isə neftin qiymətlərində düşmə ola bilməz. Ancaq yenə də ABŞ-ın OPEK-ə verdiyi təklifin, yaxud da qaldırdığı bu təşəbbüsün arxasında nə dərəcədə dayanacağı bəlli deyil. Ola bilər ki, ABŞ yaxın tərəfdaşlarını təkid edib, hansısa nəticəyə gələ bilsin".

**Ekspert neftin qiymətinin dəyişəcəyi təqdirdə manatın aqibəti ilə bağlı da danışdı**: "Son zamanlar valyuta bazarına təzyiqlər artıb. ABŞ-ın bizim qonşu ölkələrə, xüsusilə də daha geniş ticarət əlaqələrimizin olduğu Türkiyə və İrana qarşı tətbiq etdiyi sanksiyalar, bu fonda da həmin ölkələrdə milli valyutaların kəskin şəkildə ucuzlaşması bizə təsirsiz ötüşə bilməz. İranla böyük ticarət dövriyyəmiz olmasa da, iqtisadi əlaqələrimiz inkişaf edir və İran həm də bizə qonşu ölkədir. İrana qarşı sanksiyaların tətbiqi, bu ölkəlinin milli valyutasının məzənnəsindəki kəskin ucuzlaşmalar manat qarşısında da böyük sual qoyub. Çünki biz neftin qiymətindən, valyuta və qızıl ehtiyatlarımızın həcmindən asılı olmayaraq, qonşu və ciddi ticarət əlaqəmiz olduğu ölkələrdə milli valyutaların ətrafında baş verən proseslərə biganə qala bilmərik. Əgər bu, uzun müddət davam edərsə biz manatın məzənnəsində müəyyən qədər yumşalmalara getməliyik. Çünki proses uzun müddət davam etsə, qonşu dövlətlərdəki milli valyutalar daha da kəskin ucuzlaşsa, manatın hansısa dönəmdə kəskin devalvasiyası baş verə bilər. Biz məhz bundan qaçmalıyıq. Çünki 2015-ci ildə manatın 2 dəfə kəskin devalvasiyasının acısını uzun müddətdir ki, yaşayırıq. Buna yol vermək olmaz. Ona görə də indidən düşünməliyik. Prosesdə uzaq perspektivə baxılmalıdır. Hələ İrana qarşı sanksiyalar noyabr ayında tətbiq ediləcək. Eyni zamanda Türkiyə-ABŞ münasibətlərində bundan sonra nələr yaşanacaq, bilinmir. Rusiyaya qarşısı da ABŞ çox aqressiv münasibətdədir. Belə görünür ki, Rusiyanı çökdürənə qədər ABŞ ondan əl çəkmək fikrində deyil. Bu gün biz manatı saxlamaqla nəyə nail oluruq? Axı biz Rusiya bazarına olan ixracımızın rəqabət qabiliyyətini də itiririk. Orada valyuta qazanclarının əldə edilməsi baxımından da itkilərə məruz qalırıq. Bu cür itkilər isə nəticədə həmin məhsulları istehsal edən müəssisələrimizin fəaliyyətində ciddi problemlərə səbəb ola bilər. Bu isə real sektorun inkişafı sahəsində atdığımız bu qədər ciddi addımların fonunda bizə heç lazım olmayan haldır".

**İqtisadçı onu da qeyd etdi ki, manatın məzənnəsində dəyişiklik dedikdə kiçik rəqəmləri nəzərdə tutur:** "Mən nəzərdə tutmuram ki, dərhal məsələn, dollar 1.75 AZN olsun. Heç olmasa 1-2 qəpik də olsa dəyişiklik etmək lazımdır. Biz manatın məzənnəsini dondursaq da, ixracı dayandıra bilmirik axı. Yaxud da idxal prosesi dayanmır. Bu proseslər getdiyi halda, digər valyutalar ucuzlaşdığı zaman məzənnəni saxlamaq, doğru yanaşma deyil. Real vəziyyətlə ayaqlaşmaq lazımdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 199 (7088) 22 sentyabr 2018

# İlyas İsmayılovun oğlunun qətli - milyon dollar və Avstriya silahı...

## İstanbulda öldürülən Etimad İsmayılov Nardaranda dəfn olundu; qətli törədən Gözəl Dəmirov istintaqda susur, yoxsa yalan danışır?

**Sentyabrın 19-da axşam İstanbulda qətlə yetirilən Etimad İsmayılovun cənazəsi Türkiyədə Florya Yeni Camidə baş tutan vida mərasimindən sonra Bakıya göndərilib. Qeyd edək ki, vida mərasimində İstanbul Polis İdarəsinin rəisi Mustafa Çalışkan, sabiq baş nazir Əhməd Davuoğlu, "Star" qəzetinin rəhbəri Nuh Albayraq və digər tanınmış isimlər qatılıb.**





E.İsmayılovun Bakıya yola salınan tabutunun Türkiyə bayrağına sarılması diqqət çəkib ki, bu da ölkə qanunları ilə tənzimlənir. Bildirilir ki, tabutun Türkiyə bayrağına bürünməsi sözügedən ölkənin protokol qaydasına görədir. Türkiyə dövləti önəmli şəxslərin vida mərasimini bu formada keçirir. Yada salaq ki, E. İsmayılov Türkiyədə yaşasa da, atasının rəhbəri olduğu Ədalət Partiyasında sədrin xarici əlaqələr üzrə müavini vəzifəsini tutub.

Sentyabrın 20-də axşam E.İsmayilovun nəşi atasının Bakının Nardarandakı bağ evinə gətirilib. Sentyabrın 21-də səhər isə cənazəsi ata evindən götürülərək Nardaran qəbiristanlığında dəfn olunub. Dəfn mərasiminə ölkənin bir çox tanınmış şəxsləri də qatılıb.

**Müəmmalar qalır**

E.İsmayılovu qətlə yetirən keçmiş polis rəisi Gözəl Dəmirovun həbs edildikdən sonra polisə hansı ifadə verməsi barədə ziddiyyətli xəbərlər yayılıb. "Yeni Müsavat" ötən sayında qətlin motivi haqda üç versiya haqda yazmışdı. Birinci iddiaya görə, sabiq polis polkovniki E.İsmayılova Belarusda ən yüksək səviyyədə ciddi əlaqələrinin olduğunu deyərək, ondan birgə iş görmək adı altında külli-miqdarda borc pul alıbmış və bu pulu qaytarmırmış. Mərhumun atası da qətldən bir neçə saat sonra bu versiyanı səsləndirib. İlyas İsmayılov qeyd edib ki, oğlunun həyat yoldaşı, jurnalist Sevil Nuriyeva ona zəng vurub və deyib ki, qatil Gözəl Dəmirovun onun oğluna böyük miqdarda borcu olub.





Oğlunun Gözəl Dəmirovla ümumi biznesinin olub-olmadığı ilə bağlı suala cavabında İlyas İsmayılov bildirib ki, Etimad onu öz işlərinə qatmayıb.

İkinci iddia o yöndədir ki, G.Dəmirovun işləri son vaxtlar yaxşı getmirmiş və maddi sıxıntı çəkirmiş. Ona görə də azərbaycanlı iş adamlarına dəstək üçün xahiş edibmiş. Guya E.İsmayılov da bu xahişi geri çevirdiyi üçün mübahisə yaranıb və G.Dəmirov silahını çıxararaq şərikinə üç güllə vurub.





Qətl silahı

**Üçüncü versiyaya görə isə guya mərhumun G.Dəmirova borcu varmış...**

İndi elə əsas ziddiyyətli xəbərlər də bu borc məsələsi ilə bağlıdır. Belə ki, dost ölkənin bəzi online mediası qətlin dəyəri 4 milyon dollar olan 2 faizlik səhm paketi üstündə baş verdiyini iddia edir.

"Hürriyet" qəzeti yazır ki, həmin 2 faizlik səhm paketini Dəmirov İsmayılova təhvil verməli olsa da, bu proses ləngiyib. Nəticədə onların arasında konflikt yaranıb. Digər media strukturları isə əksini iddia edir. Yəni E.İsmayılovun 2 faizlik səhm paketini Dəmirova vermədiyi üçün iş qanla bitib. "Sabah" qəzeti isə ortaq şirkətin 2 faizlik səhm paketinin 1 milyon dollar dəyərində olduğunu göstərib. Və yazıb ki, həmin hissələrin təhvil-təslimi üçün tərəflər sentyabrın 19-da günorta saatlarında görüşüblər. Lakin müzakirədən nəticə əldə olunmayıb və onlar mübahisə edərək ayrılıblar. Daha sonra Dəmirov evindən "Glock" markalı tapançasını götürərək geri qayıdıb və Etimad İsmayılovu ofisində güllələyib.(virtualaz.org).



G.Dəmirovun polisə bu iddiaların hansının doğru olduğunu təsdiqlədiyi bilinmir. Amma G.Dəmirovun istintaqı yanıltmaq və ya səhv yola yönəltmək kimi şansı yox. İkinci bir tərəfdən, S.Nuriyeva uzun illərdir ki, Türkiyədə yaşayır və onun bu ölkənin siyasi elitası ilə yaxşı əlaqələri var. Bu səbəbdən də 4 yaşlı oğlu ilə gözüyaşlı qalan xanımı qətlin motivlərinin tam açılmasına nail olacaq.

**"Glock" tapançası - "götür və atəş aç"**

"Yeni Müsavat" xəbər verir ki, qətldə istifadə edilən tapança "Glock" şirkəti tərəfindən Avstriya ordusu üçün hazırlanır. Döyüş keyfiyyəti və etibarlılığına görə mülki müdafiə silahı kimi geniş şəkildə istifadə olunur. Fərqli seçimlərdə fərqli güllələr üçün istehsal olunur. 9?19 mm Parabellum, .40 S&W, 10 mm Auto, 357 SIG, 45 ACP və 45 GAP.

Tapançanın əsas xüsusiyyəti təhlükəsizlik fitilinin olmamasıdır. Tapançanın əsas hissəsi möhkəm istiyə dözən 200°C plastikdən hazırlanır. Buna görə də Glock 17 yüngüldür və olduqca möhkəmdir. Glock 17 "götür və atəş aç" prinsipi ilə işləyir, ancaq atəş açmaq üçün tətiyi tam basmaq lazımdır. Cəmi 33 hissədən ibarətdir və bir neçə saniyə ərzində sökülüb yığıla bilər.

**Dəmirov haqda yeni bilgilər və Etimadı tanıyanlar...**

Gözəl Dəmirov haqda da yeni maraqlı məlumatlar var. Modern.az yazır ki, onun atası Böyükkişi Dəmirov uzun illər Sabirabad rayonunda aptek müdiri kimi çalışıb və imkanlı ailə olublar. Sonra evlərini satıb Bakıya köçüblər.

Etimad İsmayılovun ölümü Türkiyədə yaşayan həmyerlilərimizi də üzüb. Axar.az xəbər verir ki, qardaş ölkədə yaşayan azərbaycanlılar E.İsmayılovun ölümü ilə bağlı fikirlərini sosial şəbəkələrdə paylaşıblar.

**Sabiq deputat Aqil Səmədbəyli:** "İstanbulda Etimad İsmayılovun evindəyik. Dərin bir hüzn var. Dəli-dolu, gerçək bir vətənsevəri itirmək çox ağırdır. Sevil xanım mətin olmağa çalışır. Çox çətindir..."

**Professor Toğrul İsmayıl:** "Sözün bitdiyi yer. Duyduğum ən acı xəbər. Çox dəyər verdiyim və hər zaman dostluğumuzla qürur duyduğum "Star" qəzetinin köşə yazarı, həqiqi jurnalist, Azərbaycan və Türkiyə sevdalısı, əziz bacım Sevil Nuriyevanın həyat yoldaşı Etimad bəy ofisində vəhşicəsinə qətlə yetirilib.

Sevil xanıma Allahdan səbir, Etimad bəyə isə rəhmət diləyirəm. Məkanı cənnət olsun, nur içində yatsın, ruhu şad olsun, başımız sağ olsun".

**Professor Aygün Attar:** "Qürbətdən cənazə gedir vətənə. Ailəsindən, uşağından doymadan doyunca yaşayamadığı doğma torpağına yol alır Etimad İsmayılov. Yar-yoldaşından, evindən-eşiyindən ayrılaraq çox gənc yaşda tabutla gedir son səfər üçün Azərbaycana. Sözlərin ifadə etməkdə çətinlik çəkdiyi facienin açdığı yaranı xəfiflətmək üçün əlimizdən heç nə gəlmir. Başın sağ olsun, Sevil, oğluna sarıl, dua edənlərin sözləri eşidiləcək və sənə səbir, mətanət olaraq geri dönəcək".

**❑ ORXAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 199 (7088) 22 sentyabr 2018

# Qala kimi adamın vaxtsız əcəli

## Novruz Əminin əziz xatirəsinə ithaf olunur




**Nə yazıq ki, insanın ömrü 150 il deyil. Hərçənd elə olsa, bu yenə də insan oğluna az görünəcəkdi.**

Göz açıb-yumuruq, uşaqlıq bitir, yeniyetməlik zatən bir göz qırpımında yoxa çıxır, təhsil almaq, iş tapmaq, evlənmək kimi problemləri həll edincə, gənclik də əldən gedir. Sonra şair Müşfiq demişkən, “ev dərdi, ocaq dərdi, uşaqlar dərdi” başlayır...

Beləcə, ömür gedir, gün gedir, böyük ağrıyla dərk edirsən ki, bir də cavan olmayacaqsan.

Hələ bir də sənin üçün dəyərli insanları vaxtsız itirmək dərdi var.

Bax, insanın ömrü 150 il olsaydı, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyov, Xudu Məmmədov, Elçibəy kimi insanlar hələ də sağ olacaqdılar.

**O zaman Novruz Əmi də ortayaşlı kişi kimi işində-gücündə, aramızda olacaqdı.**

70 yaşı onun kimi gəncləşdirən, şərəfləndirən heç kəs yox idi. Elə hamı da belə deyirdi: “Maşallah, Novruz əmiyə 55-dən artıq yaş vermək olmaz”.

Gerçəkdən də eləydi. Yaşı 70-ə dirənən kişinin qədd-qaməti bükülmüş olar, Novruz əmi 35 yaşında olduğu kimi şux qamətliydi; o yaşda adamların saçı ağarar, ya da tökülər, Novruz Əminin bir az çallaşmış saçı yenə də gur idi; sinni 60-ı keçən kişinin yerişi dəyişər, addımları ağırlaşar, Əmi qıvraq və gümrah idi. İdman ayaqqabısı, cins şalvar, qısaqol köynək geyirdi, ciddi çöhrəsindən təbəssüm, nikbinlik əskik olmurdu.

O, gənc görünürdü və özünü də gənc hiss edirdi. Yeni-yeni baba olmuşdu, nəvə oynadırdı, nəvələri ilə çəkdirdiyi şəkilləri sosial şəbəkədə paylaşırdı. Hiss olunurdu ki, qürur duyur, fərəhlənir.

**Ancaq necə olsa da, onun bioloji yaşı 70 idi və bu yaşda həyatın hər keşməkeşini, ağrı-acılarını görmüş insanların zəif düşmüş, immuniteti azalmış nahiyələri olur.**

Heç kəs deyə bilməzdi ki, Novruz Əmi anasından cəmi bir il sonra vəfat edəcək. Prinsipcə, genetik olaraq, bu, ən azı 15 il sonra baş verməliydi. Zalım əcəl isə bu işıqlı, dəyərli insanı sinninin 70-də haqladı.

Vaxtsız vəfat oldu Əminin vəfatı. Düzdür, deyirlər, vaxtlı vəfat yoxdur, amma yox, hər kəs bilir ki, 70-i aşırdınsa, yaşadığın hər gün sonuncu ola bilər. Atalar əbəs deməyib: “Səksən, doxsan, bir gün yoxsan”.

**Hər kəs Əmidən 80 yaşının məclisini gözləyirdi. Olmadı.**

Onun nə qədər qiymətli bir insan olduğunu sağlığında da deyirdilər. Onu yaxından tanıyanların Novruz Həsənli haqqında yekdilliklə dediyi iki söz var: “Kişi adamdır”.

Burada “kişi adam” ifadəsi mərdlik, dürüstlük, sözübütövlük, ciddilik mənasında işlədilir. Dar gündə dayaq durmaq, üstünə pənah aparılası adam olmaq, dostuna, yoluna sadiq qalmaq - bunlar da var.

Onu ilk dəfə 25 il öncə, Tovuzda polis rəisi olduğu zaman, “Yeni Müsavat”ın baş redaktoru Rauf Arifoğlunun iş otağında görmüşəm. Rauf bəy onu “dostumdur, rəisdir” deyə təqdim etmişdi.

Sonradan öyrəndik ki, mülki geyimli, səliqəli kostyumlu rəis çiynində sovet milisinin poqonlarını daşıya-daşıya milli azadlıq hərəkatının fəallarından olub.

**O zamanlar bu cür şeylər nadirən olardı.** Poqon adamlarının böyük hissəsi ya milli azadlıq hərəkatını, hərəkatçıları xor görərdilər, ya da az bir hissəsi daxilində hərəkata rəğbət bəsləsə də, özlərini kölgədə saxlamağa çalışardılar. Novruz Əmi mərdi-mərdanə davranmışdı, hərəkatçılarla öz arasında məsafə saxlamamışdı.

Ona görə ki, dövrün güclü siyasi təşkilatı olan AXC-yə yaxınlıq hələ siyasi hakimiyyət ambisiyasında olmaq demək deyildi, bu işin bir vətən torpağının keşiyində durmaq, silaha sarılmaq, səngərdə yatmaq tərəfi də vardı. O dövrün hərəkatçıları daha çox səngərə girənlər idi, vətən fədailəri idi. Novruz Əmi də o fədailərin ön cərgəsindəydi.

**Novruz Əmi belə adam idi.** Vəzifədə, pulda gözü olan deyildi. Olsaydı, o qədər xidmətləri, el arasında hörməti ola-ola vəzifəsindən çıxarılanda asi düşərdi, yolunu, səngərini, liderini dəyişərdi. Amma o, vəzifədə gözü olmadığını göstərdi, kənara çəkildi, susdu, haqsızlığa məruz qalsa da, liderinin üzünə ağ olmadı.

Bəlkə də heç kəs bilməzdi ki, bu dev adamın incə qəlbi var və ona qarşı edilən haqsızlıq, ədalətsizlik onu incidə bilər. Əmi də incimişdi. Vətən uğrunda can qoy, liderinə hər zaman sədaqət göstər, yolunda ölümə get... və bir gün səni səngərindən çıxarsınlar... Kim inciməz?

Elə bu inciklik üzündən də qısa bir müddətdən sonra prezident Elçibəydən daha böyük vəzifəyə dəvət alan Novruz Həsənov bu təklifi qəbul etməyib, sıravi elçibəyçi kimi qalmaqda davam edib.

**Sonra mühacirət həyatı...** Nə qədər doğma olsa da, əzizlərindən uzaqdakı qəriblik... Maddi-mənəvi sıxıntılar... Dəfələrlə daşa dəyib ciliklənən ümidlər...

**Bütün bunlar onun dik qamətini bükmədi, əymədi.** Qala kimi adam idi. Elə qala kimi də içdən alındı. Amansız xəstəlik qala kimi Novruz Əmini elə yaxaladı...

O, şəxsi planda, demək olar ki, bütün arzularına çatmışdı. İctimai planda isə nakam getdi Novruz Əmi... Qarabağı görmədi, el-obasının daha təhlükəsiz, daha asudə, daha firavan həyatını görmədi...

İctimai arzuları böyük və çox olan insanlar gərək azı 150 il yaşasın... azı 150 il.

❑ **Xalid KAZIMLI,**
**“Yeni Müsavat”**

# “Azərbaycanda indiyədək belə Aşura keçirilməyib”

## Hacı Şahin: “Bu il daha nizamlı və mütəşəkkil şəkildə əzadarlıq mərasimləri keçirildi”

**Sentyabrın 20-də Azərbaycanda Məhərrəm ayının onuncu günü, Aşura qeyd olundu. Aşura günü ilə əlaqədar ölkədəki məscidlərdə İmam Hüseyn əzadarlığı keçirildi. Yüzlərlə insan məscidlərə gələrək mərasimlərdə iştirak edib, şəhid İmam Hüseyni (ə) və onun silahdaşlarını andılar. Keçirilən məclislərdə xütbələr oxunub, Kərbəla qiyamının fəlsəfəsindən və İmam Hüseynin (ə) həyatı və şəxsiyyəti barədə danışıldı.**

Hələ Məhərrəm ayından öncə bir sıra xarici qüvvələr Azərbaycanda dindarların adından istifadə edərək, təxribatlar törətməyə cəhd etmişdilər. Xüsusilə də Gəncə hadisələri bizə çox şeydən xəbər verdi. Lakin Azərbaycanın güc strukturlarının işə qarışması, xalqın təxribatlara uymamasının nəticəsində ölkədə Aşura mərasimləri sakit, heç bir insident yaşanmadan keçirildi. Təbii ki, burada din xadimlərinin də xüsusi rolu oldu ki, onlar söhbətlərində insanlara doğru yolun nə olduğunu, xarici qüvvələrə uymamağı bildirirdilər.

“Yeni Müsavat”a danışan **ilahiyyatçı Hacı Şahin Həsənli** bildirdi ki, Aşura günündə insanlar bütün qaydalara əməl etdilər: “Hər il olduğu kimi Azərbaycanın bir çox məscidlərində təziyə mərasimləri keçirildi. Onu da qeyd edim ki, bu il ötən illərlə müqayisədə daha nizamlı və mütəşəkkil şəkildə əzadarlıq mərasimləri baş tutdu. İnsanlar məscidlərə gəlib dini ayinləri icra etdilər və qanvermə aksiyalarında iştirak etdilər. Eyni zamanda insanlar Qafqaz Müsəlmanları İdarəsinin fətvasında əks edilən demək olar ki, bütün tövsiyələrə əməl etdilər. Hüquq mühafizə orqanları da dini icmalarla birlikdə məscidə gələn insanların təhlükəsizliyini təmin etdilər. Yeni müşahidələrimə əsasən qeyd edim ki, bu il bütün keçən illərdən daha mütəşəkkil və nizamlı şəkildə Azərbaycanda Aşura mərasimləri keçirildi”.



**Hacı Şahin Aşura mərasimlərindən öncə din xadimlərinin insanları maarifləndirmə istiqamətindəki rolundan da danışdı:** “10 gün ərzində, yeni Aşuraya qədər məscidlərdə bütün din xadimləri insanlara öz tövsiyələrini verirdilər. Din xadimləri həm Kərbəla hadisəsinin mahiyyəti haqqında insanlara xəbər verirdi, həm də bundan sui-istifadə etmək istəyən insanların olduğunu bildirirdilər. Bu baxımdan insanlar ayıq-sayıq olmağa dəvət edilirdi. Onu da qeyd edim ki, tarixən Azərbaycanda Aşura mərasimləri zamanı hər hansı ciddi insident baş verməyib. Yeni Aşura mərasimləri mahiyyət etibarilə dinc xarakterlidir. Aşura əslində insanları həmrəyliyə, birliyə, mərhəmətə dəvət edir. Aşura eyni zamanda şəhidlərin anım günüdür. Ona görə də bütün məscidlərdə Kərbəla şəhidləri ilə yanaşı, Azərbaycan şəhidləri yad edildi. Bizim məsciddə divara şəhidlərin fotosu əks olunan lövhələr vuruldu. Yeni insanlar həm də şəhidlərimizi anıb, onların ruhuna dualar oxuyurdular. Bütün bu maarifləndirmə işlərinin də təbii ki, öz təsiri var. Azərbaycanda heç zaman düşünürəm ki, Kərbəla hadisəsinin, Aşuranın il dönümündən istifadə edib təxribat törətmək cəhdləri baş tutmayacaq. Bütün bunlar hər zaman uğursuzluqla nəticələnəcək. Çünki Aşura Azərbaycan xalqının təsəvvüründə bir fədakarlıq günüdür. Bu gün insanlarla həmdərdlik günüdür. Radikal çağırışlar Aşura gününün mahiyyəti ilə uyğun olmaması səbəbindən heç bir nəticə verə bilməz”.

**Hacı Şahin Aşura gününün ləğvi fikrini səsləndirənlərə də öz münasibətini bildirib:** “Bu elə məsələdir ki, onun formatını dəyişmək, ləğv etmək mümkün deyil. Aşura mərasimləri xalqın genetik kodunda, qan yaddaşında olan bir məsələdir. Əsrlərlə bu mərasimlər Azərbaycanda qeyd olunub. Təbii ki, hər hansı bir dini ayindən sui-istifadə zaman-zaman mümkün olub. Bu, təkcə Aşura mərasimlərinə aid deyil. Bəzi insanlar Qurandan da, namazdan da, Həcdən də sui-istifadə edirlər. Bəzən inanca xurafat, mövhumat da qatılır. Bizim vəzifəmiz isə inancımızı xurafat və mövhumatdan təmizləməkdir. Bu, təkcə Aşura ayinlərinə aid deyil. Ümumiyyətlə, xurafat dinin düşmənidir və din, inanc xurafatla bir araya sığmır. Çalışmalıyıq ki, Aşura ayinini zamanın tələbinə uyğun şəkildə qeyd edək. Baş yarma, qan tökmə kimi ayinlər keçmişdə olub. Bütün bunlar bilgisizlikdən, savadsızlıqdan qaynaqlanıb. Əslində isə bu kimi əməllər Kərbəla hadisəsinin mahiyyətinə kölgə salır, bunun təhrif olunmasına xidmət edir. Bu cür əməllər yolverilməzdir. Bu barədə dinin də görüşləri aydındır. Belə ki, din bədənə xəsarət verməyi qəti şəkildə haram hesab edir. Bu da insanlara çatdırılır və insanlar maarifləndikcə bu kimi hallar baş vermir. Ancaq Aşuranın ləğvi məsələsi qədər qeyri-realdır. Nə üçün Aşura ləğv olunmalıdır. Aşura mərasimi Azərbaycan xalqı üçün faydalıdır. Bu, həm də milli adət-ənənəyə çevrilib. Dünyanın hər yerində azərbaycanlılar Aşura günü və Novruz bayramı ilə tanınırlar. Aşura bizim mədəniyyətimizdə də öz izini buraxıb. Hətta mətbəximizə də sirayət edib. Yeni Aşuranın ləğv olunması ağıla sığan deyil. İstənilən dini mərasimin ağıl və məntiq çərçivəsində, dinin tələblərinə uyğun şəkildə qeyd olunması zəruridir. Bu istiqamətdə də addımlar atılır və Aşura da məhz bu qaydalara uyğun şəkildə keçirilir”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 199 (7088) 22 sentyabr 2018

# "Azərbaycan-Türkiyə ittifaq dövləti məsələsini gündəmə gətirmək zamanıdır"

## Toğrul İsmayıl: "Ərdoğan da tez-tez bunu dilə gətirir"

**Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl qardaş ölkənin ictimai-siyasi həyatda baş verənlərlə bağlı "Yeni Müsavat"a danışıb. Politoloq, o cümlədən iş adamı Etimad İsmayılovun qətli ilə bağlı sualları cavablandırıb.**

***- Türkiyədəki parlament və prezident seçkilərindən üç ay ötür. Seçkilərdən sonrakı durumu necə dəyərləndirirsiz?***

- Seçkilərin nəticələri ayrı mövzudur. Çox ciddi iqtisadi krizis var. Türkiyə hazırda ciddi iqtisadi problemlə üz-üzədir. Bugünkü iqtidarın da əsas məqsədi bu krizisi tezliklə aradan qaldırmaqdır. Maliyyə naziri Hakan Albayrağın açıqlamalarından sonra 2021-ci ilə qədər krizin ortadan qaldırılması məsələsi var. Böhran öz işini görməkdədir. Amma digər məsələlərdə hər şey qaydasındadır. Prezidentlik üsul-idarəsinə keçid dövrü yaşanır. Bu da asan sürəc deyil.

***- Qərblə Türkiyənin münasibətləri normal olsaydı, seçkilərdən sonra belə bir krizis baş verməyə bilərdimi?***

- Bu krizisin məlum münasibətlərlə heç bir əlaqəsi yoxdur. Belə krizis bir ölkədə daxili strukturların, mexanizmlərin nəticəsində ortaya çıxır. Türkiyə hər zaman canlı pul istəyən bir ölkədir. Siyasəti buna yönəlikdir. Təəssüflər olsun ki, yanlış, xətalı politkalar sonucunda Türkiyə bu vəziyyətlə qarşı-qarşıya qaldı. Ərdoğan da tez-tez bunu dilə gətirir. Suriya və İraqdakı krizis, eləcə də, Səudiyyə Ərəbistanla Qətər arasında baş verənlər, Rusiyaya, İrana qarşı sanksiyalar Türkiyəyə də dolayı yolla təsir göstərir.

***- Türkiyə, Rusiya və İran prezidentlərinin Tehran görüşündə ciddi gərginlik yaşandı, gözlənilən razılıq əldə olunmadı. Amma əvəzində Türkiyə və Rusiya prezidentlərinin Soçidəki görüşündə razılaşmalar oldu. Bu iki görüş arasındakı günlər ərzində nələr baş verdi?***

- Tehranda razılığa gəlinməməsinin səbəbi üçlü mexanizmanın orada çalışması oldu. Orada Rusiya ilə İran müttəfiq kimi hərəkət etdilər. Türkiyə Suriya mələsində müttəfiq olduğu ölkələrə öz tələbini, istəyini açıq şəkildə ortaya qoydu. Bunun nəticəsində tələbini yerinə yetirdi. İdlib məsələsində bu özünü açıq şəkildə göstərdi. Türkiyənin gücünü Azərbaycandakı və buradakı bəzi dostlarımız bəzən kiçildirlər. Türkiyə bölgədə sözü keçən bir dövlətdir. Buna görə Soçidə Ərdoğan və Putin razılığa gəldilər. Deyə bilərik ki, bu uzunömürlü razılıq deyil. Amma Türkiyənin bu məsələdə diplomatik uğur qazandığını söyləyə bilərik. Qardaş ölkə nə istədiyini açıq şəkildə ortaya qoydu.

***- Casus keşiş Bransonun məsələsi yenə gündəmə gəlib. Bu şəxsin gələn ay ölkəsinə veriləcəyi barədə xəbərlər dolaşır. Siz necə düşünürsüz?***

- Bu, Türkiyənin hüquqi məsələsidir. Burada proseslər bir az uzun sürür. Amma Türkiyənin qanunları nə deyirsə, o da olur. Dedi-qodulara inanmıram. Məhkəmə suçlu olmadığı barədə qərar çıxaracaqsa, o sərbəst qalacaq. Əksi baş verəcəksə, nə olmalıdırsa, o da olacaq. Ergenekon məsələsində də proseslər uzun sürmüşdü. Bunlar Türkiyədə hüququn olmadığı anlamına gəlmir. Bu ölkədə hüquq var, hüquq sistemi çalışır. Rahib Branson məsələsində türk məhkəməsi nə qərar verəcəksə, o olacaq.

***- Əgər Branson təhvil verilsə, ölkələrarası gərginlik aradan qalxacaqmı?***

- Düşünmürəm ki, belə olsun. Çünki Branson bir bəhanədir. Burada gərginliyə əsas səbəb Amerikanın bölgədə yürütdüyü siyasətdir. Bu gün ABŞ Çinə də sanksiyalar tətbiq edir, bununla öz gücünü göstərməyə çalışır. Niyyəti budur ki, ölkələr ona itaət etsin. Amerika super dövlət ola bilər, amma unutmayaq ki, super dövlət olmağın gətirdiyi bəzi mənfiliklər də var. Dünya bir şirkət deyil ki, ölkələr ona tabe olsun. Hər bir dövlətin öz maraqları var və buna uyğun hərəkət edir. Türkiyə ilə Amerika arasındakı problemlərdə tək rahib deyil, çox şey var.

***- Gülən-Branson dəyişdirilməsi ilə bağlı fikirlər səslənir. Bu mümkündürmü?***

- Belə ola biləcəyini düşünmürəm. Türkiyə Güləni FETÖ-nun başçısı olaraq qəbul edir və onu tələb edir. Amerikaya da lazım olanları göstərir. ABŞ isə buna qarşı hər hansı bir addım atmır. Sadəcə öz vətəndaşını tələb edir.

***- Sanki son zamanlar ABŞ Azərbaycanın yerləşdiyi region ölkələrini daha çox sıxmağa çalışır. Bütün bunlar Azərbaycan kimi dövlətlərə ciddi təhlükə deyilmi?***

- Təbii ki, bunlar təsirsiz deyil. Ortaya çıxa biləcək hər hansı bir krizis ölkəmizə də ciddi təsir edə bilər. Eyni zamanda Azərbaycanın bu ölkələrlə yaxın əlaqələri Qərb dünyası ilə münasibətlərinə də ciddi təsir edə bilər. İqtisadi böhran ən ciddi məsələlərdən biridir. Rusiya, Türkiyə kimi dövlətlərdə iqtisadi böhranlar yaşanmaqdadır və bu bölgəyə də təsirsiz ötüşmür. Bölgədəki krizis hər şeyə təsir edir. Azərbaycan da bunun zərərini çəkə bilər. Necə ki, neftin qiymətlərinin aşağı düşməsi Azərbaycanda devalvasiyaya səbəb oldu. Azərbaycan kimi bir ölkə buna hazırlıqlı olmalı idi. Neft üzərində iqtisadiyyat qurarsansa, bu cür hallarla üzləşərsən. Digər tərəfdən radikal qrupların fəallaşması Azərbaycana da təsir edir. Azərbaycanda da radikal qruplar ortaya çıxır, silahlanırlar. Qlobal və regional təlatümlər Azərbaycan kimi çox da güclü olmayan dövlətləri ciddi şəkildə rahatsız edir, təzyiq altında saxlayır.

***- 15 sentyabrda Türkiyə prezidentinin Bakıya gəlməsi, hərbi paradda Azərbaycan prezidenti ilə birgə verdiyi mesajlar iki ölkənin birliyinin bir daha nümayişi oldu. Bunları necə dəyərləndirirsiz?***

- Biz bir dəfə deyil, hər zaman deyirik ki, Azərbaycanla Türkiyənin münasibətləri o səviyyəyə çatıb ki, artıq ittifaq dövləti məsələsini gündəmə gətirmək lazımdır. Rusiya ilə Belarus arasında olan ittifaq kimi bir ittifaq yaradılmalıdır. Bir araya gəlmək zamanı yetişib. Hər kəs buna onsuzda belə baxır. Burada üçüncü ölkələrə yönəlik hər hansı bir addım yoxdur. Onlar boş şeylərdir ki, Türkiyədəki iqtisadi krizis Azərbaycan manatına və başqa şeylərə təsir edəcək. Bu fikirlər Azərbaycan-Türkiyə münasibətlərinə ləkə gətirməkdir. İttifaq dövləti hər şeyi birləşdirmək anlamına gəlmir. Bunun dünyada ən gözəl örnəyi Avrasiya məkanında Rusiya ilə Belarus arasında olan ittifaqdır.



## "Burada bizlərə qarşı hər hansı bir xoşagəlməyən münasibət olsaydı, bu gün biz dövlət universitetində professor və kafedra müdiri olmazdıq"

***- Toğrul bəy, Türkiyə və Rusiyadakı azad biznes mühitini necə dəyərləndirirsiz? Azərbaycanlı iş adamı Etimad İsmayılovun qətli bir sıra suallara yol açıb.***

- Rusiyanı deyə bilmərəm. Amma Türkiyədə azad biznes mühitinə təhlükələrin olduğunu, maneələrin yaradıldığını demək düzgün olmaz. Etimad bəyin qətli ilə bağlı nələrisə demək hələ tezdir. Araşdırmaların sonunda qətlin səbəbləri ortaya çıxacaq. Bu cür hadisələr bizim insanların xarakterindən irəli gəlir. Sıxıntıları güc və şiddət yolu ilə həll etmək bizim kimi cəmiyyətlərdə olur. Amma Türkiyədə azad biznesin qarşısının kəsildiyini demək çox çətindir.

***- Etimad İsmayılovla tanışlığınız var idi?***

- Xeyr. Onun həyat yoldaşı Sevil xanımı daha çox tanıyırdım. Etimad bəy də burada kifayət qədər tanınırdı. Sevil xanımla işimizə görə bir-birimizi daha çox tanıyırıq.

***- Qatili necə, tanıyırdınız?***

- Onunla heç bir əlaqəm yoxdur. Burada elm sahəsində olan insanları daha çox tanıyıram. Biznes mühitində olanlarla o qədər də əlaqəm yoxdur. Digər tərəfdən onlar mən yaşadığım yerdə yaşamırlar.

***- Bu qətldən sonra hansı ölkədə yaşamasından asılı olmayaraq azərbaycanlıların bir-birinə olan xoşagəlməyən münasibətləri gündəmə gəlib. Artıq iş o yerə çatıb ki, azərbaycanlılar bir-birini öldürürlər...***

- Düşünürəm ki, bu məsələ bir qədər şişirdilir. Düzdür, bizə düşmən lazım deyil. Rusiya və digər ölkələrdə iş adamlarımız ortaqlarını, həmyerlilərini qətlə yetirirlər. Təəssüflər olsun ki, bunlar problemləri dialoq yolu ilə həll etməmək səbəbi ilə daha çox baş verir. Cəmiyyətlərdə olan neqativ hallar fərdlərin üzərinə çökür. Bu da harada yaşamağından asılı olmayaraq özünü göstərir. Mənə görə insan həyatı puldan qat-qat üstündür. Pula görə insanı qətlə yetirmək doğru deyil. Maddiyyatın hər şeyin üzərinə çıxdığı cəmiyyətlərdə belə məsələlər daha çox önə çıxır. Burada çoxlu ziyalılarımız, iş adamlarımız var. Ziyalılarla iş adamlarının bir araya gəlib görüşdüklərini görmədim. Diasporanın fəaliyyəti də boş şeydir. Mən Kahramanmaraşdayam. Burada universitetdə dərs deyirəm. Burada azərbaycanlı tələbələr az deyil. Durumları bərbad gündədir. Hanı azərbaycanlı iş adamları? Milyonlar, milyardlar qazanırlar. Amma kimə dəstək olublar? Elm adamıyam. Buna rəğmən tələbələrə dəstək olmağa çalışıram, gücümün yetdiyi qədər maddi, mənəvi və digər tərəflərdən dəstək oluram. Amma toplum olmaq istəyiriksə dilimizə, elmimizə sahib çıxmalıyıq. Burada öz güclərinə təhsil alanlar var. Onların durumları çox ağırdır. Ola bilər ki, mərkəzi yerlərdə bunlar hiss olunmasın, amma əyalətlərdə açıq şəkildə sezilir. Problemlər hədsiz dərəcədə çoxdur. Etimad İsmayılovun qətlini şiddətli şəkildə qınayıram. Nə deyirlər desinlər, nə problem olursa olsun, iki nəfər arasındakı problem qətllə nəticələnməməlidir. Etimad bəylə Sevil xanımın övladları yetim qaldı. Bu yetimin göz yaşları hər şeydən üstündür, milyonlarla, milyardlarla pullar bunu əvəzləyə bilməz. Bunu insanlarımız anlamalıdırlar. İnsan həyatına bir dəyər kimi baxılmalıdır.

***- Etimad İsmayılovun cənazə namazında Türkiyənin sabiq baş naziri Əhməd Davudoğlu da iştirak etdi. Bu da hər kəsin diqqətini cəlb etdi.***

- Sevil xanım Türkiyədə populyar bir jurnalistdir, telekanallarda çox ciddi proqramlara qatılır. İqtidara yaxınlığı ilə tanınan bir şəxsdir. Hakim dairələrdə kifayət qədər tanınır. Kim imkan tapmışdısa, cənazə namazına qatılmışdı. Bu baxımdan burada başqa nələrisə düşünmək doğru deyil. Mən şəxsən o mərasimə işdə olduğum üçün qatıla bilmədim. Amma bizim də ailədən orada iştirak edən oldu. Bu da bizim borcumuzdur. Sevil xanımın siyasi baxışlarına qatılarsınız, yaxud qatılmazsınız, amma o, Azərbaycan üçün bir dəyərdir. İş adamı olaraq Etimad bəy də kifayət qədər tanınırdı. İş adamı kimi hökumətlə də müəyyən işlər görürdü.

Türkiyədə bizə münasibət həmişə yüksək səviyyədə, qardaş münasibəti olub. Bu bir cinayətdir. Öldürən də mərhumun iş ortağıdır. Burada bizlərə qarşı hər hansı bir xoşagəlməyən münasibət olsaydı, bu gün biz dövlət universitetində professor və kafedra müdiri olmazdıq. Yaxud belə bir şey olsaydı, bu gün Sevil xanıma problemlər yaradılardı. Azərbaycan türklərinə burada qardaş gözü ilə baxırlar. Azərbaycanlıları burada öldürürlər kimi fikirlər səsləndirmək heç kimə yaraşmaz. Son qətldə öldürülən də, öldürən də azərbaycanlıdır. Daha öncə İstanbulda bir cinayət baş vermişdi, onu da edən azərbaycanlılar olmuşdu.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Müsyö Jordana böyük hörmətlə

**Zamin HACI**
zaminhaci@gmail.com

"Yer adamı deyil, adam yeri bəzəyir"
*(latın məsəli)*

**Rusiyada tanınmış rejissor Kirill Serebrennikov bir ildən çoxdur qondarma ittihamlarla ev dustağıdır, məhkəmə-istintaq prosesi də acı bağırsaq kimi uzanır. Bu müddətdə Kirill bəyin müdafiəsi üçün onlarla sənət adamı dünyanın hər yerindən səslərini qaldırıblar. İki-üç gün qabaq onlardan birini də ekranda gördük. Rusiyada hansısa rəsmi tədbir idi, mədəniyyət naziri bir ağsaqqal aktyora mükafat verirdi, qəfildən bu aktyor mikrofonu alıb Serebrennikova təzyiqlərə son qoyulmasının önəmindən danışmağa başladı. Dedi bu təzyiqlər müddətində rejissor nə qədər sənət əsərləri yarada bilərdi. Aktyorun sifəti tanış gəldi, siz də baxsanız mütləq tanıyardınız. Çünki bu adam Azərbaycan kinosunda olduqca yaddaqalan obrazlardan birini - Mirzə Fətəli Axundovun "Hekayəti Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadükuni məşhur" pyesi əsasında 1976-cı ildə çəkilmiş "Dərviş Parisi partladır" filmimizdə Müsyö Jordan rolunu oynamış Sergey Yurski idi. Sergey bəyin hazırda 83 yaşı vardır, ancaq gördüyünüz kimi, vətəndaş mövqeyini, əsl insan sifətini heç vaxt itirməyibdir, daim haqsızlığa qarşı çıxıbdır. Sözgəlişi, Yurski dəfələrlə Putinin diktatura siyasətinə qarşı çıxıbdır, Xodorkovskinin, NTV kanalının müdafiəsindən tutmuş rus ordusunun Gürcüstana hücumunu, Krımın işğalını pisləməyə qədər. Yurski haqda son qeydimi də yazım: "Dərviş Parisi partladır" filmində Yurski necə deyərlər, tam şəkildə Müsyö Jordanı oynayır. Yəni orda Müsyö Jordanın səsi, bizim dildə danışmaq cəhdlərinin müəllifi də Yurski özüdür. Bəlkə də həmin obrazı bizə sevdirən həm də bu olubdur.**

Bunları yazmaqda məqsədim nədir? Sadəcə, Yurski sanki o roluyla bizim bir həmyerlimizə, doğma adamımıza çevrilibdir (burada Axundovun ruhuna da bir salavat zikr edək, ateist filosofumuz bu qara yumordan ümid edirəm incimazdi), indi dostumuzun hörmətə layiq çıxışı bizi sevindirir. Heç də "o əjdahadan niyə burda yoxdur" yazmaq istəmədim, bunu biləsiniz. 83 yaşlı yox, heç 38 yaşlı rejissor və aktyorlarımızdan, sənət adamlarından humanizmin keşiyində durmağı ummuruq. Vəziyyət çoxdan o həddi keçibdir, biz indi hardasa Breygelin "Korlar" tablosunun qəhrəmanlarını xatırladırıq. Bir-birimizin əlindən, əl ağacından, tumanının ətəyindən tutub uçuruma yuvarlanırıq.

Həmin tablonun oyatdığı düşüncələrim məni kadr siyasətimizdəki bəzi maraqlı gəlişmələrə yönləndirdi. (Nəhayət, sənət aləmindən qopub siyasətə hoppanmağa bəhanə gəzirdim, yoxsa İlham Rəhimli, Aydın Talıbzadə kimi sənətşünas tənqidçilər dura-dura bizim bu sahədən dəm vurmağımız yəqin ayıb olardı). Qədim Misirdə, o cümlədən bəzi başqa qədim tayfa və qəbilələrdə firon, padşah, başçı, ümumiyyətlə hər bir insan öləndə onun o biri dünyada da uyğun vəzifə daşıdığına inam vardı. O üzdən, adamın qəbrinə qab-qacaqdan, qızıl-mızıldan tutmuş şəxsi heyvanlarına - at, it, pişik və sairə qoyurdular. Həmçinin "o tərəfdə" qulluq eləməsi üçün rəhbərin nökərlərini, arvadını da öldürüb basdırırdılar. İndi bizdə kadrlar var, görürsən onun yerini dəyişirlər, adam bir sürü ətrafındakıları da özüylə ora-bura daşıyır. Qəribə, məzəli situasiyadır. Sanki yeni idarədə pul yığımları, iş düzüb qoşmaq və sairə "paket həllər"i etibar etmək üçün yeni adam tapmaq mümkün deyildir. Mütləq gərək öz müavinini, köməkçini, sürücünü, nə bilim, katibəni də özünlə daşıyasan. Nəticədə görürsən "N" rayonunda icra başçısının müavini işləyən adam bir gün "X" rayonunda icra başçısının müavini sifətində peyda olur, daha sonra müdiri ilə bərabər "Y" nazirliyində müavinə çevrilir. Bir gün ildırımlar çaxır, naziri vururlar, həmin müavin də gumbagurumla düşür dərənin dibinə. Nazirin özüylə daşıdığı başqa bir sürü müavin, köməkçi, sürücü, aşbaz, masajist, stilist, vizajist, xınaqoyan və sairə də həmçinin. Bu uğursuz sistem həllidir. Çünki nəticədə texniki məmur heyətimiz formalaşmır. İşi bilənlər yetişmir. Məncə lap yuxarı səviyyədə buna veto qoyan hansısa qanun, qərar verilsə yaxşı olar. Qoy təzə nazir (icrabaşı, rəis, sədr, müdir...) qoyulan adam köhnə yerindən uzağı 1-2 adamı özüylə gətirmək hüququnda olsun. Kvotası olsun bu hərəkətin. Orta ranqlı məmurlar da bir yerdə uzun müddət çalışıb yaxşı işbilən olsunlar.

**İndi söz məlum məsələdir kimindir - əlaqədar təşkilatların. Mən də onları hər yazımda özümlə daşıyıram, axırı xeyirli olsun.**



# İrəvanın "iki stul" siyasəti fiaskoda - Bakı üçün unikal şans

## Paşinyanın Qərb və Rusiya arasında "balans" kursu bumeranq kimi özünə qayıtmağa başlayıb; "Rus NATO-su"na rəhbərlik Ermənistandan alınır; Paşinyanın Trampla görüş cəhdləri də boşa çıxıb - səbəb...

**Ermənistanda "məxməri inqilab"ın yaratdığı və narazı kütlənin böyük ümid bəslədiyi hakimiyyət dəyişikliyindən keçən 4 ayda təzə hökumət hələ də daxildə hansısa böyük uğura imza ata bilməyib. Əhalinin güzəranı zərrəcə yaxşılaşmamış qalır, ölkədən kütləvi köç dayanmayıb. Baş nazir Nikol Paşinyanın xarici siyasət sahəsində vəziyyəti isə daha acınacaqlı görünür.**

**Ondan başlayaq ki, artıq Ermənistan "Rus NATO-su" kimi tanınan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi postunu vaxtından əvvəl itirmək üzrədir.** Bu da blokun indiki baş katibi, general Yuri Xaçaturova qarşı cinayət işinin açılması və onun qısa müddətli həbsi ilə birbaşa əlaqəlidir. Moskva bu addımı forpostu tərəfdən həm özünə qarşı siyasi demarş, həm də qurumu gözdən salmaq cəhdi kimi qiymətləndirib. Doğrudur, az sonra Kremlin təzyiqi ilə Xaçaturov Moskvaya - öz vəzifəsinə qayıtdı, ancaq artıq iş işdən keçmişdi.

**İndi isə məlum olur ki, Paşinyan iqtidarının KTMT-yə başqa bir ermənininin baş katib gətirilməsi təklifini nəinki Rusiya, blokun digər iki üzvü - Qazaxıstan və Belarus da qəbul etməyib.** Hərçənd Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyan iddia edir ki, məsələ ilə bağlı üzv ölkələrlə məsləhətləşmələr davam etdirilir.

**Belə ki, az öncə Nikol Paşinyanın KTMT-də baş katib dəyişdirilsə də, Ermənistanın bu postu əlində saxlaya biləcəyinə dair hər cür əsasa malik olduğunu bəyan etməsinə diqqət çəkən jurnalistlər Mnatsakanyandan buna münasibət istəyiblər.** O isə məsələyə dair şərh verməkdən imtina edərək, sadəcə, "danışıqlar davam edir" deməklə kifayətlənib.

**Ermənistandakı və Rusiyadakı analitik mərkəzlər isə Paşinyanla eyni nikbinliyi bölüşmürlər.** Rusiyalı hərbi ekspert Vladimir Yevseyev hesab edir ki, Xaçaturovdan sonra Ermənistan KTMT-dəki baş katib postundan məhrum olacaq. "Nikol Paşinyanın nikbinliyi özünü doğrultmayacaq. Çünki Xaçaturovdan sonra baş katib postunun Ermənistanda qalması üçün Paşinyan Lukaşenko və Nazarbayevlə söhbət edib və aydın olub ki, onlar Paşinyana rədd cavabı veriblər, Ermənistan bu məsələdə dəstəksiz qalıb. KTMT-nın yaxın zamanda baş tutacaq növbəti sammitində baş katib postu Belarusa keçəcək", - deyə Yevseyev əlavə edib.

**"Yeni Müsavat" xatırladır ki, az öncə KTMT Birləşmiş Qərargah rəisi, general Anatoli Sidorov Ermənistanın guya Azərbaycan tərəfindən onun ərazisinə zərbə endirdiyini iddia edərək KTMT-nin hərəkətə keçməli olması haqda təxribatçı çağırışını qulaqardı eləmişdi.** Rus general habelə Azərbaycana qarşı heç bir güc tətbiq edilməyəcəyini söyləmişdi. Eyni zamanda o, münaqişə tərəflərinin öz aralarında dinc həll yolunu tapacağına ümid ifadə etmişdi. Bu da İrəvanın "şimal cəbhəsi"ndə növbəti siyasi-diplomatik fiaskosu hesab oluna bilər.

*****

**Bu arada Paşinyan hökumətinin xarici siyasət kursundakı böyük bir diplomatik uğursuzluğunun altını cızmaq lazım gəlir.** Söhbət aylardır ABŞ-dakı nüfuzlu erməni lobbisinin də çalışdığı Tramp-Paşinyan görüşünə nail olmaqdan gedir. Mnatsakanyan deyib ki, Paşinyanın BMT-nin gələn həftə Nyu-Yorkda keçiriləcək Baş Məclisi çərçivəsində prezident Trampla görüşü gözlənilmir. Belə bir görüş isə Paşinyana ilk növbədə seçkilər öncəsi Amerikanın maliyyə-iqtisadi dəstəyini almaq üçün hava-su kimi vacib idi.

**Erməni XİN başçısı özünü sındırmayaraq onu da deyib ki, Tramp-Paşinyan görüşünün təşkili üzərində erməni tərəfi Amerika tərəfi ilə intensiv işləyib, "lakin proses zaman tələb edir və tələskənliyə ehtiyac yoxdur".** Əlavə edək ki, Nikol Paşinyanı Donald Trampla görüşdürmək üçün ABŞ konqresmenləri səviyyəsində də ciddi iş aparılıb. Bir qrup konqresmen bundan ötrü hətta ABŞ prezidentinə yazılı müraciət ünvanlamışdı. Göründüyü kimi, nəticə olmayıb.

**ABŞ-a can atan Paşinyan isə bu üzdən səfərini ləngitməli olub.** Lakin bunu İrəvanda mer seçkisi ilə əlaqləndirməyə çalışıb. "168 Jam" qəzeti isə yazıb ki, Paşinyan səfərini heç də İrəvan Şəhər Şurasına keçiriləcək seçkidə iştirak üçün təxirə salmayıb (axar.az). Sitat: "Əldə etdiyimiz məlumata görə, səfərin təxirə salınma səbəbi başqadır. Belə ki, erməni tərəfi əvvəlcə ABŞ prezidenti Donald Trampla görüşməyi təklif etsə də, bu istək rədd edilib. Daha sonra vitse-prezident Maykl Penslə görüşə cəhd edilib, lakin bu istəyə də neqativ cavab verilib. ABŞ-a səfərin "xilası üçün" son ümid Ermənistan xarici işlər naziri Mnatsakanyanla dövlət katibi Mayk Pompeonun görüşünün təşkili olub. Lakin hələlik ABŞ tərəfi bu görüşün keçirilməsi üçün öz cavabını verməyib. Mənbəmiz bu görüşə də rədd cavabı veriləcəyini gözləyir", - deyə məlumatda bildirib.

*****

**Qeyd edək ki, bütün səylərə rəğmən, Ağ Ev başçısının Nikol Paşinyanla görüşdən imtinası rəsmi İrəvanın Qərb geosiyasi istiqamətində ciddi diplomatik fiaskosu olmaqla yanaşı, ABŞ-ın Ermənistanda post-inqilab dönəmində real islahatların aparılmasının mümkünlüyünün, konkret olaraq, Paşinyanın demokratiya vədlərinin ciddi qəbul olunmadığının, Ermənistana və onun hazırkı rəhbərliyinə etimad göstəricisinin çox aşağı olduğunun qabarıq təzahürüdür.** Bunu Paşinyan iqtidarının Rusiya və ABŞ-a hesablanmış "iki stul"da oturmaq siyasətinin faş olması da saymaq olar.

**Beləcə, Paşinyan hökuməti hər iki diplomatik cəbhədə - həm Rusiya və digər KTMT ölkələri ilə münasibətlərdə fiasko ilə üz-üzədir, həm də Qərblə yaxın əlaqələr qurmaq kursu daşa dirənib.** Bu isə rəsmi Bakının önə keçməsi və Qarabağ məsələsində təbliğat savaşını daha uğurla aparması üçün ona unikal şans açır.

**Belə bir gəlişmə erməni ekspert dairələrində də etiraf olunmaqdadır.** Məsələn, informasiya təhlükəsizliyi məsələləri üzrə erməni ekspert Samvel Martirosyan hesab edir ki, Ermənistanla Azərbaycan arasındakı informasiya mübarizəsində Ermənistan tərəfinin informasiya siyasəti çox zəifdir. O, bildirib ki, İrəvanın informasiya siyasətini "dondurulmuş" hesab etmək olar.

"Blokada vəziyyəti ilə əlaqədar iqtisadiyyatı çökən və ölkəni talamış Sərkisyan rejiminin uzun illər hakimiyyətdə qaldığı Ermənistan rəsmi Bakı ilə bərabər informasiya mübarizəsi aparmaq iqtidarında deyil", - deyə o qeyd edib və əlavə edib ki, 2016-cı il aprel döyüşlər bu sahəyə böyük təsir göstərib və bəzi məsələlərin təkrar nəzərdən keçirilməsinə səbəb olub.

**Bir sözlə, Nikol Paşinyanın Qərb və Rusiya arasında "balans" yaradıb hər iki qlobal gücdən dəstək almaq kursu bumeranq kimi artıq onun özünə və komandasına qayıtmağa başlayıb.** Bu isə Ermənistanın yeni rəhbərliyinə çarpaz təzyiqlər vəd edir...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

**Nüfuzlu beynəlxalq təşkilatların təmsilçilərinin son vaxtlar Dağlıq Qarabağ məsələsi ilə bağlı verdikləri bəyanat və açıqlamalarda Azərbaycanın xeyrinə olan notların çəkisi ciddi şəkildə artıb. Məsələn ən son olaraq NATO baş katibinin müavini Rouz Hotemüllerin iki gün öncə Bakıya səfəri zamanı verdiyi açıqlamaları qeyd edə bilərik.**



# Azərbaycan uğrunda mübarizəyə NATO da qoşulur

## Ekspertlər NATO baş katibi müavininin Bakı səfərini dəyərləndirdilər: "Azərbaycanın önəmi artdıqca..."

**NATO rəsmisi bildirib ki, NATO qanunun aliliyi mövqeyindən çıxış edən alyansdır, biz ölkələrin ərazi bütövlüyü məsələsinə dair BMT-nin Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktını vacib hesab edirik:**

"Biz həmçinin bütün münaqişələrin dinc yolla həllinin tərəfdarıyıq və Minsk Qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində sülh yollarının axtarışı üzrə səylərini dəstəkləyirik".



Qabil Hüseynli



Natiq Miri

Dünyanın ən güclü hərbi-siyasi Alyansı sayılan NATO-nun yüksək çinli rəsmisinin son Bakı aşıqlaması ərazisinin 20%-i erməni işğal altında olan ölkəmiz üçün çox önəmlidir. Ərazi bütövlüyümüzə dəstək öz yerində, əslində bu mövqe Azərbaycanın müharibə haqqının da tanınması deməkdir. Eyni zamanda Bakıdan İrəvana verilən ciddi ismarışdır. İşğalçı tərəfi narahat edən həm də budur. Təsadüfi deyil ki, NATO baş katibi müavininin Bakı səfəri barədə yazan erməni mediası xanım Hotemüllerin bəyanatında Azərbaycanın ərazi bütövlüyünə dəstəklə bağlı hissəni ixtisar edib.

NATO rəsmisinin Bakı səfəri və bu səfər çərçivəsində verilən yuxarıdakı açıqlama Rusiya prezidenti Vladimir Putinin Azərbaycana gəlişinə sayılı günlər qaldığı vaxta təsadüf eləməsi ilə də diqqət çəkir.

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, NATO baş katibinin müavinin Bakıya səfərinin özü Azərbaycana önəm və dəstəyin göstəricidir. Buna Bakıda ərazi bütövlüyümüzə dəstək bəyanatını da əlavə etsək, Azərbaycanın aktivinə ikinci ciddi xal yazıldığını saymaq olar: "Azərbaycan böyük coğrafi və strateji əhəmiyyətə malik bir məkandır. Bu gün dünyanın geopolitik düzənini müəyyənləşdirən super güclər, öz plan və proqramlarında Azərbaycana xüsusi önəm verirlər. Azərbaycan yerləşdiyi məkan həm Avropa ilə, həm Rusiya ilə, həmdə ki, yaxın Şərqin söz sahiblərindən biri olan İrana çıxış imkanları yaradır. Azərbaycanın yerləşdiyi bu məkan bundan yana çox əhəmiyyətli və cəlb edəndir. NATO bildiyimiz kimi, müasir dünyada mövcud olan, üzv olduqları dövlətlərin hərbi siyasi təhlükəsizliyini qoruya biləcək ən etibarlı və ən güclü hərbi-siyasi təhlükəsizlik ittifaqıdır. Dünyada ən müasir, ən böyük silah-sursat təchizatına və maliyyə büdcəsinə sahib hərbi qurumdur. Münaqişəli ərazilərdə sülhü bərpa edir, işğalçıları, insanlığa zidd əməllərin sahiblərini zərərsizləşdrir, sülh naminə həyata keçirilən hərbi əməliyyatları dəstəkləyir, NATO çərçivəsində və ondan kənarda. NATO bu missyasında müəyyənləşdirdiyi proqram və digər yüksək əhəmiyyətli sənədlərində Azərbaycanın önəmini önə çəkir. İndi bu təşkilatın yüksək çinli təmsilçisinin Bakıda verdiyi bəyanat Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini bir daha təsdiqləmiş oldu. Eyni zamanda beynəlxalq hüquqa Azərbaycana ərazi bütövlüyünün bərpası üçün istənilən an hüquq tanıdığın bir daha göstərdi. Bu gün NATO-nun Azərbaycana hərbi dəstəyinin verilməsi NATO üzvü olmamağımız səbəbindən elə də asan olmasa da, bu böyük təşkilatın siyasi dəstəyini almağımız ciddi məsələdir. Baş katibin müavinin bəyanatı siyasi dəstək sayıla bilər. Bu Azərbaycanın uğurudur".

**Politoloq Natiq Miri** bildirdi ki, NATO rəsmisinin açıqlamasını siyasi baxımdan Azərbaycanın xeyirinə olan, Azərbaycanın haqlı olduğunu bir daha təsdiq eləyən bəyanat saymaq olar. Amma NATO siyasətində Dağlıq Qarabağ problemi hələlik prioritet sayılmır. Əvvəla, Azərbaycan NATO üzvü deyil. İkincisi, bütün bu cür səfərlərin və bəyanatların əsas məqsədi Azərbaycanı öz orbitlərində saxlamaqdır: "Unutmaq lazım deyil ki, Azərbaycan avroatlantik məkanın Cənubi Qafqazda ən strateji ölkəsidir. Çünki bu gün İran-ABŞ münaqişəsi kontekstində Azərbaycana yanaşanda Azərbaycan böyük müsəlman ölkəsi olan İranın bilavasitə sərhədində yerləşir. Bu, təbii ki, ABŞ və İsrail üçün çox böyük cəlbedici geosiyasi amildir. Nə qədər ki, ABŞ, İsrail-İran mübarizəsi gedir Azərbaycanın Qərb üçün, NATO üçün cəlbediciliyi, vacib ölkə olması amili qalacaq. Proses bu şəkildə getsə, Azərbaycanın əhəmiyyəti daha da artacaq. Azərbaycanın əhəmiyyəti artdıqca bir nömrəli məsələmiz olan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanın xeyrinə olan, xoşuna gələn bəyanatların da sayı artacaq. Bu bəyanatlarda əsl məqsəd Azərbaycanı öz tərəflərinə çəkməkdir. Məqsəd heç də qısa müddətdə Dağlıq Qarabağ məsələsini həll etmək deyil".

**Politoloq Natiq Miri "Yeni Müsavat"a bildirdi ki, NATO rəsmisinin açıqlamasını siyasi baxımdan Azərbaycanın xeyrinə olan, Azərbaycanın haqlı olduğunu bir daha təsdiq eləyən bəyanat saymaq olar. Amma NATO siyasətində Dağlıq Qarabağ problemi hələlik prioritet sayılmır:** "Əvvəla, Azərbaycan NATO üzvü deyil. İkincisi, bütün bu cür səfərlərin və bəyanatların əsas məqsədi Azərbaycanı öz orbitlərində saxlamaqdır. Unutmaq lazım deyil ki, Azərbaycan avroatlantik məkanın Cənubi Qafqazda ən strateji ölkəsidir. Çünki bu gün İran-ABŞ münaqişəsi kontekstində Azərbaycana yanaşanda Azərbaycan böyük müsəlman ölkəsi olan İranın bilavasitə sərhədində yerləşir. Bu, təbii ki, ABŞ və İsrail üçün çox böyük cəlbedici geosiyasi amildir. Nə qədər ki, ABŞ, İsrail-İran mübarizəsi gedir Azərbaycanın Qərb üçün, NATO üçün cəlbediciliyi, vacib ölkə olması amili qalacaq. Proses bu şəkildə getsə, Azərbaycanın əhəmiyyəti daha da artacaq. Azərbaycanın əhəmiyyəti artdıqca bir nömrəli məsələmiz olan Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanın xeyrinə olan bəyanatların da sayı artacaq".

**Politoloq hesab edir ki, Qərb, NATO, ABŞ Dağlıq Qarabağ münaqişəsinin həllini istəyirsə, ortada beynəlxalq hüquq amili var, beynəlxalq hüququn işə salınmasına nail olsunlar. Çox təəssüf ki, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq hüququn tələbləri tətbiq olunmur. Halbuki, digər bir sıra münaqişələrə münasibətdə Qərb dərhal beynəlxalq hüququn tələblərini tətbiq edir:** "Beləliklə də faktiki olaraq Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ikili standart ortalığa qoyulur. ABŞ, NATO, Avropa İttifaqı, ATƏT, Rusiya Dağlıq Qarabağ məsələsində beynəlxalq hüququn tələblərinin tətbiqinin tərəfdarı olub bunu əməldə reallaşdırsaydılar, Dağlıq Qarabağ problemi çoxdan həll olunardı. Çox təəssüf ki, bu münaqişənin ədalətli həllini istəmirlər. Çünki bilirlər ki, ədalət Azərbaycanın tərəfindədir. Azərbaycan uğrunda Qərblə Rusiya və İran arasında mübarizə gedir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# Yeni AXCP sədrindən "İdlib" və Qarabağ açıqlaması

## Razi Nurullayev: "Ermənistanla danışıqlar vaxt itkisidir"



**Son bir həftənin ən mühüm hadisələrindən biri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında İdlib məsələsi ilə bağlı razılaşmanın əldə edilməsi oldu. Çoxlarına belə bir razılaşmaya gəlmək mümkünsüz görünürdü. Lakin bu cür proqnozlar reallaşmadı və mümkünsüz görünən mümkün oldu.**

Qeyd edək ki, Türkiyə və Rusiya arasında imzalanan İdlib razılaşmasının mətni açıqlanıb. Türkiyə mediası xəbər verir ki, Ərdoğan və Putin arasındakı razılaşmadan sonra, Müdafiə Nazirləri Hulusi Akar və Sergey Şoyqu arasında 10 maddəlik sənəd imzalanıb. Həmin maddələr aşağıdakılardır:

*- İdlibdə təhlükəsizlik zonaları qorunacaq. Türkiyə tərəfi müşahidə nöqtələrini gücləndirəcək.*

*- Rusiya İdlibdə hərbi əməliyyatlar və hücumların azaldılması üçün tədbirlər görəcək və mövcud status qorunacaq.*

*- Neytral zona yaradılacaq və uzunluğu 15-20 km təşkil edəcək.*

*- Neytral zonanın sərhədlərini birgə işçi qrupun müəyyən edəcək.*

*- Bütün ektremist və terrorçu qruplaşmalar 15 oktyabradək bölgədən çıxarılacaq.*

*- Hər iki tərəfə aid bütün tanklar, ağır texnika və toplar 10 oktyabra qədər neytral ərazidən çəkiləcək.*

*- Neytral zonaya nəzarət türk və rus əsgərləri tərəfindən həyata keçiriləcək. Müşahidələr pilotsuz təyyarə ilə də gerçəkləşəcək.*

*- M4 - M5 avtomobil yolu ilin sonuna qədər bərpa olunacaq.*

*- İdlibdə atəşkəsin bərqərar olması üçün qabaqlayıcı tədbirlər görüləcək. İran, Türkiyə və Rusiyanın birgə koordinasiya mərkəzi yaradılacaq.*

*- Hər iki tərəf Suriyada terrora qarşı mübarizədə birgə hərəkət edəcək.*

Bəs günün birində "İdlib razılaşması"na bənzər razılaşmanın Dağlıq Qarabağ məsələsi ilə bağlı da Türkiyə və Rusiya prezidentləri arasında olması mümkündürmü?

**Yeni AXCP-nin sədri Razi Nurullayev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ərdoğan və Putin arasında İdlibə bənzər müqavilə imzalana bilməz. Çünki onlar münaqişə tərəfi və həm də bu və ya digər şəkildə münaqişəyə cəlb edilən tərəf deyillər: "Yeganə olaraq, onlar münaqişənin real həlli üçün tərəflərlə qarşılıqlı güzəştlər və yeri gələrsə siyasi təzyiq göstərmək barədə razılığa gələ bilərlər. Bunu isə ancaq ehtimal etmək olar, çünki belə razılaşma olsa belə, ictimaiyyətə açıqlanmaz.

Bir siyasətçi kimi bilirəm ki, münaqişənin həlli Rusiyaya bağlı məsələdir. Rusiya istəsə, bir ay ərzində məsələni çözər. Əgər Ermənistanın siyasi rəhbərliyi dikbaşlıq edib sözə baxmasa, Rusiyanın onun arxasından çəkilməsi bəs edər ki, Azərbaycan ordusu işğal edilmiş əraziləri erməni əsarətindən təmizləsin. Bunun üçün də Rusiya ilə danışıqlar aparmaq lazımdır. Ermənistanla danışıqlar vaxt itkisidir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"



# ABŞ Rusiyaya qarşı sanksiyaları genişləndirdi - daha 33 nəfər

**ABŞ Dövlət Departamenti Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etməsinin açıqlayıb. Avropa.info xəbər verir ki, bu barədə məlumat verən Dövlət Departamentinin təmsilçisi Hizert Nauertin sözlərinə görə, ABŞ Dövlət Departamenti yeni tətbiq edilən sanksiyalara 33 Rusiya vətəndaşının adını salıb.**

Bunlar Rusiyanın müdafiə, kəşfiyyat və müdafiə sənayesi sahəsində çalışan şəxslərdir. Siyahıya eyni zamanda Çinin Rusiya ilə hərbi sənaye sahəsi ilə əməkdaşlıq edən bir şirkətin də adı daxil edilib.

YENİ MÜSAVAT
N 199 (7088) 22 sentyabr 2018



# Ermənilər separatçı Fəxrəddin Abbaszadənin müdafiəsinə qalxdılar

## Paşinyan ona vətəndaşlıq verə bilər

**Ermənistanda bir qrup alim Moskva vilayətində Azərbaycana qarşı separatçılıq edən Fəxrəddin Abbaszadəyə Ermənistan vətəndaşlığının verilməsi üçün baş nazir Nikol Paşinyana müraciət edib.**

Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, onlar vətəndaşlığı Fəxrəddin Abbaszadənin Ermənistan Respublikası və erməni xalqı qarşısında xidmətləri, həmçinin Azərbaycan əleyhinə dövri mətbuatda yazdığı məqalə və açıqlamalarına görə verilməsini təklif ediblər.

Müraciəti ünvanlayanlar arasında Ermənistanın Kanadadakı keçmiş səfiri, "Modus Vivendi" analitik mərkəzinin rəhbəri Ara Papyan, keçmiş deputat Araqats Axoyan, BMT-nin eksperti, "Noravank" fondunun vitse-prezidenti Ara Marcanyan, politoloq Qrayr Ulubabyan, Ermənistan Yezidlərinin Milli İttifaqının sədri Əziz Tamoyan, "Arevelk" analitik mərkəzinin rəhbəri Karen Sirunyan, "Ayq" psixoloji mərkəzinin direktoru Varujan Melkonyan, yazıçı Movses Akopyan, jurnalist Natalya Oqanova, əməkdar artist Razmik Xosroyev, ekoloq Karine Danielyan və daha 12 professor var.

Xatırladaq ki, Azərbaycana qarşı radikal çıxışlar edən, separatçı təşkilat rəhbəri, "Talış Milli Hərəkatı" adlanan qondarma qurumun sədri Fəxrəddin Abbaszadə sentyabrın 6-da Moskva vilayətinin Lyuberets rayonunda həbs olunub. O, Azərbaycan hüquq-mühafizə orqanlarının rəsmi sorğusu əsasında federal axtarışa verilib və saxlanılıb.

Sentyabrın 7-də isə Moskva vilayəti Luberets rayon məhkəməsinin hakimi İ.Juravlevin hökmü ilə Azərbaycana ekstradisiya olunması üçün 1 aylıq müddətə barəsində həbs-qətimkan tədbiri seçilib.

Fəxrəddin Abbaszadə haqda 2018-ci il iyulun 12-də Bakının Səbayel Rayon Məhkəməsinin qərarı ilə cinayət işi açılıb və onun həbsinə qərar verilib.

Fəxrəddin Abbaszadə (özünü Faxroddin Abboszoda adlandırır) Azərbaycana düşmən kəsilən separatçı bir zamanlar ölkəmizi bölməyə və "Talış-Muğan Respublikası" yaratmağa çalışmış Ələkrəm Hümbətov tərəfindən 1993-cü ildə qondarma qurumun "parlamentinin spikeri" təyin olunmuşdu. Xəyanətin qarşısı alındıqdan sonra qaçıb Rusiyaya sığınan F.Abbaszadə uzun müddətdir xaricdən Azərbaycan dövlətçiliyi əleyhinə mütəmadi təxribat xarakterli kəskin çıxışlar edirdi.

O, ermənilərə məxsus mətbuat orqanlarında da Azərbaycana qarşı separatçı çıxışlar sərgiləyib. Fəxrəddin Abbaszadənin Ermənistan xüsusi xidmət orqanları ilə sıx əlaqədə olduğu bildirilir. Dəfələrlə Yerevanda separatçı tədbirlərə qatılan Fəxrəddin Abbaszadə Azərbaycanı, hakimiyyəti, müxalifəti, siyasi partiyaları, medianı ən müxtəlif "cinayətlər, repressiyalar, təqib"lərdə suçlayıb.

# Azərbaycanın sığorta bazarı 40% böyüyüb




**Bu ilin yanvar-avqust aylarında Azərbaycanda fəaliyyət göstərən 21 sığorta şirkəti 517 mln. manata yaxın məbləğində sığorta haqqı toplayıb. Musavat.com Maliyyə Bazarlarına Nəzarət Palatasına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 40,1% çoxdur.**

8 ay ərzində sığorta şirkərlərinin ödənişləri isə 169 mln. manata yaxın olub ki, bu da illik müqayisədə 0,9% çoxdur. Hesabat dövründə könüllü sığorta bazarı üzrə haqlar 375 mln. manat, ödənişlər isə 125 mln. manat, icbari sığorta bazarı üzrə haqlar 142 mln. manat, ödənişlər isə 44 mln. manat təşkil edib. Yanvar-avqust aylarında sığorta şirkətləri topladıqları hər 100 manat sığorta haqqının 32,6 manatını ödənişə yönəldib. Bu rəqəm 1 il bundan əvvəl 45,3 manat olub.

**Azərbaycanda qış turizmi üçün əlverişli rayonlardan biri də Qəbələdir. Böyük Qafqaz sıra dağlarının Tufandağ və Bazardüzü zirvələrinin ətəyində yerləşən Qəbələdə turizmin inkişafı üçün görülən işlər ümumilikdə rayonun görkəmini dəyişib. Rayon mərkəzinin ətrafındakı kəndlərdə də canlanma hiss olunur. Ən ucqarlarda belə gəzib-görməli mənzərəli məkanlar var.**

# "Prezidentlərin dostu"nun kəndi böyük köç astanasında

## Məmur-oliqarxlar lazalıların qışlaqlarını zəbt edib; 5 min il yaşı olan şəfalı daş Lazada necə peyda olub?












Laza Qəbələnin qədim kəndlərindəndir. Sakinləri köçəri həyat tərzi sürürlər. Kənddə 150-yə yaxın ev var. Rayon mərkəzindən uzaq deyil. Dağların ətəyində yerləşən Lazaya illər əvvəl asfalt yol çəkilib. Kəndin içində isə yollar betonla örtülüb. Səbəb də bu yerlər üçün adi olan sel-sularının kəndin içindən keçməsi, yolu-rizi yuyub aparmasıdır. Lazalılar zarafatla deyirlər ki, bizim üçün ilin 2 fəsli var - qış və yay. Yayın yekunlaşması havalaırn kəskin dəyişməsi, yağışların yağması ilə özünü göstərir. Artıq kənddə cübbədə, qış geyimində gəzənlər də gözə dəyir. Dəmiraparan çayının qışda şıltağlığı, məcrasından çıxması kəndə çəkilmiş yeni yolu tez-tez yararsız hala salır. Rayon mərkəzindən Lazaya 10-15 dəqiqəlik yol var. Yol "Tufandağ" turizm zonasının yanından, kanat yolların altından keçir, Dəmiraparan çayının kənarı ilə kəndə sarı uzanır. Çay kənarında yol dağınıqdır. Yerli sakinlər deyirlər ki, 2016-cı ildə daşqın və selə keçən gursululuq yolu dağıdıb, bir neçə gün kəndin rayon mərkəzi ilə əlaqəsi kəsilib. Kənddəki evlərin zirzəmilərini su basıb. Həmin zaman kənddə bir neçə evdə yaşayış olub, sakinlərin böyük hissəsi qışlaqlarda olublar.

Lazalılar köçəri həyat tərzi sürürlər. Əsasən heyvandarlıqla məşğul olur, qışı Ucar, Zərdab və Kürdəmir ərazisindəki qışlaqlarda keçirir, sürülərini artırır, yayda Lazaya qayıdırlar. Deyirlər ki, 2016-cı ildə sel suları kəndə ciddi ziyan vursa da, kəndin kənarındakı qədim şəfalı daşa xətər yetirməyib, sel həmin daşı aparmayıb. Lazalılar bunun bir möcüzə olduğuna inanırlar.

**Kəndin məşhur simalarından biri də Dağlar Səfərovdur.** Yerlilər onu "prezdentlərin dostu olan kəndçimiz" adlandırırlar. Dağlar Səfərov xalçaçılıqla şöhrətlənən Laza sakinlərindəndir. Yerlilər onun kəndin abadlaşması, tanıdılması üçün atdığı addımlardan danışmağı xoşlayırlar. Dağlar Səfərov Lazada olan və yerlilərin şəfalı daş olmasına inandıqları böyük qaya parçasının da tanıdılması üçün addımlar atıb. Yerli sakinlərin sözlərinə görə, bir neçə il əvvəl onun təşəbbüsü ilə şəfalı daş parçası ilə bağlı ərazidə lövhə quraşdırılıb. Həmin qayanın fövqəlgücə məxsus olması haqda rəvayətlər Lazanı turistlər üçün də cəlbedici edir. Lazalılar həmin daşın ərazidə necə peyda olmasının tarixçəsini bilmirlər. Deyirlər ki, təxmini hesablamalara görə, həmin qaya parçasının 5 min il yaşı var. Elə Dağlar Səfərovun quraşdırdığı lövhədə də belə bir mübahisəli rəqəm göstərilib - 5 min il. Yerlilər Lazanın da yaşının belə qədim olmasını iddia edirlər. Bu iddiaların nə dərəcədə doğru olmasını söyləmək çətindir. Azərbaycan tarixçilərinin yolunun bu ərazilərə düşməməsi də maraq doğurur...

"Prezidentlərin dostu" Dağlar Səfərov ötən il ABŞ-ın 45-ci prezidenti Donald Trampın xalça üzərində portretini hazırlayıb və müşayiətedici təbrik məktubu ilə onun özünə göndərib. O məktubda vaxtilə ABŞ-ın eks-prezidentləri Corc Buş, Barak Obamaya da məxsus xalça hazırladığını vurğulayıb. Lazalılar deyir ki, Dağlar Səfərov indiyədək onlarla dünya liderinin portretini hazırlayıb. Onların bir çoxu ilə təkbətək görüşüb. Məşhur xalçaçının kəndi bu gün böyük təhlükə qarşısındadır. Kəndin boşalması problemi hər ötən il daha da aktuallaşır. Səbəb də qışlaqların lazalıların əlindən alınması, onların əsas gəlir mənbəyi olan heyvandarlıqdan vaz keçmək məcburiyyəti ilə üz-üzə qalmalarıdır.

Lazadan yaylaqlara köç oktyabrda başlayır. Sakinlər indidən həyəcan təbili çalır, yaylaqlarda onları çətin günlər gözlədiyini deyirlər. Ötən ilin mayında yaylaqlardan qayıdan lazalılar həmin yerlərdə bu il sürülərinə otlaq sahələri olmayacağını böyük təşviş içində dilə gətirilər. Yaylaq-qışlaq ənənəsi torpaqların zəbt edilməsi üzündən tədricən aradan qalxmaqdadır. Lazalılar deyir ki, qışlaqları pambıq əkilməsi adı ilə əllərindən alınır. Ötən il qışlaq sahələrinin bu yolla zəbt olunması lazalıları çıxılmaz duruma salıb. Qışlaqlarda yaranan mübahisələrə polis müdaxilə etməli olub. Lazalılar deyirlər ki, heyvandarlıqdan başqa məşğuliyyətləri, gəlir sahələri yoxdur. Qışlağa köç etməsələr, bütünlükdə həyatları alt-üst ola bilər, Lazada yaşamları qeyri-mümkün hala gəlib çatar. Mal-heyvanların otlaq sahələrinin get-gedə zəbt olunması, əsasən məmur-oliqarxların, onların qohum-qardaşının qışlaq sahələrinə sahiblənməsi çox ciddi problemə çevirilib. Ucar ərazisində sabiq nəqliyyat nazirinin qardaşı, Zərdabda icra başçısının ətrafı ərazilərdə pambıq əkəcəkləri adı ilə qışlaqları şumlatdırıb, mal-heyvan üçün qiymətli olan təbii yem ehtiyatları, Qırmızı kitaba düşən bitkilər traktorların tırtılları altında məhv olub. Lazalılar deyir ki, onları qışlaqlarda yaşadıqları müddətcə - əsrlərlə oradakı bitki örtüyünə, köçəri quşlara bunca ziyan verməyiblər. Hazırda isə ərazilər gecə yarısı şumlanır, yolğun, yovşan, iydə və s bitkilər məhv edilir. Bu isə qışlaqlarda təkcə onların mal-heyvanlarının deyil, ərazilərdəki oxatan kirpi, dovşan və s. bu kimi heyvanların da ac qalmasına, bu heyvanları ovlayan tülkülərin, vəhşi quşların da populyasiyasının azalmasına gətirib çıxarır. Turac, bəzgək, ördək, qaz, durna və digər köçəri quşlar da Azərbaycan ərazisindən sıxışdırılıb çıxarılır. Lazalılar deyir ki, məmur-oliqarxlar onların istifadəsində olan qışlaqları pambıq əkmək adı ilə zəbt edir, faktiki isə yonca əkib satırlar. Onlara da məsləhət bilirlər ki, mal-heyvalarını tövlə şəraitində saxlasınlar. Yəni məmur-oliqarxların əkib satdığı yoncanı pulla alıb heyvandarlıqla məşğul olsunlar.

Lazalılar həyəcan təbili çalır, məmur-oliqarxların dayandırılması üçün müvafiq dövlət qurumlarını hərəkətə keçməyə çağırırlar.

❑ **"Yenì Müsavat"ın reportyor qrupu**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az



YENİ MÜSAVAT
N 199 (7088) 22 sentyabr 2018

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Azərbaycan Ordusunun sentyabr ayının 17-də başlayan 20 minlik genişmiqyaslı hərbi təlimləri bu gün yekunlaşır. 5 günlük təlimlərdə əsas hədəf torpaqlarımızın erməni işğalından azad edilməsi üçün daha konkret ssenarinin işlənməsi idi. Müdafiə Nazirliyindən verilən məlumatdan qənaət hasil olur ki, silahlı qüvvələrimiz qarşıya qoyulan bürün hədəflərə nail olub.**



Ordumuzun belə genişmiqyaslı, müharibə şəraitinə maksimum yaxınlaşdırılmış təlimləri Ermənistanın hazırkı rəhbərliyinin mövqeyi üzündən bir az da dalana girmiş sülh danışıqları fonunda xüsusilə önəmlidir. Bu, bir daha düşmənə açıq mesajdır ki, Azərbaycan sonsuzadək atəşkəs (işğal) rejiminə dözməyəcək və İrəvan Dağlıq Qarabağla bağlı tezliklə konstruktiv mövqe tutmasa, qanuni ərazilərimizi silah gücünə azad eləməli olacağıq. Ermənistan hökumətinə ən güclü təsir rıçaqı isə yenə Kremlin əlindədir.

*****

Bu mənada Rusiya prezidenti Vladimir Putinin gələn həftə Bakı və İrəvana edəcəyi səfərə müəyyən ümidlər bağlanır. Maraqlıdır ki, səfər ərəfəsində yenidən "5 rayon məsələsi" aktuallaşıb. Özü də bu haqda rusiyalı politoloqlar daha ucadan danışmağa başlayıblar.

Məsələn, "Milli müdafiə" nəşrinin baş redaktoru, Dünya Silah Ticarətinin Analiz Mərkəzinin rəhbəri, rusiyalı hərbi ekspert İqor Korotçenko deyib ki, Ermənistan dərhal işğal altındakı rayonların beşini Azərbaycana qaytarmalıdır (publika.az). "Bu kiminsə xoşuna gəlməyə bilər, lakin vəziyyət belədir", - deyə o qeyd edib.

**Onun sözlərinə görə, Qarabağla yanaşı, ətrafındakı rayonlar da işğal altındadır:** "Ermənilər bu əraziləri "təhlükəsizlik zonası" adlandırırlar. Bu faktı dəyişdirməyə heç kimin gücü çatmaz. Bu, Ermənistanın işğal etdiyi Azərbaycan ərazisidir".

Əlbəttə ki, Rusiyadan səslənən belə açıqlamalar bizim xeyrimizədir. Ancaq yaxşı olar ki, bu cür bəyanatlar Moskva rəsmilərinin dilindən də səslənsin. Əks halda Rusiyanın Qarabağla bağlı böyük sülh anlaşmasında maraqlı olduğuna inam yaranmayacaq.



# Qarabağa sülhü Rusiya, yoxsa Azərbaycan əsgəri gətirəcək?

## Siyasi şərhçilərdən maraqlı açıqlamalar; **amerikalı ekspert:** "Paşinyanın Bakıya münasibətdə təxribatçı ritorikası yersiz və aqressivdir..."

*****

**Əfsus ki, bir neçə ay öncə Ermənistanda hakimiyyətə gəlmiş yeni qüvvələr, Paşinyan hökuməti də Qarabağ ətrafında situasiyanı daha da gərginləşdirməklə məşğuldur. Bunu Qərb analitikləri də xüsusi vurğulamağa başlayıblar.**

"Nikol Paşinyanın rəhbərliyi altında Ermənistanın yeni hakimiyyətinin aqressiv davranışı ölkə daxilində situasiyanı idarə edilməzliyini gücləndirir, bütövlükdə Güney Qafqazda sabitliyə neqativ təsir edir". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə "Vestnik Kavkaza" nəşrinə açıqlamasında beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase Paşinyanın Qarabağa dair son bəyanatlarını şərh edərkən deyib.

**Onun sözlərinə görə, Paşinyanın Bakıya münasibətdə təxribatçı ritorikası yersiz və aqressivdir, yekun etibarilə Ermənistanın daxilində və onun hüdudlarında kənarda daha böyük xaosa və qarışıqlığa gətirəcək:** "Yeni İrəvanın xüsusən də xarici siyasəti qəribə təsiri bağışlayır. Bu siyasət Ermənistanın müttəfiqlərinin çevrəsini böyütmür, əksinə, daraldır. Azərbaycan isə özünün regional və beynəlxalq əlaqələrini möhkəmlədir".

**Politoloqa görə, baş nazir Nikol Paşinyan hər dəfə eyni güzəştsiz bəyanatlar verirkən Türkiyə prezidenti Ərdoğan Azərbaycanla dost, qarşılıqlı faydalı əlaqələri gücləndirir**. "Türkiyənin qazancı aydındır, nədən ki, o, həlledici qlobal oyunçuya çevrilir. Azərbaycanın uzunmüddətli xarici siyasət strategiyasının mühüm bir hissəsi Rusiya prezidenti Vladimir Putinin Bakıya sentyabrın 25-də edəcəyi səfər olacaq. Özü də bu zaman Azərbaycanın daxili regional diplomatiyanın dinamikası çərçivəsində prezident İlham Əliyevin Rusiya lideri ilı görüşü də daxil, bütün bu addımlarına ayrı-ayrılıqda baxılmalıdır", - deyə o qeyd edib.

**Amerikalı politoloqun dəyərləndirməsinə görə, Dağlıq Qarabağ konfliktinin nizamlanmasında həlledici vasitəçilik rolu hələ də Rusiyaya məxsusdur.** "Buna görə yeni İrəvanın aqressiv-təhqiredici ovqatdan konstruktiv məcraya qaytarılması yönündə addımları məhz Moskvadan gözləmək lazımdır. Rusiya erməni hökumətini öz silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmağa inandırmağa və beynəlxalq hüququn tələblərinə əməl eləməyə qadirdir", - deyə analitik sonda əlavə edib.

*Bəs Rusiya, Putin bunu edəcəkmi, nəhayət, əlində unikal şans ola-ola Qarabağla bağlı diplomatik həmlə üçün hərəkətə keçəcəkmi? Ümumiyyətlə, Dağlıq Qarabağa sülhü kim gətirəcək - Rusiya yoxsa Azərbaycan əsgəri?*

Putinin Bakı və İrəvan səfərindən sonra bu suallara əhəmiyyətli dərəcədə aydınlıq gələcəyi gözlənilir. Necə deyərlər, "ümid axırıncı ölür".

*****

**Azərbaycan ordusu isə günü bu gün torpaqlarımızı düşmən tapdağından azad eləməyə hazırdır.**

"Prezidentin çıxışında vurğuladığı kimi, Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bunun üçün münbit şərait artıq yetişib". Bu sözləri axar.az-a açıqlamasında **Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin sədri Eldar Namazov** deyib. O bildirib ki, Ermənistanda yeni hakimiyyət çox ağır durumdadır.

"Əslində Paşinyan hələ tam hakimiyyətə gələ bilməyib. Ölkənin parlamenti onun siyasi rəqiblərinin nəzarəti altındadır. Parlamentin dəstəyi olmadan hər hansı bir islahat paketini həyata keçirmək mümkün deyil. Paşinyan başa düşdü ki, artıq o, siyasi rəqibləri həbs edərək, korrupsiya, 1 mart hadisələri ilə bağlı məhkəmə proseslərini apararaq camaatın başını qata bilməyəcək. Ona görə də başqa bir yol seçib. Bunun üçün o, Qarabağ kartından maksimum səviyyədə istifadə etməyə başlayıb. Bu məsələ ilə bağlı çox sərt bəyanatlarla çıxış edir. Bu da dünyada tez-tez istifadə olunan üsuldur. Yəni Paşinyan xarici düşmən obrazını yaradıb xaricdən təhlükə olduğunu deyərək, cəmiyyəti daimi təzyiq altında saxlayaraq, modernizə etmək niyyətindədir", - deyə politoloq vurğulayıb.

**Onun sözlərinə görə, bu üsuldan əvvəlki erməni rəhbərləri də istifadə edib:** "Ancaq onlar daha hiyləgər və təcrübəli idilər. Onlar beynəlxalq ictimaiyyəti 20 ilə yaxın aldada bilirdilər ki, guya sülh danışıqları aparırlar. Azərbaycana beynəlxalq ictimaiyyəti erməni yalanlarını ifşa etməsi üçün təqribən 20 il vaxt lazım oldu. 4-5 il öncə isə beynəlxalq ictimaiyyət artıq Ermənistanın apardığı siyasəti anlamağa başladı. Hələ Serj Sərkisyan dövründə Minsk Qrupunun həmsədrləri hər il bəyanatlarında qeyd edirdilər ki, status-kvonu dəyişmək lazımdır. Bununla onlar ermənilərə mesaj verirdilər ki, siz yolunuzdan əl çəkməsəniz, bunun axırı müharibə olacaq. Azərbaycanın güc tətbiq edərək, torpaqlarını azad etməsinə beynəlxalq hüquq prinsiplərinə uyğun tam haqqı çatır. BMT-nin Nizamnaməsində də, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrində də bu öz əksini tapır. Sadəcə belə qərar vermək üçün təkcə beynəlxalq hüquq normaları deyil, eyni zamanda, siyasi amillər də nəzərə alınır".

**E.Namazova görə, Paşinyan istəyir ki, Qarabağ mövzusunu ortalığa atıb vaxt qazansın:** "Ancaq bunu o qədər təcrübəsiz edir ki, Ermənistanın özünü çox pis duruma salır. Əgər Sərkisyan və Köçəryan Qərbi sülh danışıqları apardıqlarına inandıra bilirdilərsə, Paşinyan bütün dünyaya bəyan edir ki, həmin işğal olunmuş 7 rayon da artıq Dağlıq Qarabağın ərazisindədir. Hətta Paşinyan öz çıxışlarında bildirir ki, Dağlıq Qarabağın gələcəyini Ermənistanın tərkibində görür. Bu, təkcə Azərbaycana qarşı deyil, eyni zamanda 20 ildən artıq Minsk Proseslərinə rəhbərlik edən həmsədrlərə, beynəlxalq qurumlara meydan oxumaqdır... Bundan sonra ağlı başında olan diplomat, beynəlxalq təşkilat rəhbəri Azərbaycana müharibə etməməsini deyə bilməyəcək. Artıq siyasi amillər də onu göstərir ki, Azərbaycan güc tətbiq etməklə torpaqlarını işğaldan azad edəcək. Bu missiyanı Paşinyan artıq öz üzərinə götürüb. O, bütün dünyanı inandırır ki, Azərbaycanın müharibə etməkdən başqa yolu yoxdur. Bunu da nəzərə almaq lazımdır ki, Ermənistan konflikt dövründə hələ indiyə qədər heç vaxt bu qədər zəif olmayıb. Azərbaycan Ordusunun gücü Aprel döyüşlərindən sonra sübuta yetirilib. Hesab edirəm ki, biz müharibə yolu ilə torpaqlarımızı azad etməyə artıq çox yaxınıq. Burada orta, ya da uzun gələcəkdən söhbət getmir. Yaxın zamanlarda bu addımı Azərbaycan atmalıdır".



## Ağ Ev Bakı və İrəvana Qarabağ çağırışı etdi - "Konfliktin həlli üçün..."

**"Qarşıdan gələn aylarda Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açılır". Report Ermənistan KİV-inə istinadən xəbər verir ki, bunu ABŞ Prezidenti Donald Tramp müstəqillik günü münasibətilə Ermənistanın baş naziri Nikol Paşinyana göndərdiyi məktubda bildirib.**

"ATƏT-in Minsk Qrupunun həmsədr dövləti kimi ABŞ münaqişənin uzunmüddətə dinc yolla həlli üçün sizinlə işləməyə hazırdır", - deyə Tramp vurğulayıb.

"ABŞ Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə sadiqdir və tərəfləri tezliklə intensiv danışıqları bərpa etməyə çağırır". Bunu isə ABŞ-ın dövlət katibi Maykl Pompeo bildirib.

O, Ermənistanın müstəqillik günü ilə bağlı müraciətində bu ölkədə baş verən son dəyişikliklərə də toxunub: "Demokratik institutların möhkəmlənməsi, korrusiyaya qarşı mübarizə və iqtisadiyyatın artımının tənzimlənməsində Ermənistan xalqı və hökumət ilə birgə fəaliyyət göstərəcəyimizi səbirsizliklə gözləyirik".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

Yeni Müsavat
N 199 (7088) 22 sentyabr 2018

**Xəbər verdiyimiz kimi, sentyabrın 18-də Rusiya və Türkiyə prezidentləri arasında İdlib mövzusunda anlaşma əldə edib. Putin və Ərdoğanın Soçidə 3 saatdan artıq davam edən danışıqlarından sonra tərəflər İdlibin taleyini, necə deyərlər, sülhə bağlayıblar.**



# İdlib anlaşmasına Amerika təhlükəsi

## Vaşinqtonun mövqeyi Suriyanın şimalının taleyini həll edəcək

Soçi anlaşması İdlibdə atəşkəsin qüvvəyə minməsini təsdiqləyib. Anlaşmaya əsasən, oktyabrın 10-dək silahlı müxaliflər raket sistemləri, top, tank kimi ağır silahları bölgədən çəkəcəklər. Oktyabrın 15-dək İdlibdə silahlılar və hökumət qüvvələri arasında 15-20 kilometr genişliyində silahsızlaşdırılmış bölgə yaradılacaq. Ən-Nusra, ya da yeni adı ilə "Heyət Tahrir əş-Şam" qruplaşması terror təşkilatı kimi tanındığı üçün silahsızlaşdırılmış bölgədən çıxaracaq. Silahsızlaşdırılmış bölgədə Rusiya və Türkiyə ordusu patrulları birgə hərəkət edəcək. Bu anlaşmaya əsasən hər iki tərəfin terrorçu kimi tanıdığı silahlılar silahsızlaşdırılmış bölgədən çıxarılacaq, onların bu bölgədə fəaliyyətləri yasaqlanacaq.

**Bununla da bir müddətdir hazırlanan hərbi əməliyyatlar ən azı bu mərhələdə təxirə düşüb.** Anlaşmanın ən mühüm detallarından biri də Hələb-Hama, oradan da Dəməşq və ölkənin cənub sərhədinə qədər gedib çıxan M-5 magistralının hökumət qüvvələrinin nəzarətinə keçməsi olub.

Ümumilikdə bu anlaşmanı Suriyada şiddətli müharibənin dayandırılması, iki böyük regional güc olaraq Suriyada əməkdaşlıq edən Türkiyə və Rusiya arasında əməkdaşlığın bərpa olunması, eləcə də Suriya hökumətinin ölkənin əsas şəhərləri arasında nəqliyyat bağını yenidən bərpa edə bilməsi baxımından mühüm irəliləyiş, Rusiya-Türkiyə əməkdaşlığını möhkəmləndirən bir addım olub.

**Maraqlıdır ki, İran da bu anlaşmanı dəstəkləyib.** Belə görünür ki, 3 dövlətin - Türkiyə-Rusiya-İranın Suriya üzərində ittifaqı yaranır. Bu, münaqişənin həlli istiqamətində mühüm irəliləyiş ola bilər. Çünki Türkiyə hazırda Suriyada əsas müxalif qüvvələrə təsir imkanı olan ölkədir, eyni zamanda Suriya ilə 900 kilometrlik sərhədinin olması, "Fırat Kalnakı" və "Zeytin Dalı" əməliyyatları ilə Türkiyə müəyyən qədər öz qqvvələrinin hesabına Suriyanın şimalında nüfuz dairəsini genişləndirə bilib. İran isə Hizbullah və İraqdan, eləcə də İran və Əfqanıstandan olan milis qüvvələri hesabına Suriyada ciddi gücə sahibdir. Yəni indiki şərtlərdə bu 3 ölkənin qəti iradəsi Suriyada böyük müharibənin başa çatması, sülhün əldə olunması istiqamətində ciddi addımın atılması üçün kifayətdir.

**Lakin ortada bir ABŞ gerçəkliyi var.** Hazırda Suriyanın 25 faizə qədər ərazisinə kürdlər, ya da başqa adla Suriya Demokratik Qüvvələri koalisiyası nəzarət edir. Təbii ki, onların da əsas dəstəkçisi ABŞ, Fransa və Böyük Britaniyadır (qismən - K.R.). ABŞ-ın Suriyada 20-dək bazasının olduğu ehtimal edilir. Onlardan yalnız biri müxaliflərin nəzarətində olan ət-Tənf hərbi aerodromudur, yerdə qalanlar kürdlərin, yeni SDQ-nin nəzarət etdiyi bölgədədir. Eləcə də fransızların kürdlərin bölgəsində 5-dək hərbi bazasının olduğu bildirilir. Bütün bunlarla yanaşı ABŞ və müttəfiq ölkələr kürdləri sürətlə silahlandırırlar. Əgər 2017-ci ilə qədər bu silahlar Vaşinqton tərəfindən İŞİD-ə qarşı mübarizə adı ilə verilirdisə, hazırda İŞİD-in Suriyada mövqeləri kəskin şəkildə zəifləməsinə baxmayaraq silah və texnika yardımları davam edir. Görünür ki, Qərb Suriyada kürdlərin İraqda olduğu kimi, ən azı muxtar bölgə olması və müstəqil güc mərkəzinə çevrilməsinə çalışır. Bu mənada indi Suriyada Türkiyə, Rusiya və İran ittifaqının qarşısında əsas maneə ABŞ-dır. Vaşinqton xeyli gücləndirdiyi kürdlər vasitəsilə Suriyada müharibəni yenidən alovlandıra, hətta İdlib atəşkəs anlaşmasını poza bilər. Çünki Vaşinqtonun körfəz ərəb ölkələri xətti ilə Suriyadakı cihadçı qruplara ciddi təsir imkanları var və bunların vasitəsilə Türkiyənin anlaşmada üzərinə götürdüyü öhdəliklərin icrasına mane ola bilər. Müxaliflər Soçi anlaşmasına riayət etməkdən imtina etsələr, İdlibdə yeni müharibənin başlaması qaçılmaz olacaq. Bu mənada indi Vaşinqton və ümumilikdə Qərbin hansı mövqeni tutacağı maraq doğurur.

**Məsələ ondadır ki, Vaşinqton 2013-cü ildə döyüş əməliyyatlarının sahədə Əsədin xeyrinə dəyişməsindən sonra Suriyada hakimiyyət dəyişikliyinə dəstəyi dayandırıb.** Bunu Vaşinqtonun Dəməşqdəki sonuncu səfiri Ford da ötən il bildirmişdi. Ancaq Vaşinqton Suriyanı tamamən tərk etməyib, "yatırımlarını" kürdlərə edir.

**Ancaq məsələ ondadır ki, kürdlər hazırda bölgənin 3 böyük dövləti - Rusiya, Türkiyə və İranla savaşmaq istəmirlər.** Bu səbəbdən də Bəşər Əsədin dialoq təklifinə kürd tərəfi tez-tələsik razılıq verdi. Çünki ötən ilin payızında İraqın şimalında kürdlərə qarşı əməliyyat göstərdi ki, region ölkələrinin birgə fəaliyyəti olsa, kürdlər üçün ciddi nəticələrə səbəb ola bilər. Bu səbəbdən də hələlik İdlib ətrafında müəyyən sakitlik müşahidə olunur. Ancaq hər şey qarşıdakı günlərdə, xüsusən də İdlib anlaşmasının birinci mərhələsinin tamamlanacağı 10 oktyabrda bəlli olacaq. Silahlı qruplar anlaşma öhdəliyini yerinə yetirməkdən imtina etsələr, regiuonda toqquşmaların yeni mərhələsi başlaya bilər.

❑ **K.RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# "Rusiya İranın nüvə silahı yaratmasına kömək edə bilər"

## Politoloq: "İran təkbaşına nüvə istehsal müəssisələri yarada bilməz, kənardan dəstək almalıdır"

**Xəbər verdiyimiz kimi, ABŞ-ın İranla "altılıq" ölkələri arasında imzalanmış nüvə anlaşmasından çıxmasından sonra Tehran yenidən nüvə fəaliyyətini bərpa etməyə qərar verib. Bu ilin mayında prezident Tramp İranla nüvə sazişindən çıxdıqdan sonra baş verib.**

İyunun 4-də Ayətullah Ruhullah Musəvi Xomeyninin vəfatının ildönümü ilə bağlı mərasimdə çıxışında dini lider Ayətullah Xameneyi hökuməti nüvə fəaliyyətini yenidən bərpa etməyə çağırıb. Ayətullah Əli Xameneyi ölkənin Nüvə Enerjisi Qurumuna mövcud nüvə anlaşması çərçivəsində 190 min sentrafuqa çatmaq üçün dərhal hazırlıqlara başlamağı tapşırıb.

Dini liderin çağırışından bir sutka sonra İran Atom Enerjisi Təşkilatının sədri Əli Əkbər Salehi medianın müşayiəti ilə Natanzdakı nüvə istehsalı mərkəzinə gedib. Salehi burada mediaya verdiyi açıqlamada deyib ki, qarşıdakı bir ay ərzində mərkəz tam gücü ilə istehsala başlayacaq.

Salehi deyib ki, artıq sentrafuq montaj salonları, rotor və digər təchizat qurğularının işlək vəziyyətə gətirilməsi üçün dəqiq testlər edilib. Eyni zamanda o, yeni uranı zənginləşdirmə mərkəzlərinin tikiləcəyini bildirib.



Əli Əkbər Salehi onu da bildirib ki, dini liderin tapşırdığı 190 min sentrafuqun alınması 10 ay vaxt tələb edəcək. Bunun üçün 6-cı nəsil sentrafuqlar montaj ediləcək və təxminən 60 min sentrafuq işə salınacaq. Bunun nəticəsində 10 ay ərzində 190 min sentrafuq alınacaq. Eyni zamanda o deyib ki, ildə 190 min sentrafuq üçün 300 ton urana ehtiyac var. Bu səbəbdən də İran Atom Enerjisi Təşkilatı uran tədarük etmək istiqamətində fəaliyyətini gücləndirəcək. Salehi deyib ki, Natanz nüvə mərkəzinin potensialının 1 milyon sentrafuqa çatdırılması üçün işlər görülür.

Bu günlərdə İran nüvə fəaliyyətini gücləndiriləcəyini bəyan edib. ABŞ və Rusiya arasında münasibətlərin daha da kəskinləşdiyi bir zamanda İranın nüvə fəaliyyətini sürətləndirməsi Tehran üçün əlavə imkanlar yaradır. Çünki ABŞ-Rusiya münasibətlərinin soyuması fonunda Moskva Yaxın Şərqdə əsas müttəfiqi olan İranın nüvə fəaliyyətini dəstəkləyə bilərmi?

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Rusiyanın daha əvvəl də belə bir təcrübəsi olub. Onun sözlərinə görə, Moskva Çin və Koreyada nüvə və ballistik silahların yaradılmasına dəstək verib: "Çin Xalq Respublikası və Koreya Demokratik Respublikası (Şimali Koreya - K.R.) uran saflaşdırılması və eləcə də ballistik raketlərin mühərriklərin hazırlanması işçində də fəal şəkildə iştirak edir. Məsələn, Rusiya nüvə bombasının layihəsini Amerikadan oğurlamasına baxmayaraq, özü nüvə istehsalına nail olduqdan sonra bu silahın Çində yaradılmasına yaxından köməklik göstərib. Şimali Koreya da uranın saflaşdırılması üçün də Rusiya lazımı köməyi edib, avadanlıqlar verib. Hətta bu yaxınlarda Şimali Koreyanın dənizə düşmüş raketin qalıqlarını tapıb çıxaran yaponlar onun motorunun Ukraynada istehsal olunduğunu görüblər. Sovet illərində ballistik raketlərin əksəriyyətinin mühərriki Ukraynada istehsal olunurdu".

**Q.Hüseynli Rusiyanın İrana da oxşar yardım etməsini mümkün sayır:** "İranla da oxşar əməkdaşlığın olmasına, İrana da rusların bu cür dəstək verməsini istisna etmirəm. İran özü təkbaşına nüvə istehsal müəssisələri yarada bilməz, kənardan dəstək almalıdır. Bu sahədə necə deyərlər, ən yaxşı "üzüyola" dövlət Rusiyadır. Rusiyanın bu məsələsə strateji, geostrateji maraqları üst-üstə düşür".

*Belə iddialar var ki, İran artıq gizli şəkildə nüvə silahı əldə edib. Bu nə qədər real bir iddiadır? Doğrudanmı bu qədər irəliləmə ola bilər?*

**Qabil Hüseynli deyir ki, bu mövzuda dəqiq məlumat olmasa da, şübhələr var:** "Hizbullahın lideri bu günlərdə bəyan etdi ki, İsraili məhv etmək üçün silahları var. İsraili yox edəcək silah isə nüvə silahı ola bilər. Nüvə silahının iki variantı var. Birincisi, təmiz saflaşdırılmış urandan istehsal olunan nüvə silahı. İkinci variant "çirkli nüvə silahı" deyilən, atom elektrik stansiyalarında yanacaq kimi istifadə olunmuş uranın qalıqlarının yanmış hissəsindən kustar üsulla hazırlanan nüvə silahı. Bu silahlar dağıdıcı gücə malik deyil, ancaq radioaktiv şüalanma yaya bilir. Hər halda Hizbullah bəyanatını təsadüf hesab etmək omaz, yəqin ki, nəyəsə əsaslanır".

❑ **KƏNAN, "Yeni Müsavat"**

# “Başımdakı 11 sm-lik şişi arı məhsulları ilə əritdim”

## Ölkənin baş arıçısı **Bədrəddin Həsrətov:** “Axırıncı dəfə ət nə vaxt yemişəm, yadımda deyil”

**“Maraqlı adam”**

**Onun haqqında çox eşitmişdim. Məşəqqətli həyat yaşamasından, zəhmətsevərliyindən, öz işinin bilicisi olmasından və min bir dərdin dərmanı olan bala, bal arısına sevgisindən. Odur ki, fürsət düşmüşkən həmsöhbət olmaq istədim. Bu söhbəti təqdim etməklə həm də istədim ki, insanlar çətinliklərlə başlayan həyatın necə bala çevrilməsinin şahidi olub heç zaman ruhdan düşməsinlər, hədəflərinə doğru inamla irəliləsinlər.**

Elə onun sevimli məkanında - “Bal evi”ndə görüşdük. Çobanlıqdan başlayan həyatından, balın faydasından tutmuş, perspektiv planlarına qədər danışdı. İstəyir ki, ölkəmizdə qadın arıçılığının inkişafına nail olsun. Müsahibimiz Qax rayonu, Ləkit kənd sakini, Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətovdur.

***- Bədrəddin bəy, eşitdiyimizə görə, siz bu təsərrüfatı qurana qədər çox ağır həyat yaşamısınız. Bəlkə söhbətimizi o illərdən başlayaq.***

- Mən çoxuşaqlı ailədə böyümüşəm. Baxmayaraq ki, hamı kənddə, kolxozda işləyirdi, amma yenə də ağır həyat idi. Atam kolxozda çoban idi, mən də uşaqlığımdan çobanlıq edirdim, kolxozun qoyununu otarırdım. 2 minə yaxın qoyun idi. Əmim də briqadir idi. Ovaxtkı bizim əyin-başımızla, məktəbə getməyimizlə indiki vəziyyəti müqayisə edirəm, tamam fərqlidir. Sovetlər dönəmi heç vaxt mənim xatirəmdə yaxşı iz buraxmayıb. Çox arzularım ürəyimdə qalıb, təhsil ala bilməmişəm, maddi vəziyyətim buna imkan verməyib. Mən 10-cu sinfi bitirəndə “Son zəng”ə yamaqlı şalvarda getmişdim. O da yadımdadır ki, şalvarımın arxasında tapança kimi bir yamaq var idi. Son imtahanı verdim və yenə çobanlığa getdim, qoyun otardım. Bizim İlusu kəndinin üstündə bir dağ var - Daşuçandı adı. Mən o dağda qoyun otarırdım. Duzumuz qurtarmışdı. Atla düşdüm kəndə ki, duz alım. Orda mənə dedilər ki, “povestka” gəlib, sən əsgər getməlisən. 1983-cü iliydi. Mən o vaxt 20 yaşındaydım. Heç xidmət yadıma düşmürdü, bəlkə mən də kiminsə yadına düşməmişdim. (gülür)

***- Ailədə neçə bacı-qardaşsınız?***

- 12 bacı-qardaş olmuşuq. 8 bacı, 4 qardaş. Mən övladlar arasında axırdan ikinciydim. Atamın birinci ailəsi olub. Yoldaşı dünyasını dəyişəndə körpə qız uşağı yetim qalıb və atam o uşağı Gəncədə uşaq evinə verib. Təəssüflər olsun ki, bu günə qədər həmin uşaqdan xəbər öyrənə bilməmişik. Böyük bacılarım daha çox axtarırlar. “Səni axtarıram”a da gediblər.

***- Adı necədir? Bəlkə qəzetimiz yardımçı oldu...***

- Adı İnnakə olub. Quranda belə bir ifadə var. Atam dindar idi. Mənim adımı da Qurandan götürüb-"bədirlənmiş Ay" mənasını verir. Amma bildiyimizə görə, bacımın ovaxtkı adı qalmayıb. Atam rəhmətlik tez-tez baş çəkərmiş. Ancaq uşaq evinin yeri dəyişiləndən sonra qızını itirib. Səhv etmirəmsə, 1956-57-ci illərdə olub.

***- Əsgərliyiniz harada keçib?***

- Əvvəl SSRİ-nin ən cənub nöqtəsi olan Kuşka şəhərində, Əfqanıstanla sərhəddə oldum. Sonra bizi ordan Əfqanıstana, Herata apardılar. Əsgərliyi də orda başa vurdum. Qayıdandan sonra 5-10 gün evdə qaldım və təzədən getdim qoyun otarmağa.

***- Maaş alırdınız?***

- Çox az, 50-60 manat. Yemək üçün də çobanlara hər ay 2-3 heyvan verirdilər, kəsirdik. Bir də 40-50 şəxsi qoyununu saxlaya bilərdin. Düzü, olduqca ağır həyat idi. Həmişə çöllərdə, yağış, dolu, qar, günəş altında. Amma insan uyğunlaşır. Uşaqlıqdan qoyun otarmışam, amma peşəkarcasına 6 il çobanlıq etmişəm.

***- Başqa iş-güc sizi özünə doğru çəkmirdi? Necə oldu arıçılığa başladınız?***

- Çəksə də, çəkməsə də, atamın ağsaqqal sözü var idi. Dedi çomağın qalıb orda, götür, get, işinlə məşğul ol! (gülümsünür) Bir dəfə qışlaqdaydıq - Gürcüstanla sərhəddə, Alazan çayının vadisində. Orda Minbərək deyilən bir yer var. May ayı idi. Ümumiyyətlə, mütaliə etməyi çox xoşlayıram, hər gün nə isə oxuyuram. Qoyun yamacda otlayır, mən də kitab oxuyurdum. Başımı qaldırdım ki, Saqqız ağacının koğuşuna bal arısı işləyir. O ağac Alazan vadisində olur, saqqız axırdı ağacdan. Biz ağacı çərtirdik, ordan saqqız axırdı. Yığırdıq, süddə qaynadırdıq, qəşəng saqqız düzəldirdik. Həm də mədədəki problemlərin dərmanı idi... Nə isə, yaxınlaşıb diqqətlə baxmağa başladım ki, görüm bunlar necə həyat yaşayırlar? İlk dəfəydi belə mənzərə ilə rastlaşırdım. Hər gün ona baxırdım. Bir dəfə çobanlara danışdım, dedilər içində bal olacaq, gedək, kəsək. Dedim yox, mən ona baxıb həzz alıram. Bir növ doğmalaşmışdım onlarla. Onda evlə ancaq məktub vasitəsilə əlaqə saxlayırdıq. Kolxoz maşınları gəlib-gedirdi. Məktub yazdım yaxın bir qohumuma ki, mənə arıya aid kitab göndər. Mənim binədə kitabxanam var idi hətta. Kitab oxumaqdan həzz alırdım. Hətta olub ki, kitaba başım qarışıb, sürüyə canavar soxulub (gülür). Çox vaxt kitabları arxa çantamda, ya çöldə gizlədirdim. Çünki əmim hirslənirdi, bəzən vururdu ki, kitab oxumusan, sürü itib. Məktub yazdım, Qulamhüseyn Sultanovun “Arıçılıq haqqında söhbətlər” kitabını göndərdilər. Onu bir neçə dəfə oxudum. Sonra yenə kitab istədim. Bu dəfə rus dilində “Uçebnik pçelovoda”nı (“Arıçılıq dərsliyi”) yolladılar. Daha dərin kitab idi. Mən arının patologiyasına qədər hər tərəfini öyrənməyə başladım və qərar verdim ki, arıçı olacağam.

***- Saqqız ailəsindəki arının taleyi necə oldu?***

- Dəymədim. Heç balını da kəsmədim. Təzədən yaylağa, İlusu yuxarısındakı dağa köçdük. Bizə ayda bir həftəlik istirahət verirdilər.

***- Amma təhsil ardınca getmədiniz. Niyə?***

- Attestatda mənim 3 dənə “4"üm var idi, qalanı "5" idi. Ali təhsil almağa imkan yox idi. Atam qabağımda oturtdu, dedi ki, təhsil almağa getsən, sənə aybaay pul göndərə bilməyəcəyəm. Çünki onda bacım universitetdə oxuyurdu, ancaq ona pul çatdırmaq mümkün idi. Beləcə, ali təhsil almadım.

***- Rəhbərlik etdiyiniz Arıçılıq Assosiasiyasından danışaq. Nə qədər arıçı var?***

- 5 minə yaxın. 2015-ci ildə təsis etdim. Niyyət yığıncağı oldu, bir il sonra isə təsis toplantısını keçirdik və sənədləri qeydiyyata verdik. 9 aydan sonra qeydiyyata alındıq. Ucqar kəndlərdə yaşayan balçıları bir yerə cəmləmək heç də asan başa gəlmədi. Biz 45 rayonda, 4 şəhərdə birliklər yaratdıq. Buna qədər rayonlardakı arıçılarla danışıqlar apardıq, tədbirlər keçirdik.

***- Təbii ki, arıçıları bir təşkilatda toplamaq asan deyil. Amma arıları bir yerə yığıb böyük bir təsərrüfat yaratmaq daha çətin işdir. Əvvəl neçə arı ailəsi ilə işə başlamışdınız?***

- Düzü, mən arıçı olmaq üçün çox çalışdım. Hətta evdən çıxıb Rusiyaya getdim. Bir az Moskvada qaldım, sonra İvanovaya, Pestyaki rayonunun Nijniy Landex kəndinə getdim. Orda “Mir” sovxozu var idi, direktoru da çeçen, Berxan Mecidoviç. Qapısını döydüm, dedim Azərbaycandan gəlmişəm, arıçılıqda köməkçi kimi işləmək, öyrənmək istəyirəm. Dedi ordan bura gəlmisən, arıçılıqda maaş yoxdur. Burda böyük bir mal ferması var, gəl, səni ora ferma müdiri təyin edim. Dedim yox, mən arıçılıqla məşğul olmaq üçün qaçıb bura gəlmişəm. Bir qadın briqadir var idi, Tatyana Nikolayevna, ona dedi bunu qeydə al, köməkçi işinə götür. Sevinirdim ki, arıçılığa qovuşmuşam. (gülür) 1 il köməkçi işlədim, daha bir il arıçı oldum. Sonrakı 4 ildə isə sovxozun baş arıçısı idim. Orda 12 min arı ailəsi var idi.

***- Sonra qayıtdınız vətənə?***

- 1992-ci ildə anam ağır xəstə idi. Gəldim, qaldım burda. İqtisadiyyatın ağır vaxtı idi. Pulum da yox idi ki, arı alım. “Azərittifaq”ın yardımçı təsərrüfatında işlədim. Bu dəfə onların qoyunlarını otardım. Təxminən 3 ilə yaxın onların qoyununu otardım. 365 günün hər birini. Amma işlədiyim yeri arıçılıq üçün uyğun görürdüm. O dövrdə özəlləşmə prosesi başlamışdı. Müdiriyyətə deyirdim ki, mən bu yerləri alıb arıçılıq mərkəzi yaradacağam. Müdir deyirdi “get, qoyununu otar, sənlik deyil, buranı almaq üçün çox pul lazımdır. Sənin maaşınla bu, mümkün deyil”. Cüzi maaş alırdım, ailə həyatı başlamışdı, 2 uşaq var idi, ancaq onların çörəyini qazana bilirdim. Amma sonra buranın cüzi bir hissəsini borc-xərclə aldım. Yaşamaq üçün balaca bir yer tikdik və burda möhkəmlənməyə başladıq. Niyyət, çox güclü istək var idi ki, mən bu mərkəzi yaradacağam. Özü də baxırdım əraziyə, harda nəyi quracağımı planlaşdırırdım. Hətta biznes-plan hazırlamışdım. Evdə səhər yeməyə çörəyimiz yox idi, həyat yoldaşım gəlib deyirdi çörək bişirməyə un yoxdur, amma mən oturub 1 milyonluq biznes-plan yazırdım. Elə vaxt olurdu işıqpulunu verə bilmirdik, işığımızı kəsirdilər. Çox ağır idi. Düzünü desəm, heç uşaqlara gündə üç dəfə yemək verə bilmirdik, yeməyin birini ixtisara salırdıq. Allaha şükür ki, sağlam böyüdülər.

***- Onlar da sizin əlinizdən çomağı yox, arıçılığı aldılar...***

- (Gülərək) Hə. Uşaqlar elə körpəliyindən arıxanada böyüdülər, elə gözlərini açanda arı gördülər. Böyük oğlum əsgərlikdə oldu, xüsusi təyinatlılarda xidmət edirdi. Bir dəfə mənə zəng etdi ki, istəyirəm buranın ali məktəbini oxuyum. Dedim xeyirli olsun! Bir həftə sonra təkrar zəng elədi ki, nə qədər fikirləşirəm, başıma arıdan başqa heç nə girmir. Hazırlaşdı, Türkiyədə Muğlo Universitetinə qəbul oldu, indi bitirib, təsərrüfatda çalışır. Gələn il İzmirdə arıçılıq üzrə magistr təhsili almaq istəyir. Kiçik oğlum da Muğla Universitetinin arıçılığını oxuyur, gələn il bitirəcək. Mənə elə gəlir ki, onlar daha mükəmməl arıçılar olacaq. Amma mən də hər gün öz üzərimdə çalışıram, araşdırıram, yenilikləri öyrənirəm. Arıçılıq elə bir sahədir ki, elmlə təcrübə bir yerdə olmayanda nəticə əldə etmək mümkün olmur.

***- Kənd Təsərrüfatı Nazirliyi, yeni komanda ilə əlaqələriniz necədir? Bir sahibkar olaraq yeni nazir İnam Kərimova münasibətiniz maraqlıdır.***

- Elə bil münasibət dəyişib, qapılar üzümüzə açılıb, nəyi təklif ediriksə, qəbul edirlər. Bu, bizə yuxu kimi gəlir. Biz bu yaxınlarda nazir İnam Kərimovla görüşdük. Mən ona da dedim ki, arıçılığın Azərbaycanda inkişafı üç ayağının üstündə dayanmalıdır. Birincisi, elm mütləq bu işə gücünü qoymalıdır. İkincisi, dövlət bu prosesin içində olmalı, işə maraq göstərməlidir. Üçüncüsü, burada assosiasiya, birlik olmalıdır. Biz bunu bacarsaq, Azərbaycanı bal idxal edən ölkədən bal ixrac edən ölkəyə çevirəcəyik. Azərbaycanda “Arıçılığın inkişaf proqramı”nı hazırlamışıq, əyər-əskiyini düzəldirik.

*****

***- Xanımınız da arıçılıqla məşğuldur?***

- Evdə hamı bu işlə məşğul olur. Biz baldan başqa, digər arı məhsulları da yığırıq. Propolis - bərəmum da deyirlər verərmum da, mum güvəsi, arının qurusudur. Ölmüş arıları yığıb qurudururuq, onlardan bəzi cövhərlər, kremlər hazırlayırıq. Xalq təbabətində geniş istifadə olunan şeylərdir. Arıdan çiçək tozu alırıq, arının südünü yığırıq. Arının 14 adda məhsulu var, onun 4-ü qablaşmır, digərləri qablaşır. Biz onları yığırıq, adi vətəndaşlar, həkimlər alır.

***- Hansı faydaları var?***

- Arı məhsullarının orqanizmdəki bütün proseslərə köməyi var. Maddələr mübadiləsini, qan dövranını yaxşılaşdırmaq üçün, göbələk xəstəliklərinə qarşı, orqanizmin tonusunu artırmaq, damarlardan trombların təmizlənməsi üçün arı məhsullarından istifadə olunur. Arı məhsulları ümumi balansı qoruyur. Hüceyrələrin ölməsini azaldır, çoxalmaya müsbət təsir edir, mikrofloranı yaxşılaşdırır. 2000-ci illərin əvvəllərində mənim başımda 11 sm-lik şiş tapıldı. Qaxda arıçılarla toplantıda huşumu itirdim, yıxıldım. Bakıya gətirdilər, iki il onkologiyanın qapılarını döydüm. Elə vəziyyətə düşdüm ki, stulda otura bilmirdim, bir dəri-bir sümük qalmışdım. İşıq, səs pis təsir edirdi. Görməmi itirmişdim. Sonra tibb sahəsini araşdırmağa başladım. Həkimlərlə söhbət edəndə deyirlər, nə vaxt tibbi bitiribsən? Arı məhsulları ilə şişi əritdim. İndi 2 sm qalıb. Bu gün futbol oynayıram, təyyarə ilə 7 saatlıq uçuşlar edirəm, Çinin şimalına-Xarbinə kimi gedib çıxmışam. Çinə 4 saata uçdum, amma Urumçidən Xarbindən 7,5 saata çatdım. Özü də iynə-dərman qəbul etməmişəm. Hərdənbir tomoqrafiya olunuram.



***- 59 yaşınız olsa da, maşallah olsun, bu yaşı vermək olmur. Yəqin cavan qalmağın sirri də sizdədir. Maraqlıdır, “bal içində üzən adam”ın şəkərə, qənd-şokolada münasibəti necədir?***

- (gülür) Heç vaxt istifadə etmirəm. Çörək yemirəm. Ət təsadüf hallarda yeyirəm, az miqdarda. Axırıncı dəfə ət nə vaxt yemişəm, yadımda deyil. Hərdən balıq əti yeyirəm.

***- Bəs, nə ilə qidalanırsınız?***

- Düyü, qarabaşaq, meyvə. Bax, iki alma yemişəm, o mənim səhər yeməyim olub. Axşam xiyar-pomidor, pendir yemişəm. Özümü də yaxşı hiss edirəm. Hər səhər bal şərbəti içirəm, bu, “olmazsa, olmazdır”.

**P.S.** *Müsahibənin geniş variantını Musavat.com-da oxuya bilərsiniz.*

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

## Bakıda qadın və azyaşlılara qarşı əxlaqsız hərəkətlər edən şəxs saxlanıldı

**Xətai rayon Polis idarəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində rayon ərazisində yetkinlik yaşına çatmayan bir qıza qarşı əxlaqsız hərəkətlər etməkdə şübhəli bilinən paytaxt sakini Rauf Süleymanov saxlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Musavat.com-a bildirilib ki, araşdırma zamanı məlum olub ki, saxlanılan şəxs, əsasən, səhər saatlarında azyaşlılara və qadınlara hücum edərək onlara qarşı əxlaqsız hərəkətlər edib. R.Süleymanov ifadəsində Xətai, eləcə də ətraf rayonların ərazisində 30-a yaxın şəxsə qarşı bu cür hərəkətlər etdiyini bildirib.

**Faktla bağlı Xətai rayon Polis idarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 153.2 (əxlaqsız hərəkətlər, eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb. R.Süleymanovun əməllərindən zərərçəkən və hələ də polisə müraciət etməyən başqa şəxslər varsa, bu barədə Daxili İşlər Nazirliyinin "102" Zəng Mərkəzinə və ya Xətai rayon Polis idarəsinə məlumat verə bilərlər.**

❑ **Musavat.com**

## Bakıda soyunduraraq döydükləri şəxsdən pul alan dəstə hakim qarşısında: "Namus üçün..." - Təfərrüat

**Bakıda tanıdıqları şəxsi soyundurub döyərək şəxsiyyətini alçatmaqda və daha sonra ondan pul tələb etməkdə ittiham edilən şəxslər hakim qarşısına çıxarılıblar. Məlum olub ki, həmin şəxslər zərərçəkmişi soyundurduqdan sonra onun telefonla çəkərək görüntüləri özlərində saxlayıblar. Daha sonra həmin görüntülərlə zərərçəkmiş şantaj edərək dəfələrlə ondan pul tələb ediblər.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda və hədə-qorxu ilə tələb etmədə təqsirləndirilən Zeynal Hüseynov, Rəşad Sultanov, Həsənbala Həsənov və Dəyanət Abdullayevin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.

Hakim Azər Paşayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında şahidlər ifadə verib. İlk şahid Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin əməkdaşı, polis mayoru Hətəm Əliyev olub. Hətəm Əliyev təqsirləndirilən şəxslərin saxlanılması üçün keçirilən əməliyyata rəhbərlik edib. Polis mayoru söyləyib ki, Toğrul adlı şəxs idarəyə yaxınlaşaraq 4 nəfərin onu lüt soyunduraraq döydüyünü və pul tələb etdiyini bildirib:

**"Toğrul adlı şəxs bildirdi ki, ondan dəfələrlə pul alıblar. Biz bunu rəhbərliyə məruzə etdik və əməliyyat qrupu yaradıldı. Toğrula 400 dollar verdik və növbəti dəfə qrupun üzvləri ilə görüşməsini istədik. Onlar arasında növbəti görüş təyin edildi. Toğrul kafedə onlarla görüşən zaman bizə mesaj yazdı ki, artıq gəliblər. Pulu onlara verəndən sonra biz əməliyyat keçirdik. Özümüzü təqdim etdik və üzərlərində olanları bizə təqdim etmələrini istədik. Pulu öz aralarında bölmüşdülər. Üzərlərinə baxış zamanı bizim Toğrula təqdim etdiyimiz 400 dollar aşkar edildi. Həsənbalada və Rəşadda 100 dollar, Zeynalda isə 200 dollar var idi. Hal şahidlərinin iştirakı ilə protokol tərtib edildi".**

Polis mayoru deyib ki, Toğrul şikayətində qruplaşma üzvlərinin onu rüsvay edəcəyi ilə bağlı hədələyib və yaşadıqları Yasamal rayonu ərazisində biabır edəcəklərini deyiblər: "Toğrul dedi ki, onu aldadaraq Dəyanətin evinə aparıblar. Orada onu videoya çəkmişdilər. Həmin görüntü cinayət işi materiallarında var".



Təqsirləndirilənlərdən Dəyanət Abdullayev deyilənlərlə razılaşmayıb. O bildirib ki, qruplaşma ilə heç bir əlaqəsi olmayıb və əməliyyatda da orada olmayıb: **"Mən heç kimdən pul istəməmişəm. Zərərçəkmiş də gəlsin bunu desin. Burda bizi bədbəxt edirlər".** Polis əməkdaşı əlavə edib ki, Toğrul adlı şəxs soyundurulub döyülərkən onu videoya lentə alan şəxs Dəyanət olub.

Digər təqsirləndirilən şəxslər də şahidin dedikləri ilə razılaşmayıblar. Onlar bildiriblər ki, onlar əməliyyatla saxlanılmayıblar. Müttəhimlər əlavə ediblər ki, Toğruldan pul almayıblar və saxlanılan zaman ciblərində pul olmayıb. Məhkəmə iclasında əməliyyatda iştirak edən polis əməkdaşları Emin Səfərov və Fərid Kazımov da ifadə verib. Onlar digər polis əməkdaşı kimi eyni məzmunlu ifadə veriblər. Bu zaman yenə də şahidlər təqsirləndirilən şəxslər arasında mübahisə yaranıb.

Məhkəmədə hal şahidi Hüseynağa Məmmədov da ifadə verib. Təqsirləndirilən şəxslər hal şahidinin də yalan danışdığını deyib. Məhkəmədə məlum olub ki, təqsirləndirilən şəxslər zərərçəkmiş Toğrul adlı şəxsi döymələrini, hadisəni videolentə almalarını inkar etmirlər.

Dəyanət Abdullayevin dediyi fikirdən isə hadisənin namus cinayəti olması ilə bağlı ehtimal yaranır. Çünki Dəyanət məhkəmədə deyib ki, bu işi namus üçün edib: **"Mən telefonla çəkmişəm. Bu addımı da namus üçün atmışam".**

Məhkəmə iclasında zərərçəkmiş şəxs iştirak etməyib. Digər şahidlər də gəlmədiyindən məhkəmə iclası sentyabrın 28-nə təxirə salınıb.

Qeyd edək ki, təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 181-ci (quldurluq) və 182-ci (hədə-qorxu ilə tələb etmə) maddələri ilə ittiham edilirlər.

❑ **İlkin MURADOV, Musavat.com**




## Azərbaycanın ən sürətli mobil şəbəkəsinin adı açıqlandı

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb.**

**Şirkət 2018-ci ilin I və II rübü üzrə nüfuzlu "Ən sürətli mobil şəbəkə üzrə Speedtest mükafatı"nın qalibi olub. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "Bakcell"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib.**

**Sınaq müddəti ərzində "Ookla" şirkəti ölkədə ən sürətli mobil şəbəkəni müəyyən etmək məqsədilə Azərbaycanın bütün mobil operatorlarının abunəçiləri tərəfindən iOS və Android platformalarında çalışan cihazlardan "Speedtest" mobil əlavəsi vasitəsilə həyata keçirilmiş sınaqları müqayisə edib. Nəticələrə əsasən, "Bakcell" şəbəkəsi bütün ölçülən kateqoriyalar üzrə ən yüksək "Speedtest" ballarını toplayıb. Bununla da təsdiq edilib ki, "Bakcell" şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. Mobil şəbəkələrin sınaq və təhlili sahəsində dünyanın ən nüfuzlu qurumu tərəfindən toplanmış bu məlumat Azərbaycandakı istifadəçilərin 18 000 ayrı-ayrı unikal cihaz vasitəsilə həyata keçirilmiş 80 000 sınaq (Speedtest platforması üzərindən) əsasında formalaşıb.**

**"Biz qürur duyuruq ki, şəbəkə sınaqları və təhlili sahəsində dünya lideri tərəfindən şəbəkəmizin üstünlüyü bir daha da təsdiq edilib. "Bakcell" şəbəkəsi ölkənin mobil telekommunikasiya bazarında ən sürətli şəbəkədir və biz çox sevinirik ki, zəhmətimiz və gördüyümüz işlər abunəçilərimizə rahatlıq və məmnunluq gətirməkdədir. Bu liderliyi qorumaq və xidmətlərimizi daha da təkmilləşdirmək üçün əlimizdən gələni edirik. "Bakcell" bundan sonra da bazarda ən üstün və ən sürətli mobil şəbəkə ilə yanaşı ən innovativ və misilsiz müştəri təcrübəsini öz abunəçilərin ixtiyarına verməyə davam edəcək", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**Qeyd edək ki, sınaq müddəti ərzində hər üç yerli mobil operatorun nəticələri müqayisə olunub və "Bakcell" şirkəti LTE funksiyalı cihazlarda orta yükləmə sürəti 31.95 Mbps, orta məlumat göndərmə sürəti isə 11.75 Mbps olmaqla ümumi 27.93 bal (Speed ScoreH) toplayaraq ölkədə ƏN SÜRƏTLİ mobil şəbəkə adını qazanıb.**

**"Speedtest Intellingence" məlumatları veb və mobil "Speedtest" platformaları vasitəsilə milyonlarla abunəçi tərəfindən aparılmış sınaqlar vasitəsilə əldə olunur. Azərbaycanın bütün provayderləri üzrə məlumatlar ölkə ərazisində aparılan sınaqlara əsaslanaraq "Speedtest Intellingence"də öz əksini tapır. Biz təsdiq edirik ki, həmin nəticələr "Bakcell"in "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" olmasının bariz göstəricisidir. Bizim metodologiyalarımız bütün dünyada telekommunikasiya sənayesinin standartı kimi qəbul olunur və bununla da biz Bakcell şirkətinin bu mükafata tam layıq olmasını bir daha təsdiq edir və Azərbaycanın ən sürətli mobil şəbəkəsi statusunu qazanması münasibətilə "Bakcell" şirkətini təbrik edirik" deyə Ookla şirkətinin baş direktoru Douq Suttles bildirib.**

**Speedtest.net - İnternetdən istifadə üzrə bağlantı sürəti və gecikmə müddəti kimi əmsalların pulsuz təhlilini həyata keçirən veb xidmətdir. Bu xidmət Ookla şirkəti tərəfindən 2006-cı ildən pulsuz olaraq göstərilir. Bu günə qədər 21 milyarddan artıq sınaq ilə Ookla məlumatları dünyanın bütün ölkələrini əhatə edir. Ookla şirkətinin "Speedtest" mobil əlavəsi Google Play Store və App Store mobil dükanlarından 100 milyon dəfədən çox yüklənib.**

**7000-dən artıq baza stansiyası vasitəsilə "Bakcell" şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə ("Best in Test") adına layiq görülüb.**

## "Qapıya gəlib ana-bacı söyüşü söydü" - boğuşan itlərə görə adam öldürən 22 yaşlı çobanın işi

**Şamaxıdakı dəhşətli qətlə görə həbs edilən şəxs hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə ittiham edilən Natiq Binyətovun cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib. Hakim Azər Paşayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında dövlət ittihamçısı ittiham aktını elan edib.**

Natiq Binyətov elan edilmiş ittihamla özünü qismən təqsirli bildiyini deyib. O bildirib ki, günah ölən şəxsdə olub. Binyətov mərhumu xüsusi amansızlıqla öldürmədiyini deyib. Sərbəst ifadə verən Binyətov söyləyib ki, qətlə yetirdiyi şəxs də onların yaşadığı kəndə gələrək heyvandarlıqla məşğul olub. O bildirib ki, qətli törətməsinə səbəb mərhumun içkili olması və söyüş söyməsi olub.

"Qapıya gəlib ana-bacı söyüşü söydü. 3-4 dəfə təkrar edəndə mən də onu vurdum", - deyə Binyətov qeyd edib.

Suallara cavab verən Binyətov mərhumun itinə, qoyununa daş atmadığını, ona söyüş söymədiyini deyib.

Prokurorun suallarından məlum olub ki, Natiqin qardaşı ilə mərhum arasında daha əvvəllər mübahisələr olub. Sonuncu mübahisədə Natiq də orada olub və qardaşının döyüldüyünü eşidib. Növbəti mübahisədə isə qanlı cinayət baş verib.

Prosesin davamında təqsirləndirilənin atası Şirinbala Binyətov ifadə verib. O da oğlunun cinayəti söyüş üstündə törətdiyini deyib. Şahid söyləyib ki, mərhum Zaur Hacıyev sonuncu dəfə onların qapısına gələndə arvadı da yanında olub. Suallara cavab verən Şirinbala Binyətov mübahisənin it üstündə başladığını söyləyib.

Anket məlumatlarında yazılır ki, 22 yaşlı Natiq subaydır, ilk dəfədir cinayət əməli törədib. O, orta məktəbi 4-cü sinfə qədər oxuduğunu, yaşadığı rayonda təsərrüfatla məşğul olduğunu, çobanlıq etdiyini söyləyib.

Məhkəmənin baxış iclası sentyabrın 22-nə təyin edilib.

Hadisə rayonun Acıdərə yaşayış massivində baş verib. Çobanlıqla məşğul olan, rayonun Quşçu kənd sakini, 1980-cı il təvəllüdlü Zaur Seyidağa oğlu Hacıyev qonşusu, 1996-cı il təvəllüdlü Natiq Şirinbala oğlu Binyətov tərəfindən ov tüfəngi ilə qətlə yetirilib. İlkin məlumata görə qətlə yetirilən çoban Zaur Hacıyevin iti Natiq Binyətovun itini parçalayaraq öldürüb.

Bunu görən Natiq Binyətov da Zaur Hacıyevin yaşadığı evə gedərək ov tüfəngi ilə onun itini öldürüb.

Sonradan hər iki çobanın arasında mübahisə yaranıb və Natiq Binyətov özü ilə gətirdiyi ov tüfəngi ilə Zaura 7 dəfə atəş açıb. Zaur Hacıyev hadisə yerində ölüb.

N.Binyətov hadisə yerindən qaçsa da polis əməkdaşları tərəfindən saxlanılıb. O, Cinayət Məcəlləsinin 120.2.4-cü maddəsi ilə (xuliqanlıq niyyəti ilə qəsdən adam öldürmə) maddəsi ilə ittiham edilir.

❑ **İlkin MURADOV, Musavat.com**

## "Nar"dan tələbələrə təqaüd proqramı




**Özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində təhsil və maariflənmənin inkişafına xüsusi önəm verən "Nar" bu təşəbbüsü ilə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə davam edir. Elm və təhsilin inkişafına dəstəyilə seçilən "Nar" bu il Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan tələbələr üçün Təqaüd proqramı elan edib. Proqram çərçivəsində 2018-2019-cu tədris ilində 5 tələbəyə aylıq təqaüd veriləcək. Təqaüd proqramı, ilkin olaraq, Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Gələcəkdə digər bölgələr və paytaxt Bakı universitetlərinin tələbələri üçün də aylıq təqaüdün verilməsi planlaşdırılır.**

**"Nar" təhsil və maariflənmənin inkişafına yönəlik KSM strategiyası çərçivəsində təhsil müəssisələri və müvafiq qurumlarla tərəfdaşlıq münasibətləri qurur, tələbələr üçün həvəsləndirici aksiyalar keçirir, müxtəlif bilik müsabiqələri və intellektual yarışların sponsoru qismində çıxış edir. KSM strategiyası çərçivəsində "Nar" həmçinin fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyası edilməsi istiqamətində müxtəlif uğurlu layihələr həyata keçirir.**

**"Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az ttp://www.nar.az internet səhifəsindən öyrənmək mümkündür.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.**

YENİ MÜSAVAT
N 197 (7086) 20 sentyabr 2018

# Sumqayıtda qadınların qəniminə çevrilmiş şəxs yaxalandı



**Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşları tərəfindən keçirilən uğurlu əməliyyat tədbiri nəticəsində şəhər ərazisində silsilə soyğunçuluq cinayətləri edən şəxs ifşa edilib. DİN-dən virtualaz.org-a verilən məlumata görə, sentyabrın 15-də idarəyə müraciət edən Sumqayıt şəhər sakini olan bir qadın 5-ci mikrorayon ərazisində ağaclıq sahədə naməlum şəxsin ona hücum etdiyini və qızıl boyunbağısını qopararaq hadisə yerindən qaçdığını bildirib.**

Sumqayıt ŞPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Corat qəsəbə sakini Məmməd Vəliyev saxlanılıb.

M.Vəliyevin ətrafında aparılan əlavə istintaq-əməliyyat tədbirləri ilə onun başqa cinayətlərinin də üstü açılıb. Belə ki, onun müxtəlif vaxtlarda şəhər ərazisində daha iki qadına qarşı soyğunçuluq edərək zərərçəkənlərin qızıl-zinət əşyaları və əl çantalarını ələ keçirdiyi məlum olub. İstintaq zamanı onun qadınlara ümumilikdə 2.000 manata yaxın maddi ziyan vurduğu sübuta yetirilib.

Faktla bağlı Sumqayıt Şəhər Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Polis əməkdaşları soyğunçuluq etməkdə şübhəli bilinən M.Vəliyevin başqa cinayətlərdə iştirak etdiyini də istisna etmirlər. Onun əməllərindən zərərçəkən başqa şəxslər varsa, bu barədə Daxili İşlər Nazirliyinin "102" Zəng Mərkəzinə və ya Sumqayıt ŞPİ-yə müraciət edə bilərlər.

## Bakıda şadlıq evinin administratoru xadiməni zorladı

**Bakıda şadlıq evinin administratoru xadiməni zorlayıb. Hadisə paytaxtın Binəqədi rayonu ərazisindəki məşhur şadlıq evlərindən birində baş verib. "Sputnik Azərbaycan" Binəqədi rayon hüquq-mühafizə orqanlarına istinadla məlumat yayıb.**

Məlumatlara görə, sentyabrın 18-də rayonun 5-ci polis bölməsinə 40 yaşlı paytaxt sakini (etik səbəblərə görə adını açıqlamırıq) müraciət edib. Qadın deyib ki, uşaqlarını saxlamaq üçün Süleyman Sani Axundov küçəsində yerləşən şadlıq saraylarından birində xadimə işləyib. Onun sözlərinə görə, tez-tez toy mərasiminin sonunadək işini bitirmək üçün gec saatlara kimi işdə qalıb.

Zərərçəkmiş deyib ki, sentyabrın 17-dən 18-nə keçən gecə şadlıq evinin administratoru onu zorlayıb.

Hazırda faktla bağlı materialların rayon prokurorluğuna verilməsi üçün işlər aparılır. Hələlik saxlanılan yoxdur.

Xatırladaq ki, bu, son bir ayda Bakıda yeddinci zorlama faktıdır.

## Xaçmazda 12 yaşlı uşaq göldə batdı

**Xaçmaz rayonunun Qobuqıraq kəndində süni göldə batdığı ehtimal edilən 2006-cı il təvəllüdlü Osmanov Hüseyn Elnur oğlunun axtarışları başa çatıb. "Trend"in Fövqəladə Hallar Nazirliyinin saytına istinadən məlumatına görə, H.Osmanovun meyiti Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən tapılaraq sudan çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.**

## Yasamal sakini qardaşını bıçaqladı

**Bakıda 27 yaşlı oğlan qardaşını bıçaqlayıb. "Report" xəbər verir ki, Yasamal rayonu, Birinci Alatava ərazisində 1990-cı il təvəllüdlü Qaraxan Acalov doğma qardaşı, 1991-ci il təvəllüdlü Sərxan Acalov tərəfindən bıçaqlanıb.**

Polis S.Acalovu saxlayıb. Faktla bağlı araşdırma aparılır.

## "Nar"ın dəstəyi ilə "Brain Ring" intellektual yarışları start götürdü

nar
Gəlin birlikdə böyüyək

**Təhsil və elmə, mədəniyyət və maarifləmənin təbliğinə xüsusi önəm verən "Nar" intellektual bilik yarışlarını dəstəkləməyə davam edir. Artıq bir neçə ildir ki, "Brain Ring" yarışının sponsorluğunu öz üzərinə götürmüş mobil operator bu il də məşhur bilik yarışlarının baş sponsorudur.**

**Sentyabr ayının 16-da "Brain Ring" intellektual bilik yarışlarının növbəti - on ikinci mövsümü start götürdü. "Brain Ring" bilik yarışlarında respublikanın müxtəlif bölgələri və ali məktəblərini təmsil edən komandalar iştirak edirlər. Yarışlarda respublikanın 17 bölgəsi və 10 ali məktəbini təmsil edən 32 komanda bilik mübarizəsi aparır. Dekabr ayının sonunadək davam edəcək yarışlar hər həftənin bazar günü saat 22:00-da İctimai TV vasitəsilə yayımlanır.**

**Televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə "Brain Ring" və "Nar" onlayn müsabiqə keçirir. Verilişin yayımı zamanı "Nar"-ın "Twitter" hesabında qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədiyyələr qazanırlar. Beləliklə, "Brain Ring" həvəskarları bu intellektual yarışı izləmək fürsəti ilə yanaşı, həm də "Nar" operatorundan hədiyyələr qazanmaq şansı əldə edirlər.**

**Yarışlarda qalib gəlmiş komanda xüsusi dizayn edilmiş "Bilik" kuboku ilə təltif ediləcək. "Bilik" kubokunun qalibi "Brain Ring 2018" Azərbaycan çempionu titulu uğrunda yarışmaq hüququ əldə edəcək.**

**"Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif səpkili bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir, maarifləmnəni təşviq edir.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**




## Bu il 113 uşaq məişət zorakılığına məruz qalıb

### Uşaqları zorakılığa məruz qalan 4 validеynə mühafizə orderi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyinin Məişət zorakılığına məruz qalan uşaqlar üçün yardım Mərkəzi tərəfindən bu il 113 nəfərə müxtəlif növ yardım göstərilib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən musavat.com-a verilən məlumata görə, yardım göstərilən 22 nəfər uşağın fiziki, 5 nəfərin cinsi, 30 nəfərin psixoloji, 9 nəfər uşağın iqtisadi zorakılığa məruz qaldığı müəyyən edilib. Bundan başqa, uşaqları zorakılığa məruz qalmış 4 validеynə müvafiq rayonun icra hakimiyyəti tərəfindən qısamüddətli mühafizə orderinin alınması təmin edilib. Boşanma ərəfəsində olan 6 ailənin üzvünə göstərilmiş hüquqi yardım və davamlı psixoloji seanslar nəticəsində onların barışığına nail olunub.

Məktəb yaşına çatmış 12 uşaq məktəbə hazırlıq proqramı üzrə hazırlıq keçib, 6 uşaq bağçaya yerləşdirilib, 7 uşağa ilkin tibbi yardım göstərilib və müalicələrinin davamı üçün tibb müəssisələrinə yönləndirilib. İki ananın 4 uşaq ilə birlikdə sığınacaqda məskunlaşması təmin olunub. Risk qrupuna aid edilən valideynlərdən 4 nəfəri işlə təmin edilib.

Məlumat üçün bildirək ki, mərkəzin fəaliyyət dairəsi Sumqayıt, Quba, Qusar, Şabran, Xaçmaz və digər ətraf şəhər və rayonları əhatə edir.

**❑ DÜNYA,
Musavat.com**



## "Nar"ın Bilik Günü müsabiqəsində iştirak edənlər hədiyyələr qazandı

nar
Gəlin birlikdə böyüyək

**Həmişə rəqəmsal kanallarda müsabiqələri və yarışları ilə fərqlənən "Nar"-ın 15 sentyabr - Bilik günü münasibətilə keçirdiyi müsabiqə abunəçilər və sosial şəbəkə istifadəçilərinin rəğbəti ilə qarşılandı. 15 - 17 sentyabr tarixləri arasında keçirilmiş müsabiqədə iştirak edənlər suallara cavab verməklə həm məktəb illərini xatırladı, həm də internet bonusları və hədiyyələr qazandı.**

**https://www.nar.az/mekteb-illeri.html səhifəsində keçirilmiş müsabiqədə dörd min beş yüzdən çox insan iştirak edib. İştirakçıların hamısı Nar tərəfindən internet bonusları ilə mükafatlandırıldı. Maksimum nəticə göstərən ilk 20 nəfərə isə mobil operator tərəfindən əlavə olaraq hədiyyələr verildi. Yarışda orta iştirak müddəti 6 dəqiqə 43 saniyə olub.**

**"Nar" kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

YENİ MÜSAVAT
N 199 (7088) 22 sentyabr 2018

# Payız gəldi... onunla bərabər depressiya da

## Ondan necə qurtulaq? Mütəxəssis məsləhətləri; 10 qızıl qayda...

**Payızın gəlişi yorğunluq hissi, istəksizlik və yuxu düzəninin dəyişməsi kimi halları da özü ilə birlikdə gətirir. Bu əlamətlər təbiətin dəyişməsi ilə bir araya gəlir və nəticədə bəzi insanların təbiətin bu dəyişikliyi ilə ayaqlaşa bilmədiyi üzə çıxır. Amma bir çox insan da payızın bu təsirlərini günlər irəlilədikcə arxada qoya bilir.**

**Bu depressiyadır, həm də payız depressiyası...**

Payız böhranı getdikcə azalmalı olduğu halda artırsa, bu, payız depressiyasının başlanğıcı deməkdir. İnsanın depressiyaya girməyə meylliliyi varsa, payız fəslinin bəzi özəllikləri bu depressiyaya işarə edə bilər. Nəticədə nə baş verir? Həyatınızda yaxşı şeylər baş versə belə, "bədbəxtlik" və "yalnızlıq" hissi bütün ruhumuzu bürüyər, özümüzü boşluqda hiss edər və kədərlənərik. Adi halda zövq aldığımız şeyləri belə etmək bizə əzab kimi gələr. Heç kimlə görüşmək, danışmaq istəmərik. Sanki yaşamın verdiyi sevinc ortadan qalxıb və hər şey edilməsi çətin, məcburi və mənasız bir hal almaqdadır. Sanki qarşımızda həyat axıb gedir və biz bayırdan baxırıq. Elə bil ki, diqqətimizi çəkməyən bir görüntünü izləyirik. Xüsusən də günlərin qısalması və buna bağlı olaraq bədənimizdə ifraz olunan xoşbəxtlik hormonunun azalması, bədbəxt olduqca artan istəksizlik və halsızlıq, payız depressiyasını tətikləyən detallar arasında sayıla bilər. Unutmayın, hər yol çətindir. Önəmli olan bu əngəlləri minimum fəsadlarla aşaraq irəliləyə bilmək, istədiyimiz məqsədi hələ də onu arzulayaraq çata bilməkdir. Amma payız depressiyasını ümidsizlik və çarəsizlik olaraq görməməli və mütəxəssis yardımı ilə ortadan qaldırılacaq bir müddət olduğunu unutmamalıyıq.

**Türkiyəli mütəxəssis-psixoloq Eylem Esen** insanların belə bir durumla qarşılaşdığı zaman mütləq bir mütəxəssisdən dəstək almasının vacibliyini bildirib. Lazımi durumlarda müalicə ilə insanın özündəki dəyişikliyin fərqinə varması, özünə zərər verən problemlərdən çıxış yolu tapması lazımdır.

**Bu əlamətlər sizdə varsa...**

Aşağıda yazdığımız əlamətlər depressiyanın xəbərçisidir.

*- Yuxu müddətinin artması, oyanmaqda çətinlik, səhərlər yorğunluq hissi, gün boyu yuxulu olmaq. Bəzən erkən oyanmaq və yenidən yuxuya gedə bilməmək müşahidə olunur;*

*- əhvalın, özünüqiymətləndirmənin aşağı düşməsi, kədər, ağlamağa meyllilik, narahatlıq, həyata marağın azalması, müsbət emosiyaların itirilməsi, gündəlik işlərin icrasında çətinlik çəkmə;*

*- həyəcanlılıq, əsəbilik, tez özündən çıxma, daxili gərginlik, stressli situasiyalara dözümsüzlük;*

*- iştahanın artması, çəkinin artmasına səbəb olan un məmulatları və şirniyyata kəskin meyl;*



*- seksual problemlər, libido və potensiyanın düşməsi;*

*- fiziki əlamətlər: oynaqlarda və qarında ağrılar, gücsüzlük, tez-tez qrip olma;*

*- sosial problemlər: sosial əlaqələrdən, yaxınlarla və dostlarla ünsiyyətdən qaçmaq.*

Mövsümi depressiyalara istənilən yaşda rast gəlmək olar. Heç kəs ondan sığortalanmayıb. Lakin 18-30 yaş arası insanlar bu depressiyaya daha çox məruz qalırlar. Eyni zamandan qadınlar kişilərə nisbətən daha çox depressiyaya məruz qalırlar.

**Günəş əskikliyi və əzginlik**

Xüsusən mövsümi depressiyanın görülmə sıxlığı payızdan başlanıb, qışın sonuna qədər ən yüksək səviyyəyə çatır. Yağışlı və buludlu hava şərtlərini görə Günəş işığının əksikliyi beyində xoşbəxtlik hormonu və D vitamini istehsalını azaldır. Bu da önəmli rol oynayır. Çalışdığımız aurada mümkünsə gün işığının daha çox olmasına diqqət etməliyik. Bu səbəbdən də Günəşi az görən Şimali Avropa ölkələrində depressiya müalicəsi üçün Günəş işığını təqlid edən müalicə otaqlarından istifadə edildiyi bilinir. Digər bir çıxış yolu da işə gedib gələrkən mənzil başına çatmadan bir dayanacaq öncə enib, gün işığında gəzməkdir. Bu, eynək taxmadan edildiyi zaman Günəş işığının göz bəbəyimizdən beynə çatmasını asanlaşdırır. Pozitiv dostlarla və hobbilərlə məşğul olmaq, sosiallaşmaq da depressiya riskini azaldır.

**D vitamini qriplə mübarizə aparır**

Günəş yardımı ilə dərimizdə olan D vitamini immunitet sisteminin 20-yə yaxın antibiotikə bənzər silah istehsalını təmin edir. Xüsusən yayda lazımi qədər Günəş görməyən və ya tətil etməyənlər havaların soyuması ilə viruslarla yaranan, qripə bənzər xəstəliklərə daha asanlıqla yoluxur və çətinliklər sağalırlar. Bu insanların həkimlərinə müraciət edərək, qanlarındakı D vitamininin səviyyəsini ölçdürüb, əlavə vitaminlər qəbul etmələri məsləhət görülür.

Sərin havada bayırda gimnastika etmək lazımdır. Kökəlməkdən qurtulun. Sistemli edilən gimnastika başda mikrob xəstəlikləri olmaqla bir çox xəstəliklərə yaxalanmağa mane olur. Amma hesab edək ki, payız depressiyasına yaxalanmısız. Ondan da qurtulmaq mümkündür. Liv Hospital Klinikasının psixoloqu Beril Yardımcı payız depressiyasından qurtulmağın 10 qızıl qaydasından danışıb.

**1. Otağınıza gün doğsun!**

Payız depressiyasının əlamətlərindən biri səhərlər oyanmağınızda yaşadığınız çətinlikdir. İnsan kifayət qədər yatmış olsa belə, yataqdan qalxmaq istəmir. Yataq otağında zaman-zaman aydınlatma sistemi qurmaq və alarm çalışmadan yarım saat öncə süni də olsa yatağınızda gün doğuşunu hiss etmək oyanmağı asanlaşdırır.

**2. Həyatınıza işıq daxil edin!**

Hava sərin və qaranlıqdır deyə, Günəş işığından vaz keçməyin. Xüsusən də gündüzlər buludlu belə olsa, bayıra çıxın və Günəş işığını görün. Günəş işığı təbii olaraq beynin duyğusal mərkəzinə xəbərdarlıq edir və insanın özünü yaxşı hiss etməsini təmin edir. Tez oyanın, pərdələri açın, bayıra çıxın.

**3. Hərəkət!**

Soyuq hava tərləməmək üçün səbəb deyil. İdman mərkəzlərində, evdə və ya hətta bayırda ürəyiniz 140-ın üzərində vursun. Sadəcə, çəkini qorumaq və sağlam qalmaq üçün yox, gündəlik həyatın stressindən uzaqlaşmaq üçün də idmana vaxt ayırın. Yaxşı bir gimnastikanın təsiri saatlarla davam edər. Gün içində daha çox enerjimiz olur, həzm sistemimiz sürətlənir, yaxşı hiss etdirən hormonlar ifraz edilir. Sistemli gimnastika qış yuxusuna çəkilməyə meylli bədənə yaşadığını hiss etdirir.

06:00-08:00 arası bacardığınız qədər çox Günəş qəbul etməyə çalışın. Var gücünüzlə Günəş işığının azlığını kompensasiya etməyə çalışın. Gündüzlərin qısalması həm psixikamıza, həm də maddələr mübadiləsinə təsir göstərən daxili diskomfortun əsas səbəbidir. Gündüzlərin uzadılmasının tək yolu səhərlər günəşli saatlardan maksimum istifadədir. Gec yuxudan durmağı sevən insanlar üçün yuxu rejimini buna uyğunlaşdırmaq çox çətindir, lakin Günəş işığı qəbul etməyin başqa üsulu yoxdur. Həftə sonlarını qapalı yerdə keçirmək olmaz. Yarım gün belə olsa açıq havada gəzmək zəruridir.

Payızın hər bir mülayim gününü dəyərləndirin. Hava azca açılan kimi evdə televizorun qabağında oturmaqdansa, yaxşı geyinib gəzintiyə çıxmağa üstünlük verin. Nahar fasiləsində 15 dəqiqəlik belə olsa küçəyə çıxmağa çalışın və sadəcə, səmaya baxın. Evdə və iş yerində kifayət qədər günəş işığının olmasına nəzarət edin.

**4. Şəkərə diqqət!**

Xoşbəxtlik, gümrahlıq və canlılıq hissi verən serotonin hormonunun səviyyəsi aşağı düşdüyü zaman karbohidratları və şəkərli qidaları tükətmə istəyi artır. İnsanın xüsusən də şirniyyat yemə istəyi artır. Şəkərli və ağ unlu qidalara bağlılıq fizioloji bir gerçəkdir. Bunlar bədəndə narkotiklər kimi biokimyəvi sistemlərə təsir göstərər. Nə yediyiniz necə hiss etmənizə ciddi şəkildə təsir göstərir.

Payızda orqanizmdə ciddi dəyişikliklər baş verir. Məsələn, əgər biz yayda yüngülvari qida ilə aclığımızın qarşısını ala bilirdiksə payızda daha ağır və yağlı şeylər yemək istəyirik, belə ki, orqanizm istiyə ehtiyac duyduğu üçün ona əlavə kalori lazımdır. Buna müqavimət göstərmək lazım deyil, çünki siz orqanizminizə zor tətbiq edərək əvvəlki kimi yüngül kalorili qidalarla qidalanmağa davam etsəniz, sizdə əvvəl-axır daxili diskomfort hissi yaranacaq ki, bu da payız depressiyasının başlanması üçün zəmin olacaq. Buna görə də pəhrizləri unudub yemək istədiyiniz şeyləri yeyin, əlbəttə ki, normanı aşmamaq şərti ilə.

**5. Sosial həyatı unutmayın!**

Dostların, ailənin, iş yoldaşlarının, qonşuların əhəmiyyətini azaltmayın. Hər şeyi boş vermək istədiyinizdə kim sizə əl uzadar? Sizi dəstəkləyəcək insanları ağlınızda tutun, ehtiyac duyduğunuz zaman sizi cəsarətləndirmələrinə icazə verin. Bəzən bir telefon, kofe söhbəti və ya e-mail sizi canlandırır.

**6. Qışa həyəcan qatın!**

Nəyisə yaşayacağını gözləmək insanı motivasiya edər. Payız və qışda havaların isinməsini gözləmək bir az yorucudur, doğru. Amma sizə həyəcan verəcək bir həftə sonu gəzintisi, gecə planı və ya idman planları qışınıza rəng qatacaq. Xizək, qar yürüşü, buzda sürüşmə kimi fəaliyyətləri də həyəcanla gözləyə bilərsiniz.

**7. Gərginliyi azaldın!**

Məşğulsunuz. İş, dərs, ailə, dostlar, görüşlərlə məşğul olmaqdan xoşlansanız belə, hər kəsin sakit qalmağa ehtiyacı var. Bəzi öhdəliklərə və ya dəvətlərə "Yox" deməkdən çəkinməyin və bir neçə dəqiqə, saatı heç nə etmədən keçirin. Bu zamanda diqqətinizi daxilinizə çevirib, ruhi olaraq sakitləşməyə, fiziki olaraq rahatlamağa çalışın. Özünüzə köməkçi olacaq rahatlayıcı gimnastik hərəkətlər edin.

**8. Yuxu: nə çox, nə də az olmalıdır!**

İnsanlar soyuq havalarda təbii olaraq daha çox yatır. Bu fizioloji bir dərmandır və buna hörmət etmək lazımdır. Vaxtdan yaxşı istifadə edərək və intizamlı olaraq, gecələr 7-8 saat yatmağı hədəfləyin. Yatma və qalxma saatını müəyyən bir sistemə oturtmaq həyata ritm verir və enerji səviyyəsini artırır. Ehtiyacınız olan rahatlığı, sistemliliyi tapın. Xüsusən də həftə sonları həddən artıq yatmamağa diqqət edin. Bu, insanı daha çox yorğun sala bilər.

**9. Mövsümü qəbul edin!**

Mövsümlərin dəyişimi təbii bir prosesdir. Bu dəyişikliyə etiraz etmək yerinə, onu izləmək və detalları görmək insanın daha pozitiv bir ruh halı içində qalmasını təmin edir. Payız, qış özünəməxsus təcrübələri də paralel gətirir. Dəyişən təbiətindən, artan teatr sayına, tərəvəzlərindən televiziyadakı verilişlərə qədər zövq aldığınız şeyləri fərq edin.

**10. Peşəkar dəstək alın!**

Sadalanan əlamətlərdən üç və ya daha çoxu sizin üçün iki həftədən artıq bir müddətdə keçərlidirsə, peşəkar dəstək almaqdan çəkinməyin. İstəksizlik-bədbəxtlik, dəyərsizlik-günahkarlıq hissləri, yuxu pozğunluğu - həddən artıq yuxululuq, enerji azalması - yorğunluq, iştah dəyişikliyi, əsəbilik, narahatlıq-qayğı, konsentrasiya pozuqluqları...

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 199 (7088) 22 sentyabr 2018



## Köhnə şkafın içindən çıxan qızılları axtarış bürosuna verdi

Almaniyanın Bremen şəhər sakini köhnə mətbəx mebeli satın alıb və onun içində əvvəlki sahibi tərəfindən gizlədilmiş qızıl tapıb. Bu barədə "The Local" nəşri xəbər verib.

Qızıl külçələr mebelin yeşiklərindən birinin arxa divarında gizlədilibmiş. Onların ümumi çəkisi 2.5 kiloqram olub. Bu çəkidə qızılın qiyməti 83.5 min avro təşkil edir. Kişi bu tapdığını itmiş əşyalar üzrə axtarış bürosuna aparıb. Şəhər rəhbərliyinin iddiasına görə, o, düzgün hərəkət edib. Belə ki, şkafda gizlədilmiş qızıl ona məxsus olmayıb. Ona bu hərəkətinə görə 2.5 min avro dəyərində mükafat ödəyəcəklər.

Polis müəyyən edib ki, satışa qədər şkaf imkanlı bir təqaüdçünün evində olub. Sonuncu martda dünyasını dəyişib. İstisna deyil ki, qızıl külçələr orda on illərdir saxlanılıb.

2017-ci ildə xəbər verilmişdi ki, antik bir pianonun içində XIX əsrin sonu, XX əsrin əvvəllərinə məxsus qızıl pullar olub. Onun qanunu sahibinin kim olduğunu müəyyən etmək üçün araşdırma aparılıb.

# 8 aylıq hamiləliyini ərinə sürpriz kimi söylədi

Amerikalı Nataşa Doqerti 6 ay sonra üzməkdən evinə qayıdan ərinə sürpriz edib. Bu barədə "Associated Press" xəbər verib. Bütün ailə San-Dieqo sahilində, ABŞ-ın Hərbi Dəniz Donanmasının əsgəri Kris Doqertini qarşılamaq üçün sahilə yığışıb. O, gəmidən düşən kimi yanvardan bəri üzünü görmədiyi üç oğlunu qucaqlayıb. Daha sonra o, üzərində "Uşağın atası, xoş gəldin" sözləri yazılmış plakat tutan həyat yoldaşına yaxılaşıb. O, əri yaxınlaşanda plakatı aşağı salıb və hamilə olduğunu ona göstərib. Təəccüblənmiş dənizçi həyat yoldaşının qarnına əli ilə toxunub və "bu, həqiqidir" deyə soruşub.



Nataşa Doqerti əri üzməyə gedəndən 2 ay sonra hamilə olduğunu bilib və bunu sirr kimi saxlamaq istəyib: "Bu, çox çətin idi, amma nəticədə buna dəyərdi". Dördüncü uşağın dünyaya gəlişinə bir aydan az qalıb.

**2015-ci ildə Amerikanın Massaçusets ştatı sakini olan bir qadın doğuma bir saat qalmış hamilə olduğunu öyrənmişdi.**

# 9 ayda ilk dəfə iş masasını yığışdırdı və milyoner oldu



Kanadalı Kornelius Nayoks son 9 ayda ilk dəfə olaraq iş masasını yığışdırıb və orada uduşlu lotereya bileti tapıb. Bu barədə News.com xəbər portalı məlumat yayıb. Vaytkort şəhər sakini təxminən bir il bundan öncə lotereya bileti əldə edib, amma onu yoxlamağı unudub. Nəticədə də o bileti kağızların və digər lotereya biletlərinin arasında unudub. Nayoks nəhayət, kabinetini yığışdırmağa qərar verəndə bileti tapıb. Kanadalı bileti mağazaya aparıb, onu skan etdirib və orada 998.7 min Kanada dolları qazandığını öyrənib.

"Mən emosiyalarla dolmuşdum. Skanerin ekranındakı o sıfırların sayını görəndə gözlərimə inana bilmirdim".

Kanadalı bu uduşla yeni ev və maşın almağı planlaşdırır. Apreldə xəbər verilmişdi ki, yanlışlıqla milyonlarla dollar udmuş lotereya biletini zibil yeşiyinə atan qadının həyat yoldaşı bileti yeşikdən çıxararaq, onu yoxlayıb və uduş olduğunu görüb. Çünki sonuncu biletə boş yerə pul verdiyini düşünmək istəmirdi.




**QOÇ** - Üzərinizə düşən öhdəliklərə məsuliyyətlə yanaşsanız, bütün planlarınız reallığa yaxınlaşacaq. Buna baxmayaraq, yersiz risklərə də yol verməməlisiniz. Ziyarətgahlara gedin.

**BUĞA** - Bu gün bütün ixtiyar öz əlinizdə olduğundan ölçülü-biçili hərəkət etməlisiniz. Əgər müsbət müstəviyə həvəs göstərsəniz, günün sonuna qədər ovqatınız yüksək olacaq. Çılğın olmayın.

**ƏKİZLƏR** - Yaxşı olar ki, Tanrı qanunlarını pozmayasınız. Əks təqdirdə bu günü gərgin şəkildə başa vuracaqsınız. Ulduzlar ikitərəfli əməkdaşlıqda böyük uğurlardan xəbər verir.

**XƏRÇƏNG** - Aldanma ehtimalınız böyüdüyündən tədbirli olmağınız vacibdir. Ola bilsin ki, ətrafınızdakılar pulla bağlı sizə kələk gəlsinlər. Axşamı ailə-sevgi münasibətlərinə həsr edin.

**ŞİR** - Şəxsi işlərinizdə müsbət dönüşün yaranacağına təminat verən ulduzlar vaxtınızı boş yerə itirməməyi tövsiyə edir. Nahardan sonrakı əsas diqqətinizi bütünlüklə sevgiyə həsr edin.

**QIZ** - Yeni təkliflər ala bilərsiniz. Lap səhər saatlarından bu şansa hazır olun ki, nəticədə qalib gələsiniz. Pula görə də narahat olmayın. Çünki sevincli vaxtınızın yetişməsinə az qalıb.

**TƏRƏZİ** - Məhsuldarlığınız artdığından bugünkü öhdəlikləri layiqincə yerinə yetirə bilərsiniz. Qərarlarınızda sərt, eyni zamanda qərəzsiz olun. Səfərə çıxmaq fikrinizi reallaşdırın.

**ƏQRƏB** - Əsas uğurunuz maliyyə sahəsində mümkündür. Odur ki, kisənizi hazır tutun. Həmkarlarınızla münasibətlərinizə xələl gəlməsin deyə, qalmaqallı situasiyalara həvəs göstərməyin.

**OXATAN** - Təxminən saat 13-ə qədər iştirakçısı olduğunuz situasiyalar ovqatınıza mənfi təsir göstərə bilər. Buna baxmayaraq təmkin göstərməlisiniz ki, hər şey sakit ötüşsün. Varlanma ehtimalınız da var.

**OĞLAQ** - Aktiv gün olmadığından nəzərdə tutduğunuz planları təxirə salın. Gücünüzü daha çox ailə-məişət problemlərinin həllinə yönəldin. Şəxsi büdcənizin artma ehtimalı da böyükdür.

**SUTÖKƏN** - Daha çox fəaliyyət göstərdiyiniz idarə və müəssisələrdə ehtiyatlı olmalısınız. Boş yerə mübahisə yaratsanız, nüfuzunuza xələl gələcək. Axşama doğru kosmik fon xeyrinizə işləyəcək.

**BALIQLAR** - Ulduzlar bu gün xeyli yorulacağınızdan xəbər verir. Amma nahar olmamalı, gördüyünüz işlərdən zövq almalısınız. Nahardan sonra sizə maddi borcu olanlara müraciət edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ayı konfet almaq üçün mağazaya girdi



Alyaska ştatında ayı mağazaya daxil olub. Bu barədə videoyazı iyulun 1-də Alaska Dispatch News saytında yayılıb. Yırtıcı heyvan üzərində konfetlər olan piştaxtaya yaxınlaşıb və onları incələməyə başlayıb.

Mağazanın əməkdaşı Rocer Tibadonun sözlərinə görə, öncə heyvanın it olduğunu düşünüb. Amma bir neçə saniyə sonra qarşısındakının ayı olduğunu fərq edib. "Hesab edirəm ki, o, çox balaca idi. Yəqin ki, yanında başqa ayılar da var idi. Amma onlar mağazaya girmədilər".

**Piştaxta ilə yanaşı kofe içən alıcı isə güclü şəkildə əlini əlinə vuraraq ayını qovub. Tibadonun sözlərinə görə, ayı təsərrüfat malları satılan mağazaya üz tutub.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100